Xalqın qəzeti!

# Xalq qəzeti

№ 80 (30484) 21 aprel 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## TƏK ƏSGƏR



Səhifə ⇨ 3

## Gözün aydın Vətən, Qazax da bütövləşir!

*Əməkdaşımızın Qazaxdan reportajı*



Səhifə ⇨ 6

## "Qrossmeyster"in növbəti gedişi



Səhifə ⇨ 4

## "Axçi" Parisi Vaşinqtona nümunə göstərir



Səhifə ⇨ 4

## Bakıətrafı qəsəbələr içməli sudan korluq çəkməyəcək



Səhifə ⇨ 7

## ABŞ və NATO Ukraynaya yeni hücum silahları hazırlayır



Səhifə ⇨ 11

## "M Teatr" təkcə səhnə deyil, həm də mədəni mərkəzdir



Səhifə ⇨ 11

# "Sülhməramlılar" məsələsinə Ermənistandan reaksiyalar

### Rəsmi İrəvana yaxın ekspertlər Qərbin tezislərini necə yayırlar?



**Rusiya sülhməramlı kontingentinin Qarabağı tərk etməsi ilə bağlı diskussiyalar ara vermir. Rəylər müxtəlifdir. Əlbəttə, bu qərar ilk növbədə Azərbaycanla Rusiyanın bir-birinə olan inam və etimadının nəticəsidir. Hesab edirik ki, müstəqillik illərində hər iki dövlət arasında möhkəm səmimi bağlar yaranıb. Elə bağlar ki, hətta, bəzi gərginlik anlarında da durumu sığortalayıb.**

Bəli, hazırda Bakı ilə Moskva qarşılıqlı olaraq "qırmızı cizgiləri" qorumağı bacarırlar. Sülhməramlı kontingentin Qarabağı tərk etməsi bunun əyani sübutudur. Çünki Rusiyanın yerləşdiyi yeri tərk etməsi ağrılı prosesdir və bunu hər kəs yaxşı bilir. Belə nəticəyə gəlmək mümkündür ki, ölkələr arasındakı münasibətlər hazırda özünün ən yüksək səviyyəsinə çatıb.

Amma rus sülhməramlılarının Qarabağdan çıxma qərarına başqa yanaşmalar da var. Ötən saylarımızda məsələyə ABŞ başda olmaqla kollektiv Qərbin münasibətini diqqətə çatdırdıq. Qısaca deyək ki, reaksiyalar neqativdir. Qərb dünyasının yanaşmasında iki motiv var. Birincisi, "Rusiya Cənubi Qafqazdakı mövqelərini itirir" tipli sırf təbliğata hesablanmış deyimlərə nəzər salaq. Maraqlıdır ki, 2018-ci ildən sonra Kremli regiondan sıxışdırmaq niyyətli gedişlərdə başlıca alət rolunda Ermənistan çıxış edirdi. Kollektiv Qərb ona fokuslanaraq, anti-Rusiya ritorikasını işə salır və mövcud xüsusda ölkədə Rusiya hərbi bazasının varlığı məsələsi qabardılırdı. İndi paradoksal durum yaranır: Ermənistanda Rusiya hərbi bazası qalır, ancaq Azərbaycanda Rusiya hərbçiləri yoxdur. Belədə Qərbin sülhməramlılar üzərinə oynadığı "Moskvanın Cənubi Qafqazdan sıxışdırılması" təbliğatı yersizdir. Bu, bir daha onu göstərir ki, Kremllə münasibətlər səmimi əsasda qurulduqda nəticə hasil olunur. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan diplomatiyasının ən böyük uğuru da elə budur.

Kollektiv Qərbin Rusiya sülhməramlılarının Qarabağdan çıxmalarına yönələn reaksiyalarındakı ikinci məqama diqqət yetirək. Bildirilir ki, Moskva etibarlı müttəfiq deyil. Əlbəttə, bu zaman onunla rəsmi İrəvan arasındakı əlaqələrə fokuslanma meyli nəzərə çarpır. Ənənəvi olaraq işlədilən bir deyim də var: Rusiya Ermənistanın maraqlarını satdı. Hansı maraqları? Əlbəttə ki, ön planda Qarabağ dayanır. Qərbin yanaşmasından belə aydın olur ki, Moskva bölgəni erməniləşdirməli idi. O zaman elementar sual yaranır: Rusiya Qarabağda erməni separatizmini saxlamalı idisə, nəyə görə Ermənistan hakimiyyəti erməni milli identikliyi baxımından yüksək qiymətləndirilən məsələ olduğu halda, Kremlə qarşı çıxmaq yolu tuturdu?

***

Bəli, rəsmi İrəvan yenə anti-Rusiya köklənişini davam etdirir. Bunu rus sülhməramlılarının Qarabağdan çıxmaları xüsusunda da gerçəkləşdirir. Ancaq hazırda bir qədər fərqli metod seçilib. Erməni ictimai rəyinin təmsilçiləri, hakim dairələrə yaxın politoloq-ekspert cameəsi sülhməramlıların gedişi xüsusunda Rusiyanı, bir növ, aşağılayırlar. Elə görüntü yaradırlar ki, sanki Moskva Cənubi Qafqazı güzəştə gedir. Güzəşt kimədir? Əlbəttə ki, söhbət Qərbin qarşısında geri çəkilməkdən getmir. Bildirilir ki, Kreml bölgədəki liderliyini Türkiyəyə verir. Şübhəsiz ki, belə deyimlər Rusiya ilə Türkiyə arasında nifaq salmağa hesablanıb. Üstəlik, hazırda Türkiyə ilə müttəfiq olan Azərbaycanın Rusiyanı sıxışdırması məntiqi də qabardılır. Göründüyü kimi, son dərəcə hiyləgər siyasi metod seçilib. Heç şübhəsiz, bu sayaq ifadələr Qərbin beyin mərkəzlərinin erməni siyasilərə verdikləri tezislərdən qaynaqlanır.

**(ardı 3-cü səhifədə)**

# Ölkəmiz Orta Dəhlizin fəal və vacib tərəfdaşıdır



**Maliyyə naziri Samir Şərifov Vaşinqtonda keçirilən Beynəlxalq Valyuta Fondu və Dünya Bankı Qrupunun Yaz Toplantısı çərçivəsində təşkil olunmuş "Orta Dəhlizin ticarət və logistika potensialının reallaşdırılması" mövzusunda tədbirdə iştirak edib.**

Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə vitse-prezidenti xanım Antonella Bassaninin sədrliyi ilə keçən görüşdə Dünya Bankının, Avropa Komissiyasının və ABŞ Dövlət Departamentinin nümayəndələri ilə yanaşı, Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrinin, eləcə də Türkiyənin hökumət nümayəndələri iştirak edib.

Tədbirdə Azərbaycanı təmsil edən Samir Şərifov Azərbaycanın Orta Dəhlizin mühüm tərəfdaşlarından biri olduğunu vurğulayaraq son illərdə ölkədə yol-nəqliyyat infrastrukturunun inkişafı, ticarət və logistika potensialının genişləndirilməsi istiqamətində görülmüş işlərdən danışıb. Nazir bildirib ki, Dünya Bankının təqdimatında da qeyd olunduğu kimi, Azərbaycan Orta Dəhlizin reallaşdırılması üçün öz üzərinə düşən işləri tam yerinə yetirib. O, Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin istifadəyə verilməsi və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma gücünün artırılması, eləcə də ölkədə nəqliyyat və logistika infrastrukturunun yaxşılaşdırılması ilə bağlı görülən digər işləri qeyd edib. Nazir Zəngəzur dəhlizinin də Orta Dəhliz boyunca yeni nəqliyyat arteriyasının açılması baxımından xüsusi əhəmiyyətə malik olduğunu və region ölkələrinin tranzit potensialının tam şəkildə reallaşdırılmasına xidmət edəcəyini bildirib. Sonda Samir Şərifov Azərbaycanın Orta Dəhlizin fəal və vacib tərəfdaşı olmağa davam edəcəyini qeyd edib.

# Qafqaz Albaniyası orta əsrlər Azərbaycan dövlətidir

## *Etnoarxeologiya, yazılı mənbələr və abidələr bu həqiqətin aynasıdır*



**Aprelin 20-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, AMEA-nın Tarix və Etnologiya İnstitutu, Azərbaycan–Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası (SEBA) və Alban-udi xristian icmasının birgə təşkilatçılığı ilə keçirilən "Qafqaz Albaniyası: Etnoarxeologiya, yazılı mənbələr və tarixi abidələr" mövzusunda XI beynəlxalq konfrans başa çatıb.**

Konfransın keçirilməsində məqsəd dünya albanşünaslığının görkəmli nümayəndələrini bir araya gətirməklə səmərəli elmi müzakirələr aparmaq olub.

Beynəlxalq elmi məclisin açılışında AMEA Tarix və Etnologiya İnstitutunun direktoru, tarix elmləri doktoru, professor Kərim Şükürov bildirib ki, Qafqaz Albaniyası min ilə yaxın müddətdə mövcud olmuşdur. Bu dövlət dünya tarixinə verdiyi töhfəsinə görə yeni tarixi model yaratmışdır. Azərbaycan dünya albanistikasının mərkəzinə çevrilmişdir. Azərbaycanda Qafqaz Albaniyasının tarixinin öyrənilməsi istiqamətində böyük elmi işlər görülüb.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli vurğulayıb ki, Azərbaycan dövlətçiliyinin təşəkkülünün bir hissəsi olan Qafqaz Albaniyasının, onun dövrümüzə qədər gəlib çıxan irsinin bu gün daha sistemli şəkildə araşdırılmasına ehtiyac var. Onun sözlərinə görə, 30 ilə yaxın işğal altında qalan torpaqlarımızdakı arxeoloji, etnoqrafik, memarlıq nümunələrinin ermənilər tərəfindən saxtalaşdırılmasına cəhdlər göstərilib. O bildirib ki, bu abidələrin sırasında Qafqaz Albaniyasının xristian irsi xüsusi yer tutur. Sözügedən maddi mədəniyyət nümunələrinin ölkəmizə məxsusluğuna dair tarixi həqiqətlərin beynəlxalq elmi ictimaiyyətə çatdırılması vacibdir.

Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdullayev qeyd edib ki, Qafqaz Albaniyasının tarixi ilə bağlı əsassız iddia irəli sürənlər, yəni, qonşu Ermənistanın "alimləri" və onlara dəstək verənlər elmin yox, siyasətin ardınca gedirlər.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov zəngin alban etnomədəni irsinin, Qafqaz Albaniyasının antik və erkən orta əsrlərə aid mədəniyyətinin və bu ərazidə sonrakı əsrlərdə yaşamış etnoslar tərəfindən yaradılan bütün tarixi və dini irsin birbaşa tarixi varisi və qoruyucusunun Azərbaycan olduğunu söyləyib.

Konfrans "Qafqaz Albaniyasının tarixi coğrafiyası və arxeologiyası", "Qafqaz Albaniyasının daxili vəziyyəti. Beynəlxalq əlaqələr və xarici siyasət", "Qafqaz Albaniyasında yazı, din və mədəniyyət", "Qafqaz Albaniyasının əhalisi və varisləri" mövzusunda bölmə iclasları ilə davam edib. Bölmə iclaslarında Türkiyə, Qazaxıstan, Özbəkistan, Cənubi Koreya, Rusiya, Polşa, İtaliya, Gürcüstan, Almaniya, Fransa, Kanada, ABŞ və Litvadan olan albanşünas mütəxəssislərin məruzələri dinlənilib.

*XQ*

# Gürcüstanda azərbaycanlıların qayğı və ehtiyacları öyrənilir



**Gürcüstanın Dmanisi və Kvemo Kartli bölgəsində Barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Tea Axvledianinin iştirakı ilə məlumatlandırma kampaniyası keçirilir.**

Nazir bildirilib ki, aprelin 16-dan mayın 22-dək davam edəcək çoxkomponentli kampaniyanın məqsədi Gürcüstan vətəndaşı olan etnik azlıqları cari dövlət proqramları və xidmətlər, eləcə də digər aktual məsələlər barədə məlumatlandırmaqdan ibarətdir.

Dmanisi rayonunda fəaliyyət göstərən "Vətəndaş Cəmiyyətinin Təhsili və İnkişafı üçün Vətəndaş Birliyi"nin rəhbəri Kamran Xıdırov və birliyin gürcü dili müəllimi Maya Xmaladze Azərbaycanın Diaspora İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə həyata keçirilən layihələr çərçivəsində gürcü dilinin tədrisinə xüsusi yer verildiyini bildiriblər. Son üç il ərzində ali məktəblərə qəbul olan azərbaycanlıların sayının artdığı, həmçinin bu layihələrin yerli etnik azərbaycanlıların gürcü cəmiyyətinə inteqrasiyasında mühüm rol oynadığı nazirin nəzərinə çatdırılıb. Nazir bildirib ki, bu ildən azərbaycanlılar üçün ali təhsil müəssisələrində dövlət hesabına ödənişsiz yerlərin sayı 100-dən 200-ə çatdırılıb.

Qeyd edək ki, bu il ilk dəfə olaraq Kvemo Kartli bölgəsindən başlanan məlumatlandırma kampaniyası çərçivəsində müvafiq nazirliklərin yüksək ixtisaslı nümayəndələrinin rayonun 70-ə yaxın kəndində sakinlərlə görüş keçirəcəyi planlaşdırılır. Kampaniya çərçivəsində vətəndaşlar təhsil, dövlət dilinin öyrədilməsi, səhiyyə, kənd təsərrüfatı, sosial yardım və qrantlar, dövlət proqramları və xidmətləri, ödənişsiz hüquqi yardım və dövlət tərəfindən təyin olunmuş dəstək tədbirləri haqqında məlumat almaq imkanı əldə edəcəklər.

*XQ*

# Bakıda növbəti ümumşəhər iməciliyi

**Yaz mövsümü ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən dünən paytaxtda növbəti ümumşəhər iməciliyi və ağacəkmə aksiyası keçirilib.**



Bakı Şəhər İcra Hakimiyyəti kommunal təsərrüfat xidmətlərinin texnikası səhər saatlarından əsas küçə və prospektlərin bitki və canlılara ziyansız yuyucu maddələrlə yuyulmasını aparıb, xidmətin əməkdaşları tərəfindən prospekt və küçələrin, səki kənarlarının, bordyurların və buradakı işıq dirəklərinin, yol kənarındakı məhəccərlərin, park və istirahət yerlərində oturacaqların yuyulmasını həyata keçirilib.

Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyi əməkdaşları tərəfindən əsas magistral yol və prospektlərin kənarlarındakı ağacların üzərinə toplanan toz və torpaq yuyulub, onların dibi yumşaldılıb, mövsümlə əlaqədar ağaclara və yaşıllıq sahələrinə aqrotexniki qulluq göstərilib və təbii gübrələr verilib. Eyni zamanda, şəhər ərazisində Abşeron iqliminə uyğun yeni ağaclar, kollar, güllər əkilir, müxtəlif rəngli güllərdən kompozisiyalar yaradılır, yaşıllıq zolaqları və parklarda qazon örtüyünün yenilənməsi aparılır.

# Gənc əsgərlərin hazırlığına xüsusi diqqət yetirilir

**Azərbaycan Respublikası vətəndaşlarının 2024-cü il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması haqqında Azərbaycan Prezidentinin müvafiq Sərəncamının icrası ilə bağlı Ordumuzun təlim hərbi hissələrinə yeni qəbul olunan gənc əsgərlərin hazırlığına xüsusi diqqət yetirilir.**

Gənc əsgərlərin hazırlığı proqramına uyğun olaraq çağırışçılarla keçirilən fərdi hazırlıq məşğələlərində onlara nizamnamə və hərbi qanunvericiliyin müvafiq tələbləri, hərbi intizam qaydaları, eləcə də sıra, fiziki və atəş hazırlığı üzrə çalışmaların elementləri öyrədilir.

XQ

# İran səfirinin xidmət müddəti başa çatır



**Aprelin 20-də xarici işlər naziri Ceyhun Bayramov diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar İranın ölkəmizdəki səfiri Seyid Abbas Musəvi ilə görüşüb.**

Tərəflər hazırkı dönəmdə iki dövlət arasında tarixi köklərə əsaslanan dostluq və əməkdaşlıq münasibətlərinin qarşılıqlı hörmət əsasında inkişafından məmnunluq ifadə ediblər.

Ceyhun Bayramov regional və çoxtərəfli çərçivələrdə iki ölkə arasında əlaqələrin inkişafının, 3+3 kimi regional formatların səmərəli fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

Seyid Abbas Musəvi diplomatik fəaliyyəti müddətində ona göstərilən dəstəyə görə təşəkkür edib.

Nazir Ceyhun Bayramov səfir Seyid Abbas Musəviyə gələcək fəaliyyətində uğurlar arzulayıb.

# 4 kəndin qaytarılması sülh sazişinə töhfədir

**Azərbaycan və Ermənistan sərhəd komissiyaları arasında əldə olunan razılıq sülh sazişi üçün mühüm töhfədir. Bu barədə Türkiyə Xarici İşlər Nazirliyinin məlumatında bildirilib.**



Qeyd olunub ki, rəsmi Ankara razılaşmanın nəticələrini, o cümlədən dörd kəndin Azərbaycana qaytarılmasını müsbət qiymətləndirir. Həmçinin vurğulanıb ki, Türkiyə iki ölkə arasında müzakirələrin davam etdirilməsi ilə bağlı razılığı məmnunluqla qarşılayır.

*XQ*

# Ordumuz Ermənistanla şərti sərhəddə ayıq-sayıq dayanıb



**Aprelin 20-də Quru Qoşunlarının qərargahında müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib. Müşavirədə müdafiə nazirinin müavini – Quru Qoşunların komandanı general-leytenant Hikmət Mirzəyev, Quru Qoşunlarının idarə və xidmət rəisləri, birlik, birləşmə komandirləri iştirak ediblər.**

Müdafiə naziri Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarına çatdırıb. Müşavirədə Azərbaycan-Ermənistan şərti sərhədində mövcud əməliyyat şəraiti, hərbi hissələrin döyüş hazırlığı üzrə tədbirlər və hərbi intizamın vəziyyəti təhlil edilib.

Nazir hərbi hissələrin xidməti-döyüş fəaliyyətinin təkmilləşdirilməsi, ayıq-sayıqlığın artırılması, eləcə də döyüş tapşırıqlarının dəqiq və vaxtında icrasına daim hazır olunması barədə müvafiq göstərişlər verib.

Çətin relyefli, yüksək dağlıq ərazilərdə döyüş növbətçiliyi aparan bölmələrin maddi-texniki və mühəndis təminatı, o cümlədən şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə xüsusi diqqət yetirilməsinin vacibliyi vurğulanıb.

General-polkovnik Z.Həsənov Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası prosesinin effektiv həyata keçirilməsi və təhlükəsizliyin təmin edilməsi məqsədilə digər dövlət qurumları ilə qarşılıqlı əlaqədə zəruri tədbirlərin görülməsi barədə aidiyyəti şəxslər qarşısında konkret tapşırıqlar qoyub.

Müdafiə naziri Azərbaycanın Qarabağ bölgəsində müvəqqəti yerləşdirilmiş hazırda isə ölkəmizi tərk edən Rusiya sülhməramlı kontingentinin şəxsi heyət, silah-sursat və döyüş texnikasının daşınmasında lazımi texniki dəstəyin göstərilməsi ilə bağlı müvafiq göstərişlər verib.

Sonda icra edilən tədbirlərin daha keyfiyyətli yerinə yetirilməsinin əhəmiyyəti qeyd olunub.

*XQ*

Sözün zamanı – zamanın sözü



# TƏK ƏSGƏR

Rafael HÜSEYNOV,
Milli Məclisin deputatı, akademik

**Gərək illər keçə, gərək bu günlərə sabahın hündürlüyündən baxasan. Qəlbi riqqətlə dolduran indiki günlərdən zamanca aralandıqca onların böyüklüyünü, qazandıqlarımızın möhtəşəmliyini daha aydın və dəqiq görəcəyik. Fərəh elə intəhasızdır.**

Bu illər və günlər içində fərəhimiz elə intəhasızdır ki, zəfərlərimizə soyuq ağılla nə qədər qiymət verməyə çalışsan da, mütləq hisslər daha üstün gələcək. Hər zəfərimizlə bu millətin vüqarı daha da artır, hər uğurumuzla Azərbaycan daha da bütövləşir, hər yüksəlişimizlə düşmənlərimiz, istəməyənlərimiz, bizdən olub bizə dönük çıxanlar da daha artıq xar olur.

Hansı xalqın övladı kimi dünyaya gəlmək alın yazısıdır, özümüzün yox, taleyin seçimidir. Hər bir insanın da məhz mənsub olduğu xalqın övladı sayılmaqdan iftixar duyması dünyanı, özünü dərk etdiyi andan qismətinə düşən ən təbii hissdir. Elə həmin səbəbdən də, əlbəttə ki, hər bir soydaşımız azərbaycanlı olması ilə fəxr edir. Ancaq Azərbaycan insanı heç vaxt indiki kimi xoşbəxt olmayıb və azərbaycanlı olmağından indiki kimi qürurlanmayıb.

Qalib millət olmağın gətirdiyi əminlik, alnıaçıqlıq, başını dik tutmaq ötkəmliyi yalnız burada – respublikamızdakı sayı 10 milyonu aşan vətəndaşlarımızı deyil, dünya boyuncakı 50 milyondan artıq soydaşımızı da dəyişib. Zəfərdən əvvəlki Azərbaycan və azərbaycanlılarla Zəfərdən sonrakı Azərbaycan və azərbaycanlılar eyni deyil. Biz indi bir millət olaraq daha bütövük, daha güclüyük, daha qətiyyətliyik, bundan da qat-qat böyük yüksəlişlərə layiqliyimizə daha inamlıyıq.

Millətə və yurda ömründəki bu misilsiz növrağı bəxş edən Azərbaycan qalibiyyətinin Memarı Prezident İlham Əliyevdir!

Bir qüdrətli şəxsiyyətin tarixi də, xalqının iqbalını da röyaları gerçəkləşdirirmiş kimi möcüzəli şəkildə necə dəyişə bilməsinin ən parlaq örnəyi ortadadır. Haqq itirməyən və nail olduqlarının halalı olmasını istəyən hər yurddaşın varlığında bunlara görə sonsuz minnətdarlıq duyğusu gərək daim nəbz kimi döyünə.

Yox, hələ bu illər və günlər içində yaşadığımız heyranlıq, heyrət, qürur və köksəsığmaz sevinc duyğuları əsla imkan verməyəcək ki, baş verənləri bütün dolğunluğu, gerçək miqyasları ilə qiymətləndirək. Heç bu zəfərli illərin və günlərin yaxın-uzaq xəbis müşahidəçilərini də, sapı özümüzdən olan zatı qırıqları da məğlubiyyətə düçar olan qarşı tərəfdən daha artıq yandıran ardıcıl qələbələrimizin onlarda yaratdığı sarsıntı, çaşqınlıq, ixtiyarsız qıcolma macal verməyəcək ki, bunca yaxın məsafədən baş verənlərin həqiqi əzəmətini tamlığı ilə görüb qiymətləndirə bilsinlər.

O səadət ki Ali Baş Komandan, Prezident Azərbaycan xalqının hər sıra nəfərinə nəsib edib və etməkdədir, bunun sözdə, yazıda ifadəsi mümkünsüzdür. Çünki bu fərəhin sığacağı irilikdə, dərinlikdə və genişlikdə sözlər yoxdur.

Tarix yarada-yarada Prezident İlham Əliyev artıq özü də tarixləşib və ona yaraşan ən tutarlı, ən insaflı, ən ədalətli dəyərləndirməni müəyyənləşdirmək də elə Tarixin işidir.

İndidən təsəvvür edilənsə budur ki, uca xidmətlərinə görə ona Tarixin verəcəyi qiymət, heç şübhəsiz ki, müasirlərinin düşündüklərindən çox yuxarıda olacaqdır.

İnsanın öz torpağına sahiblik əminliyindən daha yüksək olan coşqunu, qürur və güvənliyi ağla gətirmək çətindir. Ancaq İlham Əliyev bir millət və dövlət öndəri olaraq insanımıza bundan da yüksək bir hissi bağışlaya bildi – yenilməz olmaq, qalib gəlmək, haqqı çatanı mütləq qazanmaq, böyüklük və kiçikliyindən asılı olmayaraq heç kəsə onunla özünü daha uca tutaraq danışmaq ixtiyarı verməmək ötkəmliyini.

Hər cəhətdən güclü dövlətimiz, qadir ordumuz, ağıllı xarici siyasətimiz var və qüdrətimizin təsdiqedicisi olan xeyli başqa üstünlüklərə sahibik. Ancaq hər birimiz də, dünya da, dost və düşmən də açıqca görür və anlayır ki, bu gün bizi biz edən, məhz heç zaman olmadığı kimi bunca qüdrətə çatdıran Liderimiz var!

Dünya tarixi çox döyüşlər, çox ordular, çox sərkərdələr görüb. 2020-ci ilin hələ qızğın döyüşlər gedən, Azərbaycan əsgərinin işğal altındakı hər qarış torpağını düşmən tapdağından azad etmək yolunda ölüm-dirim savaşına qatıldığı çağlarda millətin və özümün yaşadıqlarımızı günbəgün yazılaşdırırdım, o düşüncələr qəzetlərdə dərc edilirdi və o həyəcanlı dönəmdə dünyadakı bizə dair siyasi gedişatı da təhlil edərək bu qənaətə gəlmişdim ki, Ermənistanla davadan qalib çıxmaqçün bir ordunun gücü yetməz, hökmən ikinci, bəlkə də daha güclü bir orduya ehtiyac var, həmin səbəbdən də yazılarımın birini "Millətin iki ordusu" adlandırmışdım. Azərbaycan nə xoşbəxtdir ki, bizim o dönəmdə məhz böyük Zəfərə çatmamızı təmin edən İkinci Ordumuz vardı.

Həmin İkinci Ordu olmasaydı, birinci ordumuzun da o qarşıdurmada qalib çıxması çətin olardı. Çünki bu, qeyri-bərabər savaş idi və Azərbaycan ordusu yalnız qarşısında dayanıb ona atəş açan düşmən tərəflə döyüşmürdü.

Əks tərəfdə məkrli siyasətlər və həmin siyasəti idarə edən müxtəlif böyük güclər dayanmışdılar. Onlardan saçılan atəşlər şiddətdə Qarabağ cəbhəsindəkilərdən geri qalmırdı.

Həmin 44 günlük savaş boyunca Ali Baş Komandan bir tərəfdən illər boyu səbirlə və tədbirli şəkildə qurduğu, gücləndirdiyi, ən müasir təminatına nail olduğu ordunu səriştə ilə idarə edir, addım-addım irəlilədirdi, o biri yandan da hər yeni gündə örtülü siyasətlərin, xarici dövlətlərin təhdid və təzyiqlərinin, çeşidli kəşfiyyatların əcnəbi jurnalistlər, xəbər agentlikləri, televiziyalar qismində qarşısında dayanan təmsilçilərinə mərdanə və aqil sözünü deyir, heyrətamiz təmkin, nadir hazırcavablıq, rəqibləri mat qoyan bilginlik və müdrikliklə ön cəbhədən daha amansız döyüşlər gedən diplomatiya meydanında ard-arda mükəmməl qələbələrini çalırdı.

Bu cəbhələrin ikisində də fəthlər sinxron davam etdikcə həm xalqın yaxın zəfərə inamı artırdı, həm döyüşən ordumuz daha artıq ruh yüksəkliyi qazanırdı, həm də bütün əks qüvvələr necə yenilməz bir qüdrətlə üz-üzə olduqlarını dərk etmək məcburiyyətində qalırdılar.

O günlərdə Azərbaycanda, Qarabağda cərəyan edənlər və Böyüklüyü hər kəsə bütün parlaqlığı ilə görünən Prezident və Sərkərdə İlham Əliyev dünyanın diqqət mərkəzində idi. O günlərdə dünyanın aparıcı mətbuatı və telekanalların əsas mövzuları sırasında Qarabağ döyüşləri və Siyasət Döyüşçüsü İlham Əliyev öndə idi.

Bu barədə isti-isti bizdə də, xaricdə də az bəhs edilməyib, bolluca məqalələr çap olunub, kitablar buraxılıb, amma qətiyyən şəkk yoxdur ki, hələ çox da yazılacaq, bütün bunların yerli-yataqlı təhlil edilərək tək bizdə deyil, dünyanın aparıcı ölkələrindəki təhsil mərkəzlərində hərb sənəti və diplomatiya tədrisində məxsusi yer tutacağı da uzaq günün sözü deyil.

Qoç Koroğlu "İgid gərək yar sevməyə özü tək gedə, tək gedə" söyləmişdi.

Prezident və Ali Baş Komandan İlham Əliyev millətinin və yurdunun düçar olduğu yüzilliklərlə yaşı olan düyünü biryolluq qırmaqçün meydana yar sevməyə deyil, əğyar yenməyə bütün yenilməzliyi, qətiyyəti, iradəsi ilə həm bütün təkbətək çarpışmalara tam hazır olaraq Tək çıxmışdı, həm də arxasında milləti, ordusu, sadiq dostları, silahdaşları olan bir Bütöv kimi!

2020-ci ilin 8 Noyabrına Azərbaycan minilləri və əsrləri aşaraq gəlmişdi və millət təqviminə arxada qalan əyyamlardakı çox bayramların izi düşmüşdü. O bayramlardan ömrünü yaşayıb gedənləri vardı, xalqla əbədi birgəlik yolunu davam etdirənlər də az deyildi. Ancaq həmin gün Azərbaycana elə bir bayram qismət oldu ki, inanmıram kimsə bununla razılaşmaya – geridə qalan minillərdə və yüzillərdə şadlığı, bəxtəvərliyi həmin bayramınkına çatanına rast gəlinməmişdi. Şuşa zəfəri çalındı, Qarabağ savaşı qələbəmizlə bitdi. Bizim millətin də təqviminə qanı ilə, canı ilə qazandığı Qələbə Bayramı əlavə olundu. Elə bir bayram ki, vətən və millət Böyük Vətən, Böyük Millət adlanmaq haqqını məhz o Bayramı yarada biləndən sonra qazanır.

Ən hüdudsuz sevincin də, ən ağrılı kədərin də soyuma, sənginə müddəti var, ən sevimli bayramların da xoş ovqatı bir neçə gün sürür, sonra yenə adi günlər sırası gəlir. Ancaq millət təqvimində yer alan Qələbə Bayramı, Zəfər Günü heç vaxt tükənməyən, hər gün hər millət balasının içərisində daşınan bir soyumaz sevincdir ki, durmadan könüllərə qüvvət verir, insanları daxilən səfərbərləşdirir, qaliblik ovqatına kökləyir.

Necə ki, o Böyük Qələbəmiz sevimli cazibəsiylə yeni qalibiyyətlərə də üfüqlər açdı.

Qarşıda Sərkərdə İlham Əliyevin və millətinin hələ daha bir inanılmaz Zəfər silsiləsi də dayanırdı. 2023-cü ilin 19 sentyabrındakı lokal antiterror tədbirlərinin nəticəsi olaraq bircə gün içərisində Azərbaycan ərazisindəki Ermənistan ordusunun qalıqları və cürbəcür düşmən tör-töküntüləri darmadağın edilərək separatçı-terrorçu dəstələr qəti təslim edildi.

2023-cü ilin 28 sentyabrında Qarabağdakı qondarma separatçı rejimin özünü buraxması ilə 2020-ci ilin 27 sentyabrından başlanan Zəfər salnaməsi tamamlandı. Qalib Azərbaycanın Fateh lideri İlham Əliyev 2023-cü il oktyabrın 15-də Üçrənglimizi onillərcə üzərində o müqəddəs bayrağın dalğalanmasını arzuladığımız Ağdərədə, Xocalıda və Xankəndidə ucaltdı, düz 20 il əvvəl həminki gündə böyük Yolunu başlayarkən Milləti və Tarix qarşısında içdiyi andı, verdiyi vədi yerinə yetirərək, nəhayət ki, Azərbaycanın dövlət müstəqilliyini yurdun bütün ərazisində bərqərar etdi.

Lakin bu vətənin və xalqın taleyində misli görünməmiş bir sərkərdəlik şücaətinə şahid olmaq məsudluğu da varmış.

Həm səfəvi məxəzləri, həm osmanlı qaynaqları təsdiqləyir ki, Şah İsmayıl ordusunun döyüş ruhunu coşdurmaq, qələbə əzmini yüksəltməkçün gərəkli anda sıyrılmış qılıncı ilə özü meydana atılar, əsgərlərinin önündə gedərmiş – "Cahanara-yi Şah İsmayıl Səfəvi", "Təvarix-i al-i Osmani" nəql edir ki, Şah Xətai ordunun ən cəsur əsgəri kimi özünü düşmən ordusunun qibləgahına vurur, qılıncının kəskin zərbələriylə topların zəncirlərini qırır, göstərdiyi rəşadət örnəkləri ilə igidlərinin qanını qaynadırdı.

Belə sərkərdəlik şücaəti örnəklərini tariximiz az-az da olsa görüb, bunları qəhrəmanlıq keçmişimizin səhifələrinə qızıl hərflərlə həkk edib.

Elə 2020-nin son sentyabr, oktyabr, ilk noyabr günlərində Azərbaycan Öndəri İlham Əliyev dünya siyasətinin nəhəng meydanında özünü odlara-alovlara vuraraq dəyanətlə irəliləyən Şah İsmayıl kimi idi, onun hamının gözləri önündə baş verən, bizim və dünyanın telekranlarında hər kəsə əyan olan hər yeni siyasi qələbəsi xalqı da, döyüşən ordunu da ilhamlandırırdı, düşmənin mütləq çöküşünün lap yaxınlarda yetişəcəyinə hər kəsi ümidləndirir, inandırır, hazırlayırdı.

Ancaq Sərkərdə İlham Əliyevin 2024-cü il aprelin 19-da qazandığı qələbənin tayı-bərabəri indiyədək olmamışdı və bu möcüzəli Zəfər də gərək hər zaman yaddaşlarda iftixar örnəyi kimi yaşaya.

Qarabağ uğrunda apardığımız azadlıq müharibəsi dönəmində ordumuzun bir atəş açmadan aldığı məntəqələr olmuşdu. Lakin 2024-cü ilin xoşbəxt aprel günündə Qazax mahalının Bağanis Ayrım, Aşağı Əskipara, Qızılhacılı kəndlərinin özümüzə qayıtmasının tarixi misilsizliyi onda idi ki, bu zəfəri artıq Tək Əsgər qazanmışdı. Meydanda nə ordu vardı, nə silah-sursat. Bu müstəsna qələbəni ağıllı, uzaqgörən və hədəfə dəqiq vuran siyasəti ilə gətirən Tək Əsgər elə Prezident İlham Əliyevin özü idi.

Bircə atəş açmadan qazandığımız, hünər və qələbələr tariximizə Tək Əsgərin – Millətin Baş Sərkərdəsi İlham Əliyevin zəka qüdrəti və dövlətçilik şücaəti ilə yazılan belə Zəfərə şahid kəsilib bu sevinci yaşaya bilməkdən böyük bəxtiyarlıq olarmı?!

# "Sülhməramlılar" məsələsinə Ermənistandan reaksiyalar

**(əvvəli 1-ci səhifədə)**

Erməni siyasilərin sülhməramlılar mövzusu ilə bağlı qabartdıqları ikinci məqamda da aşkar həyasızlıq elementləri var. Onlar bildirirlər ki, rus hərbi kontingentinin Qarabağı vaxtından əvvəl tərk etməsi Azərbaycanın və Rusiyanın razılaşdırılmış qərarıdır. Erməni siyasilərin təqdimatı təxminən belədir: Sülhməramlıların bölgədən çıxma qərarının qəbulunda Ermənistanın rəyi və maraqları nəzərə alınmayıb. Baxmayaraq ki, İrəvan Bakı və Moskva kimi tamhüquqlu tərəfdir. Çünki 2020-ci ilin 10 noyabr tarixli üçtərəfli Bəyanatda onun da imzası var və sülhməramlılar Qarabağa həmin sənədə əsasən yerləşdirilmişdilər.

Guya, Ermənistan hakimiyyəti üçtərəfli bəyanata məhəl qoyurdu? Əlbəttə ki, yox! Həyasızlıqlarını davam etdirən erməni siyasilər Azərbaycanın ötən ilin sentyabrında həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinə diqqət çəkir və bildirirlər ki, rus hərbçiləri həmin tədbirlər sonrası "Bakının həyata keçirdiyi etnik təmizləmə siyasətinin" qarşısını kəsə bilmədilər. Ona görə də birincilərin bölgədə qalmalarına lüzum yoxdur.

Şübhəsiz ki, bu sayaq deyimlər yolverilməzdir. Çünki Rusiya dövləti dəfələrlə bəyan edib ki, Qarabağı tərk etmiş erməni sakinlərin dinc və təhlükəsizlik şəraitdə öz yaşayış yerlərinə dönmələrinə hər cür dəstək göstərməyə hazırdır. Yeri gəlmişkən, Azərbaycan rəhbərliyi də hər zaman bu mövqedə olub və bəyan edib ki, Qarabağ erməniləri Azərbaycan vətəndaşları kimi, ölkə konstitusiyasının imkan verdiyi hər cür hüquq və azadlıqlardan yararlana bilərlər...

Erməni siyasilərin qabartdıqları daha bir məqama keçid alaq. Söhbət Rusiyanın diqqəti Ukrayna cəbhəsinə yönəltməsi ilə bağlıdır. Qeyd edək ki, Ukrayna müharibəsi fonunda Ermənistan Azərbaycana qarşı təxribatlar törədirdi. Ölkəmiz buna adekvat cavab verirdi və verməyə bilməzdi. Əlbəttə, cavablar sərt alınırdı. Belə bir durumda rəsmi İrəvan Rusiyanın fəaliyyətsizliyi məsələsini qabardırdı və bildirirdi ki, Moskva müttəflik öhdəliklərini yerinə yetirmir. Hər dəfə bölgədə eskalasiya mühiti yarananda belə deyimlər dövriyyəyə buraxılırdı. Hətta bir dəfə N.Paşinyan bildirmişdi ki, Moskvanın başı Ukraynaya qarışdığından, Ermənistanın təhlükəsizliyi ilə əlaqədar düşünmək iqtidarında deyil. Hazırda sülhməramlıların Qarabağdan çıxmaları müstəvisində də sözügedən fikirlər gündəmə gətirilir. Halbuki Kreml dəfələrlə bəyan edib: Ukrayna müharibəsi onun diqqətini Cənubi Qafqazdan ayırmaq iqtidarında deyil. Əlbəttə, region Rusiya üçün mühüm əhəmiyyətini saxlayır və saxlayacaq da.



Ermənistan siyasiləri sülhməramlıların çıxmaları xüsusunda daha bir məqama diqqət çəkirlər. Onlar bildirirlər ki, rus hərbçilərinin Qarabağı tərk etmələri təkcə dünyada deyil, həm də Cənubi Qafqazda sürətlə dəyişən geosiyasi vəziyyət fonunda baş verir. Onların fikrincə, 44 günlük müharibədə Türkiyənin dəstəklədiyi Azərbaycanın Qələbəsi Ankaranın bölgədəki nüfuzunu xeyli artırdı və qüvvələr nisbətinin dəyişməsinə səbəb oldu. Eyni zamanda, Cənubi Qafqazda dəyişən dinamika İran, Fransa, Hindistan kimi digər oyunçular üçün də imkanlar açır. Ən əsası isə sonuncular Rusiyanın zəifləyən mövqeləri hesabına mövcudluqlarını gücləndirməyə çalışacaqlar.

***Ə.RÜSTƏMOV***
***XQ***

# MEDIA: dezinformasiyalar əsassız və qərəzlidir




**Medianın İnkişafı Agentliyi bir sıra ölkələrin media vasitələrində dərc olunmuş əsassız məlumatlarla bağlı açıqlama yayıb.**

Bildirilir ki, Ermənistanın və bir sıra digər xarici ölkələrin media resurslarında Azərbaycan ərazisindən üçüncü dövlətə qarşı hərbi məqsədlərlə istifadə edilməsi haqqında mənbəyi məlum olmayan, habelə reallıqdan uzaq, əsassız məlumatlar yayılmaqdadır. MEDİA tərəfindən aparılan araşdırmalar göstərir ki, sözügedən məlumatlar dezinformasiya mahiyyəti daşıyır və Azərbacana qarşı sistemli informasiya hücumlarının tərkib hissəsidir.

Qurum həmin media subyektlərini və jurnalistləri qeyri-dəqiq, mənbəyi bilinməyən məlumatlardan istifadə etməməyə və ölkəmizə yönəlmiş dezinformasiya hücumlarının istənilən təzahürlərinə qarşı prinsipiallıq nümayiş etdirməyə çağırır.

# “Qrossmeyster”in növbəti gedişi

## Onun gözlənilməz “kombinasiyaları”na dünyanın “böyük gücləri” də “mat” qalırlar

**Qazaxın işğal altında qalan, anklav olmayan dörd kəndinin geri alınmasına qədər Azərbaycan hakimiyyəti ilk baxışda mümkün görünməyənləri belə reallığa çevirməyi bacarmışdır. Üç il beş ay bundan əvvəl Cənubi Qafqazın ən uzunömürlü münaqişə bölgəsində 44 günlük müzəffər savaşla geosiyasi, hərbi vəziyyəti kökündən dəyişən və bununla daxili və xarici aktorlara şok effekti yaşadan, sonrakı mərhələdə bir güllə atılmadan Laçını, Kəlbəcəri, Ağdamı işğaldan azad edən, yeddi ay öncə Qarabağ iqtisadi rayonumuzda birsutkalıq lokal antiterror tədbiri ilə erməni separatizminin kökünü kəsən, Azərbaycanın əzəli əraziləri üzərində suverenliyini bərpa edən, daha sonra yenə qan tökmədən on minlərlə ermənini öz xoşu ilə Qarabağın dağlıq hissəsindən Ermənistana yola salan, Xankəndidə Zəfər paradı düzənləyən və nəhayət, dörd gün bundan öncə Rusiya sülhməramlılarının ərazimizi vaxtından əvvəl tərk etməsini reallaşdıran Prezident İlham Əliyevin Vətəni və xalqı qarşısındakı xidmətləri çağdaş tariximizin şərəfli səhifələri kimi neçə-neçə elmi araşdırmanın mövzusu, gələcək nəsillər üçün isə qürur salnaməsi olacağını indidən əminliklə söyləmək olar.**



### Aydın səmada güclü şimşək

Azərbaycan Prezidenti İlham Əliyev atdığı uğurlu diplomatik addımları ilə dünyanı heyrətləndirməkdə davam edir. Onu da nəzərə almalıyıq ki, yuxarıda sadaladığımız uğurlar silsiləsi planetimizin çalxalandığı, onun siyasi nəbzinin kəlləçarxa çıxdığı bir dönəmdə baş verir. Neçə gedişi öncədən düşünən siyasət qrossmeysteri təmkinini pozmadan öz oyununu davam etdirir. Sadəcə davamını gətirmir, həm də qarşısındakı rəqibini oyunu özünün diktə etdiyi dürüst və ədalətli qaydalarla oynamağa vadar edir. Burada diplomatiyaya uymayan başqa üsullar kimi bəhanələr də qəbul edilmir. Hər növbəti gediş qarşı tərəf üçün aydın səmada çaxan şimşək effekti yaradır.

– Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi komissiyasının səkkizinci görüşündə əldə olunmuş razılığı bu istiqamətdə atılmış olduqca əhəmiyyətli addım kimi dəyərləndirmək lazımdır. Delimitasiyanın məhz bu istiqamətdən başlaması da Azərbaycanın təkidi ilə baş verdi. Cənab Prezidentin ən xırda detallarına qədər əvvəlcədən düşünülmüş məntiqi siyasətinin nəticəsidir ki, nüfuzlu beynəlxalq təşkilatlar, “böyük güclər”in liderləri, hətta Azərbaycana çəp baxanlar da onun iki ölkə arasında normallaşmaya xidmət edən xoşniyyətli hər addımını təqdir edirlər. Bu dəfə də belə oldu.

### Xoşniyyətli anlaşma dəstəklənir

BMT-nin Baş katibi Antonio Quterreş dövlət sərhədinin delimitasiyası üzrə Azərbaycan və Ermənistan arasında əldə olunmuş məlum razılaşmanı alqışladığını bildirib. Bu barədə dünya təşkilatı rəhbərinin rəsmi nümayəndəsi Stefan Düjarrikin yaydığı bəyanatda deyilir. Onun sözlərinə görə, Baş katib Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması prosesini diqqətlə izləyib. Bəyanatda qeyd olunur: “Baş katib tərəfləri sərhədin qalan hissələrinin delimitasiyası və demarkasiyasını davam etdirməyə və münasibətlərin tam normallaşması üçün bütün məsələləri həll etməyə çağırır”.

Türkiyə Xarici İşlər Nazirliyi Azərbaycan–Ermənistan sərhədinin delimitasiyası komissiyasının 2024-cü il aprelin 19-da keçirilmiş iclasında əldə olunmuş razılaşmanı alqışladığını bildirib. 30 ildir işğal altında olan 4 kəndin Azərbaycana qaytarılması və delimitasiya işlərinin davam etdirilməsi ilə bağlı əldə olunmuş razılaşmadan məmnunluq ifadə olunan rəsmi açıqlamada birbaşa danışıqlar yolu ilə əldə edilən bu müsbət meyilin yekun sülh sazişinin imzalanması istiqamətində mühüm addım olduğu vurğulanır.

ABŞ Dövlət katibi Antoni Blinken Qazax rayonunun 4 kəndinin Azərbaycana qaytarılması barədə Ermənistanla razılıq əldə olunmasını alqışlayıb. Bu barədə, o, “X” sosial şəbəkəsindəki hesabında yazıb: “Biz Ermənistan və Azərbaycanın iki ölkə arasında sərhədin delimitasiyası üçün əsas kimi 1991-ci il Alma-Ata bəyannaməsini razılaşdırdıqları barədə açıqlamalarını alqışlayırıq. Bu, davamlı və ləyaqətli sülh sazişinin bağlanması yolunda mühüm addımdır”.

Almaniya Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda Azərbaycan və Ermənistan arasında 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanan sərhədlərin delimitasiyasına dair imzalanan sənədin sülh sazişinin qarşısında duran mühüm maneəni aradan qaldırdığı bildirilir: “Almaniya tərəflərə davamlı sülh yolunda hər cür dəstəyi verməyə hazırdır”.

“Sərhəd komissiyalarının işi və imzaladığı hüquqi sənədlər, 1991-ci il Alma-Ata sazişi əsasında delimitasiya prosesinin başlanması ilə bağlı ümidverici xəbərlər var”. Bu sözləri Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toyvo Klaar özünün “X” hesabında paylaşıb. Diplomat onu da qeyd edib ki, Aİ Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması prosesini dəstəkləyir: “Avropa İttifaqı danışıqlar prosesini, iki ölkənin hərtərəfli və davamlı nizamlanma səylərini tam dəstəkləyir”.

Aydın məsələdir ki, Ermənistan müxalifəti, bir cəbhədə birləşmiş anti–Paşinyan qüvvələr, daşnak-revanşist ünsürlər, ümumiyyətlə, sülh danışıqlarının əleyhinə olduqları kimi, dörd kəndin Azərbaycana qaytarılmasına da siyasi qıcıq göstərirlər. “Bu, dövlətimizin təhlükəsizliyinə və həyat qabiliyyətinə yeni ciddi çağırışlar gətirəcək milli utanc və alçaqlıq dövrüdür”. Bu fikirləri sosial şəbəkədə yayan İrəvan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin iranşünaslıq kafedrasının müdiri Vardan Voskanyan işğal altındakı kəndlərimizi geri almağımızı özləri üçün “acı fakt” sayır: “Azərbaycan mediası yazır ki, İlham Əliyev bir güllə belə atmadan növbəti dəfə ərazi qazanıb”.

Rəsmi Bakının haqqına düşəni alaraq tarixi ədaləti bərpa etməsini “acı fakt” kimi həzm edə bilməyən erməni “alimi”nə qarşıda bundan daha acı faktları udmaq məcburiyyətində qalacağını xatırlatmaq istərdik.

Özünü siyasətçi sayan Mesrop Arakelyan isə Nikol Paşinyan hökuməti tərəfindən 4 kəndin Azərbaycana, respublika əhəmiyyətli yolun bir hissəsinin isə Gürcüstana təhvil verilməsini “cinayət” adlandırır. Sənin keçmiş hökumət başçılarının Azərbaycan ərazisinin 20 faizini otuz il işğal altında saxladıqları azmış kimi, “Yevlaxı, Bərdəni, Gəncəni də ala biləcəkləri” barədə avantürist bəyanatları səsləndirmələri beynəlxalq cinayət deyildisə, bəs nə idi? İndi sizin üçün yaxın 30 ilin “cinayətkar tarixinizdən” ibrət dərsi götürüb, ağlınızı başınıza toplamağın məqamıdır.

### Problemlər indi “Qafqaz evi”ndə çözülür

Beləliklə, Ermənistan və Azərbaycan birgə qarşılıqlı anlaşma şəraitində, vasitəçisiz bu məsələni həll etdilər. Bir daha sübut olundu ki, Qərb dövlətləri bu proseslərdən nə qədər uzaq dayansalar, Cənubi Qafqazda sülh və əmin-amanlıq bir o qədər tez təmin olunar. “O kəndlər ki, anklav kəndlərdir, - çünki Ermənistanın bir anklav kəndi Azərbaycan ərazisindədir, – həmin kəndlərlə əlaqədar ayrıca bir ekspert qrupu yaradılmalı və müzakirə edilməlidir. Biz hesab edirik ki, bütün anklavlar qaytarılmalıdır. Bu anklavlara gedən yollarda şərait olmalı və bu anklavlara orada yaşayan insanlar yerləşdirilməlidir”. Bu sözləri cənab Prezident iki il bundan əvvəl demişdi. Vaxt və reallıq onu göstərdi ki, rəsmi İrəvanın Qərbdəki havadarlarının diktəsi ilə nə deməsindən asılı olmayaraq, məsələ məhz Azərbaycan Prezidentinin söylədiyi şəkildə həllini tapmış oldu.

“Qafqaz evi”nin iki sakininin öz aralarında razılığa gəlmələrinə ən maraqlı reaksiya Ermənistanın baş nazirindən gəldi. Dörd kəndlə bağlı hökumətlərarası ikitərəfli razılaşma barədə jurnalistlərin sualına cavab verən Nikol Paşinyan ilk dəfə olaraq Ermənistan və Azərbaycanın məsələni danışıqlar masası arxasında həll etdiyini vurğulayıb. Bildirib ki, baş verənləri şişirtmək istəmir: “Amma, eyni zamanda, bunu qiymətləndirməmək də olmaz. Artıq vəziyyət əhəmiyyətli dərəcədə dəyişdiyi üçün bu dəyişiklik bütün istiqamətlərdə öz təsirini göstərməlidir. Bu, o deməkdir ki, bizim cəbhə xəttimiz yox, artıq sərhədimiz var. Sərhəd sülhün əlamətidir və bu, o demək olacaq ki, Ermənistan və Azərbaycan sərhədçiləri bir-biri ilə əməkdaşlıq edərək sərhədi müstəqil şəkildə qoruya biləcəklər”.

Bununla Bakı ilə birbaşa dialoqun faydasını etiraf edən Paşinyan dolayısı ilə “Qafqaz evi” formatının effektivliyini də təsdiqləmiş oldu. Münasibətləri vasitəçisiz, ikitərəfli dialoq şəklində normallaşdırmağın bir nümunəsi kimi keçən ilin dekabrında Azərbaycan Respublikası Prezident Administrasiyası və Ermənistan baş naziri aparatı arasında təmasları qeyd etməmək mümkün deyil. Bu nöqteyi-nəzərdən dörd ay əvvəl hər hansı vasitəçi olmadan qəbul edilmiş birgə bəyanat tarixi sənəd idi. Məhz həmin sənəddə sülh üçün tarixi imkanların mövcudluğu qeyd olunmuş, ərazi bütövlüyünə və suverenliyə bir daha dəstək ifadə edilmişdi. Vasitəçisiz dialoqun əyani nəticəsi kimi hərbi əsirlərin qarşılıqlı şəkildə dəyişdirilməsini və Ermənistanın öz namizədliyini geri götürərək COP29-un Azərbaycanda keçirilməsinə razılığını bildirməsini xüsusi qeyd etmək lazımdır.

### Sonuncu gedişə doğru

Ermənistan Qazaxın anklav olmayan 4 kəndini qaytarmaqla bir məsələni də aktuallaşdırmağı, sərhədlərin delimitasiyasında 1991-ci il Alma-Ata Bəyannaməsinə söykənməyi planlaşdırır. Hələlik görünən odur ki, İrəvan bununla eyni vaxtda bir neçə hədəfə çatmağı düşünür. Onun birinci hədəfi delimitasiya prosesində SSRİ dağılana qədərki xəritələri gündəmdən çıxarmaqdır. İkincisi hədəfi isə Bakıya “güzgü prinsipi”ni qəbul etdirmək və Azərbaycan qoşunlarının 44 günlük müharibədən sonra tutduğu strateji yüksəkliklərdən geri çəkilməsinə nail olmaqdır.

Delimitasiya komissiyalarının razılaşmasında qeyd olunub ki, tərəflər, həmçinin baza prinsipini əsasnamə layihəsində təsbit etmək barədə razılığa gəliblər. Yəni, İrəvan delimitasiya planında bu razılaşmadan istinad nöqtəsi kimi yararlanmaq istəyir. Məhz buna görə Bakı ikitərəfli razılaşmaya mühüm bir əlavə edib. Razılaşmanın “delimitasiya prosesində Alma-Ata Bəyannaməsinə əsaslanacaq” hissəsində qeyd olunur ki, “əgər gələcəkdə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişdə başqa cür qərara gəlinərsə, o zaman əsasnamənin müvafiq bəndi bu sazişlə müəyyənləşdirilmiş prinsiplərə uyğunlaşdırılacaq”.

Bu isə o deməkdir ki, delimitasiya prosesində Alma-Ata Bəyannaməsi Qazaxın kəndlərinin qaytarılması məsələsində keçərlidir, amma dövlətlərarası sərhədin digər hissələrinin müəyyənləşməsində qüvvədən düşə bilər. Fəqət, İrəvanın arzuladığı “güzgü prinsipi”ni – qoşunların geri çəkilməsi variantını Bakı heç bir halda qəbul etməyəcək. Çünki sovetlər dönəmində Ermənistana bağışlanmış ərazilərimizlə bağlı məsələni də aktual olaraq gündəlikdə saxlayır. Sadəcə olaraq, imzalanacaq sülh sazişinin mətninə delimitasiyanın keçmiş xəritələrə əsaslanması məsələsi daxil edilə və bu razılaşmanın “Alma-Ata bəyannaməsinə əsaslanması” bəndi dəyişdirilə bilər. Yəni, hazırda əldə olunmuş razılaşmaya bu qeydin daxil edilməsi Ermənistanın delimitasiya prosesində söykənmək istədiyi “nöqtə”ni əlindən çıxarır. Bu isə sülh danışıqlarının növbəti raundunun predmetidir.

Nəyi, necə və nə zaman edəcəyini həmişə düzgün hesablayan siyasət qrossmeysterinin məsələyə son nöqtəni də Azərbaycan dövlətinin və xalqının mənafeyinə tam uyğun gələn formada qoyacağına heç kəsin, o cümlədən İrəvanın da şübhəsi olmasın. Qarşı tərəf, sadəcə, zaman çarxının heç də onun xeyrinə fırlanmadığını nəzərə almalı, “tet–a–tet” görüşü mümkün qədər tez və az itki ilə başa vurmağa çalışmalıdır.

***İmran BƏDİRXANLI***
***XQ***

# “Axçi” Parisi Vaşinqtona nümunə göstərir

## *Emmanuel Makronun “erməniləşmə”sinin səbəbləri*

**Yaşadıqları ölkənin yüksək gəlirli sahələrinə müdaxilə etmək, siyasətə təsir gücünə malik nüfuzlu şəxsləri ələ almaq, bundan ötrü hər cür üsula əl atmaq erməni diasporu və lobbiçilərin “tarixin sınağından çıxmış” üsullarından sayılır. Hayların geniş qol-qanad açdıqları ölkələrdən biri, bəlkə də birincisi Fransadır. Yarım milyondan çox erməninin yaşadığı bu ölkənin “kiçik bacıları” ilə işbirliyinin tarixi neçə əsr əvvələ gedib çıxır.**

Dünyanın dörd tərəfinə səpələnmiş ermənilərin “dənizdən-dənizə böyük Ermənistan” ideyasını reallaşdırmaq zəminində formalaşan lobbi qruplarının cəmləşdiyi mərkəzlərindən biri məhz Fransada yerləşir. Dünyada üçüncü, Avropada isə birinci ən çoxsaylı erməni diasporunun yaşadığı Fransada onlar ictimai rəyə, hətta Yelisey sarayının xarici siyasətinə əməlli-başlı təsir imkanlarına malikdirlər.

Məlumat üçün onu da bildirək ki, Fransada erməni diasporunun dayaqları, strukturları keçən əsrin 20-ci illərindən formalaşmağa başlayıb. Məhz o illərdə ermənilərin Avropaya və ABŞ-a miqrasiyası kütləvi hal alıb. Həmin dövrdə Fransada erməni dilində 90-a yaxın qəzet çap olunurdu. Heyrətamiz faktdır, elə deyilmi? Şəbəkələşmiş hay strukturu indi daha geniş üfiqlərə “boylanır”.

* * *

Hər işin bir səbəbi, formalaşan ənənənin bir zəmini olur. Fransa Prezidenti Emmanuel Makronun Azərbaycana qarşı qərəzli, ifrat subyektiv, bəzən isə aşkar düşmənçilik mövqeyindən çıxış etməsi təsadüfi deyil. Bəlkə də bu “ənənəni” doğuran səbəblər, ilk baxışda, oxucuya paradoksal, məntiqdən uzaq, diplomatiyadan kənar görünə bilər. Amma ortaya erməni amili çıxanda vəziyyət kökündən dəyişir. Makronda hay rəğbətinin yaranmasını şərtləndirən amillərin arasında erməni əsilli bir qadın yer alır. Yerli ekspertlərdən bəziləri onu “Makronu idarə edən qadınlardan biri” hesab edirlər.

**ARAYIŞ:** Astrid Panosyan-Buve. Atası erməni, anası norveçli olan 52 yaşlı bu qadın Parisdəki Ali Kommersiya Məktəbində, Siyasi Tədqiqatlar İnstitutunda və Kennedi adına Harvard Dövlət İdarəetmə Məktəbində təhsil alıb. 2002-2015-ci illərdə Fransanın ən nüfuzlu şirkətlərindən sayılan "Groupama"da işləmiş A.Panosyan sonradan bu şirkətin baş direktoru təyin edilib. 2007-ci ildə E.Makron iqtisadiyyat naziri təyin ediləndə, A.Panosyanı özünə müşavir götürür. Erməni Panosyan mənsub olduğu etnosun Fransadakı maraqlarını da nəzərə alırdı. Astrid Panosyan Parisdəki “Uber” taksi servisinin səhmdarları, erməni icmasının rəhbərləri Manvel Sukiasyan və Pyer Atanyana “krışalıq” edir.

O, Fransa Milli Assambleyasının üzvüdür və bu günlərdə ABŞ Konqresində erməni soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş tədbirdə əsas məruzəçi olub. ABŞ Konqresindəki dinləmələrdə iştirak edən Fransa Senatının erməni əsilli üzvü A.Panosyan tribunadan “Azərbaycanın Ermənistana qarşı davam edən təcavüzündən” danışıb. Mövcud vəziyyətdə təmsilçisi olduğu Fransanın Ermənistanı tək qoymadığını, ona hər cür yardım göstərdiyini yüksək pafosla söyləyən erməni Panosyan konqresmenlərə niyə belə bir dəstəyin ABŞ-nin göstərmədiyi barədə sual ünvanlayıb.

Konqresdəki çıxışında Fransa ilə Ermənistan arasında siyasi, hərbi, iqtisadi və mədəni əlaqələrdən danışan Panosyan yenidən sözünün əvvəlinə qayıdaraq ABŞ qanunverici orqanının üzvlərinə, tədbirdə iştirak edən diplomatlara üzünü tutaraq deyib: “Birləşmiş Ştatlar nədən Fransa kimi hərəkət edə bilmir?”.

* * *

Burada təəccüb doğuran heç nə yoxdur. Yuxarıda qeyd etdiymiz kimi, Fransa kimi, ABŞ da erməni diasporunun güclü olduğu ölkələrdəndir. Panosyanın Ağ evi Azərbaycana təzyiq göstərməyə çağırması da başadüşüləndir. Sadəcə, Harvard məzunu olan iqtisadçı erməni “axçi”nin anlamadığı məsələ hazırda təkcə Cənubi Qafqazda deyil, həm də bütün dünyada formalaşmış yeni geosiyasi reallığı dərk etməməsidir.

**Fransa isteblişmentinin böyük əksəriyyətinin ermənilərə simpatiyası olduğunu nəzərə çatdıran “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi Elxan Şahinoğlu bu ənənənin tarixi köklərə malik olduğunu vurğuladı:** “Hələ Osmanlı İmperiyası dövründə erməniləri türklərə qarşı qızışdıran dövlətlərin başında Fransa dayanırdı. Bu ölkə həmin “ənənəyə” bu gün də sadiq qalıb. Doğrudur, Azərbaycan müstəqilliyini bərpa edəndən sonra Fransa ilə münasibətləri normal müstəvidə qurulmuşdu. Hazırkı dövlət başçısı Emmanuel Makrondan fərqli olaraq, əvvəlki prezidentlər – Jak Şirak, Nikola Sarkozi, Fransua Oland, ən azı, balans naminə ölkəmizlə münasibətləri qoruyub saxlayırdılar. Baxmayaraq ki, onların da ermənilərə rəğbəti kifayət qədər çox idi. Sadəcə, Makronun hay rəğbəti əndazədəni aşır. O, ermənilərə hüdudsuz rəğbətini İkinci Qarabağ müharibəsində və ondan sonrakı dövrdə açıq şəkildə büruzə verdi. Emmanuel Makron və Fransa hökuməti, bütövlükdə, erməni separatizminə hər zaman öz dəstəklərini ifadə ediblər”.



Aşkar görünən həqiqət odur ki, Fransa Ermənistanı Cənubi Qafqazda özünün forpostu kimi, həm də maraqlarının “icraçısı” hesab edir. Amma Parisi pəjmürdə edən cəhət bu işin “icrasına” Azərbaycanın maneçilik törətməsidir. O da məlumdur ki, rəsmi Paris Türkiyəyə qarşı da düşmən mövqeyi sərgiləyir, qardaş ölkəni bu bölgədə özünə potensial rəqib kimi görür. Cənubi Qafqaz Fransa üçün ona görə strateji əhəmiyyət daşıyan məkandır ki, onun buradan zəngin sərvəti və əlverişli mövqeyi olan Mərkəzi Asiyaya yolu açılır. Yəqin Yelisey sarayının başbilənləri molla rejimi çökəndən və ya siyasi mühit liberallaşandan sonra İran istiqamətində də irəliləməyi düşünürlər. Bütün hallarda Parisin bölgə ilə bağlı “strateji planlarını” Ermənistan vasitəsilə reallaşdıra bilməyəcəyini özü də yaxşı dərk edir, amma hərəkətlərində bunu əksini nümayiş etdirir.

Siyasi şərhçi E.Şahinoğlu da bu qənaəti paylaşır: “Onlar, sadəcə, anlamaq istəmirlər ki, Cənubi Qafqazda Ermənistan üzərindən möhkəmlənmək mümkün deyil. Əgər onlar Azərbaycanla münasibəti pileşdirirlərsə uduzan özləri olacaq. İndi isə rəsmi Paris bu münasibətləri yerə vuraraq, Bakıdakı səfirini geri çağırıb. Eyni addımı Azərbaycan da ata bilər. Bu siyasətini davam etdirməklə Fransa heç nə əldə etməyəcək. Bəli, Parisin Bakı ilə münasibətləri gərginləşdirməkdə əsas səbəbi Türkiyə–Azərbaycan tandemi ilə bağlıdır. Cənubi Qafqazda həm güclü Azərbaycan, həm də Türkiyə–Azərbaycan İttifaqı danılmaz həqiqətdir. Bu, Fransa siyasi dairələrini narahat edir. Amma Yelisey sarayı bu reallığı nə zamansa qəbul etmək məcburiyyəti qarşısında qalacaq”.

Görünən odur ki, rəsmi İrəvana cəlbedici perspektivlər vəd edən onun “böyük bacısı”, sadəcə, ermənilərin hissləri ilə oynayır. Bu oyunun mərkəzində isə Parisin Ermənistanla Rusiya arasında münasibətlərin getdikcə daha da soyumasından sui – istifadə elementi dayanır. Emmanuel Makronun saxta himayədarlıq ritorikasına uyan Nikol Paşinyan isə anti-Rusiya çıxışları ilə özünü və ölkəsini uçuruma doğru aparır. Amma Hayastan baş nazirinin Azərbaycanla münasibətləri normallaşdırmaq üçün atdığı son addımları onun uçurumdan yan keçəcəyinə ümidləri artırır...

***İ.HƏSƏNQALA***
***XQ***

# Qüdrətli dövlətə aparan güclü liderlik fəlsəfəsi



**Mən həmişə xalqıma xidmət etmişəm.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

### XX əsrin son onilliyinə baxış

Tarix sürprizləri sevmir. Ancaq hər bir xalq üçün sürprizlər olur. Toplumun gözləmədiyi anda, ağıla gəlməyən proseslərə yol açılır. Lakin, bu, zahirdə sürprizdir, görüntüdə gözlənilməzdir – gerçəkliyin ən dərin qatlarında isə təsadüf yoxdur. Cəmiyyətin xilası və uğurlu dövlət quruculuğu da proses olaraq bu qəbildəndir.

XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda kimin ağlına gələrdi ki, Heydər Əliyevin respublikaya rəhbərliyindən uzaqlaşdırılması, bütövlükdə, xalq, ölkə və dövlət üçün böyük faciələrə yol açacaq. Lakin müdrik Azərbaycan xalqı tarixi baxımdan qısa olan bir neçə ildə acı təcrübədən doğru nəticə çıxardı. Dərk etdi ki, müasir dövrdə xalqın və dövlətin xilaskarı Heydər Əliyevdir! Bu qənaətin kökü sovetlərə gedib çıxır.

Heydər Əliyev 1969-cu ildə Azərbaycan SSR-ə rəhbər gəlməsəydi, Azərbaycanın respublika, xalq, mədəniyyət, iqtisadiyyat və qədim dövlətçilik ənənəsi olan məkan kimi qalıb-qalmayacağını bilmirik. Bəli, həmin mərhələdə vəziyyət o dərəcədə kritik hal almışdı ki, respublika rəhbərliyinə yeridilmiş yadlar planlı surətdə ölkəni dağıdırdılar. Heydər Əliyev təhlükəsizlik sistemində çalışanda konkret faktlar əsasında bu nəticəyə gəlmişdi. Ümummilli liderin ilk xilas addımı dərin təhlillər əsasında respublikaya rəhbər keçməsi ilə reallaşdı. Mərkəz bacarıqlı, siyasəti və diplomatiyanı çox gözəl bilən, yorulmaz, böyük əzmkar kadr kimi Heydər Əliyevi Azərbaycana rəhbər göndərdi. Bu, Azərbaycanın XX əsrdə ilk dəfə ölkə kimi xilası idi. Sonrakı proseslərin işığında bu tezis çox aydın görünür.

Belə ki, Heydər Əliyev 80-ci illərdə Bakıdan uzaqlaşdırılana qədər erməni təcavüzkar planlarının hamısının qarşısını alır, respublikanın parçalanmasına, hissə-hissə düşmənə ötürülməsinə imkan vermirdi. Çox güman ki, bu müqavimətə ermənilərdən başqa, Mərkəz də təəccüblənirdi. Çünki 1918-1920-ci illərdə, hətta, Azərbaycan millətçiləri Moskvanın və Qərbin təzyiqlərinə dözə bilməyərək torpaqların bir qismini əsassız olaraq ermənilərə güzəştə getmişdilər. Bizə dost olmaq istəməyən dairələrə elə gəlirdi ki, bu zəiflik, ümumiyyətlə, azərbaycanlı siyasi iradəsinə xas mənfi xüsusiyyətdir. Heydər Əliyev cəsarəti, qətiyyəti, iradəsi və strateji zəkası ilə bu yanlış və haqsız münasibəti formalaşdıran təsəvvürləri darmadağın etdi! Təcavüzkar və haqsız düşmənə heç bir güzəşt edilmədi, əksinə Azərbaycanda yaşayan ermənilərin qanuna əməl etməsi tələbləri gücləndirildi. Görünür, bu gedişat bolşevik-daşnak tör-töküntülərini qane etmirdi.

Təsdiqi Heydər Əliyev Moskvaya işə aparılandan sonra Azərbaycan SSR-in başına gələnlərdir. Yenə də ermənilərə torpaq güzəşt etmək "ənənəsi", bir sıra məsələlərdə Azərbaycan SSR-in maraqlarına uyğun olmayan iqtisadi addımlara təhrik edilməsi (məsələn, Azərbaycanda istehsal olunan xammalı Ermənistana ucuz qiymətə ötürmək və orada hazırlanmış malı baha qiymətə Azərbaycana satmaq mexanizmi düzəltmişdilər) kimi hadisələrə rast gəlinir.

1988-ci ildən başlayaraq isə Azərbaycanın ərazisinə ermənilərin hərbi təcavüzləri özünü göstərməyə başladı. Qısa müddətdə ölkə ərazisinin bir qismi işğal edildi. Ən pisi isə o oldu ki, həmin mərhələdə Azərbaycana rəhbərliyə gələnlər yanlış siyasət, ideologiya, idarəetmə üsulu və tərəddüdlü siyasi mövqe seçməklə qarşı tərəfin əl-qolunu açdılar. Kulminasiya nöqtəsi 20 yanvar 1990-cı il qırğını oldu. Məhz həmin məqamlarda xalq anladı ki, xilaskar gəlməlidir.

Heydər Əliyev xalqın təkidi ilə 1993-cü ildə yenidən Azərbaycana rəhbərliyə dəvət olunduqdan sonra vəziyyət yavaş-yavaş dəyişməyə başladı. Ermənilərin təcavüzkar hərəkətləri dayandı, atəşkəslə bağlı sənəd imzalandı. Paralel olaraq cəmiyyəti birləşdirən ideologiya – azərbaycançılıq yeni məzmun aldı və müstəqil dövlət quruculuğu düşünülmüş kurs daxilində davamlı surətdə həyata keçirilməyə başlandı. 1994-cü ildə "Əsrin müqaviləsi" isə postsovet məkanında ilk olaraq Azərbaycanda enerji strategiyasını həm bütövlükdə müstəqil dövlət quruculuğu xəttinə, həm də milli təhlükəsizliyin təmininə bağlayan xilaskar liderin "tarixi əsəri" oldu. Bu addım yalnız Azərbaycan miqyası ilə məhdudlaşmırdı – onun geosiyasi, geoiqtisadi, siyasi və təhlükəsizlik istiqamətləri üzrə təsiri regional və qlobal miqyasda özünü göstərirdi. Bununla Heydər Əliyev Avrasiyada müstəqil dövlət quruculuğunun uğurlu nümunəsini yaradan ilk güclü lider kimi özünü təsdiq etdi!

### Siyasi varislikdən yeni liderliyə

Artıq XXI əsrə Azərbaycan inkişaf kursunu dəqiq müəyyən etmiş, müstəqil dövlət institutlarının tam oturuşduğu, milli ideyası dəqiq müəyyən olunmuş, cəmiyyətin bütövlük modeli sınaqdan çıxmış ölkə kimi qədəm qoydu. 2003-cü ildən isə Azərbaycan siyasi varislik seçiminə əsaslanan və xalqın demokratik seçkidən tam dəstək verdiyi yeni liderlə – İlham Əliyevlə davam etmək şansı əldə etdi! Cəmi 17 ilə müstəqil Azərbaycan bütün sahələrdə elə uğurlar əldə etdi ki, güclü liderliklə güclü dövlətçiliyin yüksək harmoniyasının nümunəsi oldu! Yəni, 2020-ci ilin noyabr ayınadək İlham Əliyevin liderliyi ilə Azərbaycan Respublikası tarixi inkişaf yolu keçdi və tarixi hərbi zəfər əldə etdi. Həmin zəfər milli ideyanın tam həyata keçməsi idi – Azərbaycan ərazi bütövlüyünü tam bərpa etdi! Hələlik postsovet məkanında ikinci belə bir nümunə yoxdur.

İlham Əliyevin dövlət başçısı və lider kimi güclü olmasının təsdiqi bununla məhdudlaşmadı. Postmüharibə mərhələsində böyük məharətlə daxili inkişafda, idarəetmədə şəffaflıq və xarici siyasətdə suverenliyin tam təmininə aparan kurs qətiyyət və ardcıllıqla həyata keçirildi. Cəmiyyətdə reallaşan yeni layihələr, Türkiyə və Rusiya ilə strateji müttəfiqlik haqqında müqavilələrin bağlanması, ordu quruculuğunda Avrasiyada tayı-bərabəri olmayan modelin tətbiq edilməsi İlham Əliyev liderliyinin gücü ilə yanaşı, xalqı birləşdirmək potensialının tam bir nümunəsi oldu.

Dövlətlərarası münasibətin qurulması istiqamətində isə yeni liderliyin beynəlxalq hüquq çərçivəsində çox böyük uğura imza ata bilməsi imkanlarını göstərdi. Azərbaycan Prezidenti çox məharətli siyasi-diplomatik fəaliyyəti həm ikitərəfli, həm regional təşkilatlar, həm beynəlxalq təşkilatlar, həm də enerji strategiyasının üçüncü mərhələsinin reallaşma kursu daxilində dalbadal uğurlar əldə etdi. Ermənistanın güclü havadarları belə Azərbaycan liderinin ədalətə, tarixə, beynəlxalq hüquqa və xalqa arxalanan siyasəti qarşısında tab gətirə bilmədilər. Bunun ən bariz təsdiqi 2023-cü ilin sentyabrında ildırım sürətli antiterror tədbiri oldu! Cəmi 23 saat 41 dəqiqəyə Azərbaycan Ordusu düşmənin yenidən möhkəmləndirilmiş, yeni qüvvələrlə təchiz edilmiş, xüsusi hazırlanmış minlərlə əsgərini darmadağın etdi. Qəhrəman Azərbaycan əsgəri peşəkarlıqla yanaşı, yüksək sürətlə koordinasiyalı savaşmaq qüdrətini göstərdi! Nəticədə Azərbaycan müstəqillik tarixində ilk dəfə olaraq bütün ölkə ərasizində suverenliyini tam təmin edən yeganə postsovet ölkəsi oldu! Bu tarixi uğurun memarı Prezident, Ali Baş Komandan İlham Əliyevdir!

Şübhə etmirəm ki, istər ölkə daxilində olsun, istərsə də kənarda Azərbaycan dövlətçilik və liderlik ənənəsini bilməyən və ya qəbul etmək istəməyənlər üçün, bu, uzunmüddətli şok effekti yaratmış hadisədir. Lakin milyonlarla azərbaycanlı, türk, müsəlman üçün isə qürur mənbəyi, yeni işlərə motivə olmaq faktorudur. Azərbaycan müzəffər lideri olduğuna görə qalib gəldi Azərbaycan Prezidenti həm bir siyasətçi, vətənsevər dövlət xadimi kimi müzəffər liderdir! Azərbaycan isə regional lider ölkədir! Bu iki liderlik nümunəsini özünün tarixində, bu günündə və gələcəyində təcəssüm etdirə bilən Azərbaycan xalqıdır!

İndi Avropada, Amerikada, Rusiyada, İranda və Ermənistanda "hər şeyi bilən jurnalistlər və ekspertlər" gün kimi cavabı aydın olan bir suala cavab axtarırlar: "Bu, necə oldu?" Onlar hələ də anlaya bilmirlər ki, Azərbaycanın güclü lideri, müstəqil xarici siyasəti, ədalətə söykənən xarici siyasi kursu və bütün bəşər üçün faydanı nəzərə alan müstəqil dövlət strategiyası vardır! Onlar bu strategiyada "bir millət, iki dövlət" tezisinin yerini və rolunu adekvat dərk etməkdən özlərini qərəzli mövqe tutmaqla məhrum etmişlər! Yardım edək: 4 kəndin bir güllə atılmadan sahibinə qaytarılması dövlət quruculuğu strategiyasının düzgün müəyyən edilməsi ilə tarixi ədalətə, beynəlxalq hüquqa əsaslanan güclü liderin məharətli siyasi-diplomatik fəaliyyətinin birbaşa nəticəsidir! Bu, ümummilli lider Heydər Əliyevin ruhunun gücü və Vətən sevgisinin ifadəsidir! Bu, bir millətin iki dövlətinin hüquqa dayanan müttəfiqliyinin növbəti təntənəsi və zəfəridir! 4 kənd ona görə belə dinc yolla qaytarıldı ki, İlham Əliyev yenilməz siyasi iradəyə, tam inandığı dövlər quruculuğu kursuna və strateji zəkaya malikdir!

Coğrafi miqyasına görə 4 kənd böyük faktor deyildir, geosiyasi əhəmiyyətinə görə isə çox böyükdür, syasi-ideoloji olaraq vacib hadisədir. Lakin 2020-ci ildən bu yana Cənubi Qafqazda formalaşmış geosiyasi mənzərənin elə bir yeni naxışıdır ki, regional miqyasda yeni mərhələnin "yol göstərici nişanı"dır. Bununla İlham Əliyev postmüharibə dövrünün bir mərhələsini tamamladı.

### Postmüharibə dövrünün ikinci mərhələsi

Əgər 2020-2024-cü illər postmüharibə dövrünün özünü təsdiqi yolunda çətin "yol xəritəsi" oldusa, 2024-cü ildən başlayaraq yeni geosiyasi konstruktiv konfiqurasiya yaradılması mərhələsi başlanır. Onun ən azı dörd əlaməti vardır.

Birincisi, yeni geosiyasi konfiqurasiyanın memarı Azərbaycan – Türkiyə müttəfqiliyidir.

İkincisi, Rusiyanın qəti olaraq Azərbaycan – Türkiyə birliyi ilə konstruktiv geosiyasi əməkdaşlıq mövqeyinə keçməsidir (geniş anlamda Avrasiyada türk-slavyan tarixi əməkdaşlıq dövrü).

Üçüncüsü, Cənubi Qafqazda Azərbaycanın gətirdiyi yeni geosiyasi konstruktivizmə müqavimət göstərən güclü dairələrin bunu bacara bilməyəcəklərini anlamasıdır (ABŞ, Avropa İttifaqı, İran və qismən Hindistan).

Dördüncüsü, Ermənistan siyasi şüurunda tarixi dəyişiklik baş verdi. Son 100 ildə ilk dəfə onlar anladılar ki, müstəqil dövlət olmaq üçün Azərbaycan və Türkiyə ilə yola getmək qaçılmazdır.

Bu faktorların hər birinin geniş geosiyasi və siyasi-nəzəri təhlilinə ehtiyac vardır. Stratejidə isə bu dörd faktor bir-birini tamamlamalı və regionu təbii olaraq uzunmüddətli sülhə, əməkdaşlığa və təhlükəsizliyə aparmalıdır. Şübhə etmirik ki, məhz belə də olacaqdır!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

# Oğru doğruya "oğru" deyir...

## *Kim kimi irqi ayrı-seçkliyə məruz qoyub?*

**BMT-nin Haaqa şəhərində yerləşən Beynəlxalq Ədalət Məhkəməsi Ermənistan və Azərbaycanın iddialarına baxmağa başlayıb. Məhkəmə aprelin 15-dən 19-dək Azərbaycanın Ermənistanın iddiasına etdiyi etirazlara dair arqumentləri nəzərdən keçirib. Ermənistanın Azərbaycanın iddiasına qarşı irəli sürdüyü etirazlar üzrə dinləmələr isə aprelin 22-dən 26-dək keçiriləcək.**

Məhkəmə İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın tələblərinin tətbiqi ilə bağlı keçirilir. Beynəlxalq Ədalət Məhkəməsinin yaydığı məlumata görə, Azərbaycanın məhkəmədən tələbləri bunlardır:

– Ermənistanın İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın 22-ci maddəsində qeyd olunan danışıqlar üçün ilkin şərtə əməl etmədiyinə görə, onun iddialarının heç birinin məhkəmə qarşısında lazımi səviyyədə olmadığını əsas gətirərək, Ermənistanın müraciəti tam şəkildə rədd edilsin;

– Əlavə və ya alternativ olaraq, Ermənistanın Azərbaycan tərəfindən öz öhdəliklərini pozması ilə bağlı iddiaları üzrə məhkəmənin mövzu baxımından yurisdiksiyasına aid olmadığı bəyan edilsin.

Qeyd edək ki, Ermənistan beynəlxalq konvensiyanın yaratdığı imkanlardan sui-istifadə edərək, 2021-ci il sentyabrın 16-da Beynəlxalq Ədalət Məhkəməsində Azərbaycanla bağlı iddia qaldırıb. Ölkəmiz 2020-ci ilin sentyabrında ermənilərə qarşı irqi ayrı-seçkilik etməkdə ittiham olunur. Rəsmi Bakı da buna cavab olaraq, əks iddia qaldırıb. Həmin iddiada qeyd edilir ki, Ermənistan bölgədə azərbaycanlılara qarşı milli mənsubiyyətinə görə ayrı-seçkilik törədib. Hər iki tərəf proses zamanı gərginliyin artmasının qarşısını almaq üçün məhkəmə tərəfindən müəyyən olunan müvəqqəti tədbirlərin tətbiqini tələb edib. Bu tələblər qismən təmin olunub.

2023-cü il sentyabrın 28-də Ermənistan tərəfindən Beynəlxalq Ədalət Məhkəməsinə müvəqqəti tədbirlərlə bağlı yeni müraciət edilib. Müraciət 10 bənddən ibarətdir. Onlar arasında "Azərbaycanın Qarabağda qalan etnik ermənilərin köçürülməsinə yönələn və ya buna xidmət edən hər hansı hərəkətlərdən çəkinməsi tələbi" yer alıb. Bakı bütün bu ittihamları rədd edib. Ümumilikdə, ölkəmiz əmindir ki, Ermənistanın irəli sürdüyü ittihamların heç bir əsası yoxdur.

Məhkəmədə çıxış edən Azərbaycan nümayəndəsi, Xarici işlər nazirinin müavini Elnur Məmmədov bildirib ki, Ermənistanın irəli sürdüyü iddialar İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın əhatə dairəsinə daxil olmadığı üçün məhkəmənin bu işə baxmaq səlahiyyəti yoxdur. Bundan əlavə, nazir müavini qeyd edib ki, Ermənistan mübahisənin ikitərəfli qaydada həlli üçün Azərbaycan tərəfi ilə danışıqların lazımi qaydada aparılmasının məcburi şərtini yerinə yetirmədiyi üçün də iddianın baxılması qəbuledilməzdir.

Azərbaycanın Niderlanddakı səfiri Rəhman Mustafayev isə Ermənistanın iddiası üzrə dinləmələrin ikinci raundunda bildirib ki, İrəvan tərəfindən irəli sürülən iddialarda dəfələrlə təsdiq olunmamış məlumatlardan və yanlış şərhlərdən sübut kimi istifadə edilib. O, Ermənistan nümayəndələrinin Azərbaycan Silahlı Qüvvələri ilə bağlı saxta məlumatlarına münasibət bildirərkən deyib: "Ötən gün Ermənistanın yanlış tərcümə və sübutların təfsirindən dəfələrlə istifadə etməsi Azərbaycanı hiddətləndirib. Bununla bu ölkə hesab edib ki, onun bəyanatlarının müvafiq hissələri İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın əhatə dairəsinə düşə bilər. Ancaq Ermənistan tərəfinin bəyanatlarına irqçi ifadələrin işlədilməsinə dair real sübutlara əsaslanmayan fikirlər daxil idi".

R.Mustafayev qeyd edib ki, iddiaçı tərəf Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarını təhrif edib: "Məhkəməni əmin edə bilərəm ki, Azərbaycan Silahlı Qüvvələrində heç vaxt belə şevronlardan istifadə edilməyib və ya bu simvollar nümayiş etdirilməyib. Ermənistan tərəfinin vəkilinin bu dinləmələrdə təqdim etdiyi sübut növbəti saxtakarlıqdır".

Səfir onu da bildirib ki, Ermənistan tərəfinin aprelin 16-da keçirilən dinləmələrdə təqdim etdiyi arqumentlərdəki sübut bazası etibarsız məlumatlara əsaslanıb və Azərbaycanın konkret ilkin etirazları ilə heç bir əlaqəsi olmayan bəyanatlar verilib.

Əlbəttə, ölkəmizlə bağlı qaldırılan iddialar, əslində, rəsmi İrəvanın Qərbdəki havadarlarının dəstəyi və birbaşa iştirakı ilə Azərbaycana qarşı növbəti çirkin, qərəzli kampaniyaya start verməsinin göstəricisi hesab oluna bilər. Bunun nəticəsidir ki, Beynəlxalq Ədalət Məhkəməsinə erməni hüquqşünaslar tərəfindən qondarma, başdan-ayağa azərbaycanofob, saxta məlumatları əks etdirən iddialar daxil olub. Heç kəsə sirr deyil ki, Azərbaycan 44 günlük Vətən müharibəsini beynəlxalq hüquqa və beynəlxalq humanitar hüquqa tam riayət etməklə aparıb. Azərbaycan Silahlı Qüvvələri yalnız hərbi hədəfləri nişan alıblar. Qarabağda yaşayan erməni sakinlərə qarşı hər hansı zorakılıq edilməsindən söhbət gedə bilməz. Bununla bağlı ortada heç bir fakt və sübut yoxdur. Əksinə, ermənilər özləri Azərbaycan xalqına qarşı zaman-zaman soyqırımları törədib və xalqımızı deportasiyaya məruz qoyublar. Birinci Qarabağ müharibəsinin gedişi zamanı azərbaycanlılara qarşı bir neçə yaşayış məskənində soyqırımı törədilib və etnik təmizləməyə yol verilib. Bunların arasında Şuşa rayonunun Malıbəyli və Quşçular, Xocavənd rayonunun Qaradağlı, Kəlbəcər rayonunun Ağdaban, Başlıbel, Goranboy rayonunun Ballıqaya, Xocalı rayonunun Meşəli, Cəmilli kəndlərində törədilən qırğınları və nəhayət, Xocalı soyqırımını qeyd etmək olar. İkinci Qarabağ müharibəsi zamanı Ermənistan terrorçu dövlət olduğunu növbəti dəfə təsdiqlədi. Ölkənin hərbi-siyasi rəhbərliyi Gəncə və Bərdə şəhərlərini raket atəşinə tutdu. Gəncə şəhərinə 5 dəfə endirilən zərbələr nəticəsində 27 nəfər həlak oldu, 125 nəfər yaralandı. Bərdə şəhərinə və rayonun Qarayusifli kəndinə endirilən raket zərbələri nəticəsində isə 27 nəfər dünyasını dəyişdi, 80 nəfər xəsarət aldı. Halbuki, Gəncə təmas xəttindən 100 kilometrdən çox uzaqlıqda yerləşirdi. Bərdə təmas xəttinə nisbətən yaxın yerləşsə də, bu, onun raket atəşinə məruz qalmasına heç cür bəraət qazandıra bilməz. Eyni zamanda, həm Gəncəyə, həm də Bərdəyə edilən hücumlar zamanı şəhər infrastrukturuna, yaşayış binaları da daxil olmaqla, digər tikililərə, avtomobillərə ziyan dəydi. Bu hücumlar nəticəsində həyatını itirənlər və yaralananlar arasında azyaşlılar da oldu.

Bundan əlavə, irqi ayrı-seçkilikdən dəm vuran Ermənistan hazırda monoetnik dövlət statusundadır. Azərbaycanda isə erməni əsilli vətəndaşlar ölkənin bütün şəhər və rayonlarında yaşamağa davam edirlər. Bu mənada, İrəvanın iddiaları heç bir məntiqə sığmır. Ancaq haylar öz əməllərinə görə utanıb-qızarmaq əvəzinə, necə deyərlər, qabaqdangəlmişlik etməyə çalışırlar. Ermənistan mətbuatı yazır ki, Beynəlxalq Ədalət Məhkəməsinin binası qarşısına toplaşan erməni diasporunun fəalları ölkəmizə qarşı etiraz şüarları səsləndiriblər. Onlar iddia ediblər ki, Qarabağın erməni sakinlərinə qarşı "zorakılıq və qətllər" həyata keçirilib. Aksiya iştirakçıları hələ də Azərbaycana qarşı sanksiyaların qəbul edilməməsindən narazılıqlarını bildirib, hətta döyüşlərdə məhv edilən separatçıların, terrorçuların fotolarını qaldırıblar. Aksiyada Azərbaycanla yanaşı, Türkiyə də hədəfə alınıb və iddia edilib ki, 1915-ci il hadisələrinin təkrarlanması ssenarisinə yol verilməməlidir.

**Məsələ ilə bağlı fikirlərini bölüşən rusiyalı politoloq, "PolitRUS" ekspert-analitik şəbəkəsinin yaradıcısı Vitali Arkov** hesab edir ki, bu gün Qarabağda qalan erməni millətindən olan sakinlərin təhlükəsiz ya-



şaması rəsmi Bakının insanlara milliyyətinə görə ayrı-seçkilik nümayiş etdirməməsinin bariz sübutudur. Onun sözlərinə görə, Qarabağın erməni əhalisinin Ermənistana və digər ölkələrə kütləvi köçü Azərbaycanın öz suveren ərazisi üzərində tam nəzarəti bərpa etməsinin nəticələri ilə bağlı tamamilə əsassız qorxulardan irəli gəlirdi: "Qarabağdakı dinc ermənilər üçün heç bir təhlükə yox idi. Əksinə, Azərbaycan hakimiyyətinin yaxın gələcəkdə Qarabağ bölgəsinin kommunal, yol və sosial infrastrukturunun bərpası istiqamətində həyata keçəcəyi genişmiqyaslı işlər nəticəsində onların həyat keyfiyyəti nəzərəçarpacaq dərəcədə yaxşılaşacaqdı. Onların həyatı Ermənistanın əksər ərazilərindəki şəraitdən daha komfortlu olacaqdı".

Onun sözlərinə görə, yalnız ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində Qarabağın azərbaycanlı əhalisinə qarşı yol verilən zorakılıqlarda bilavasitə iştirak edənlər, həmçinin hərbi cinayətlər və Azərbaycan Silahlı Qüvvələrinə qarşı təxribatlar törədənlərin qorxması üçün əsaslar var idi: "Lakin bu halda da Azərbaycan qanunvericiliyi ilə cinayətkar hesab olunan şəxslərə münasibət ciddi şəkildə hüquq çərçivəsində olacaqdı. Biz saxlanılan bir sıra şəxslərlə bağlı işlərdə hazırda bunu müşahidə edirik. Bu isə erməni millətçilərinin həm işğal etdikləri Qarabağda, həm də Ermənistanın özündə azərbaycanlı əhaliyə qarşı etdikləri ilə kəskin ziddiyyət təşkil edir. Qanlı hadisələrin baş verməsindən otuz ildən çox vaxt keçməsinə baxmayaraq, həmin cinayətlərlə bağlı iddia müddəti yoxdur".

**Politoloq İlqar Vəlizadə isə bildirib ki,** son vaxtlar bölgədə davamlı sülhün əldə olunması istiqamətində ciddi addımların atılmasına baxmayaraq, Ermənistan tərəfi öz id-



dialarından əl çəkmir. Bu isə təəssüf doğurur. Onun sözlərinə görə, iddiaların uydurma olduğu isə göz önündədir: "Guya, Azərbaycan ermənilərin əsas hüquqlarını pozub. Guya, ermənilər Qarabağı məcburiyyətdən tərk ediblər və buna 2023-cü ildəki antiterror tədbirləri əsas yaradıb. Ermənistan tərəfi bununla köhnə əyyamları qaytarmaq istəyir. Amma başa düşmür ki, proseslər geridönməz xarakter alıb. Bunu deyərkən onu nəzərdə tuturuq ki, ermənilərin Qarabağ iqtisadi rayonuna qayıtmaq hüquqları olsa da, onlar Azərbaycan vətəndaşları kimi, ölkəmizin qanunlarına riayət edərək yaşamalıdırlar. Ermənilərin Qarabağda hansısa xüsusi şərtlərlə, hansısa xüsusi imtiyazlarla yaşamaları qeyri-mümkündür. Təəssüf ki, Ermənistan tərəfi hələ də bu xülyalarla yaşayır".

İ.Vəlizadə qeyd edib ki, Azərbaycanın məhkəməyə təqdim etdiyi iddialar isə konkret faktlara əsaslanır. Müsahibimiz bildirib ki, regionda, dünyada vəziyyət sürətlə dəyişir və Ermənistan tərəfi bu cür iddialar irəli sürməklə heç nə əldə edə bilməyəcək.

***Səxavət HƏMİD***
***XQ***

**Hər dəfə Qazağa, xüsusilə Qazaxbəyli kəndinə yolum düşəndə şəhid həmkarımız, jurnalist dostum, Azərbaycanın Milli Qəhrəmanı Alı Mustafayevlə rayon icra hakimiyyətinin binası qarşısındakı söhbətimiz yadıma düşür.**

# Gözün aydın Vətən, Qazax da bütövləşir!



## 4 kəndin azadlığına qovuşması rayonda möhtəşəm təntənələrlə qarşılanıb

– Alı, nə var, nə yox? Kəndinizə – Qazaxbəyliyə gedirəm, gəl səni də aparaq...

Rəhmətlik duruxdu, qıyılmış gözlərinin dərinliyində bir kədər hiss etdim.

– Sən özün get, qardaş. Xəbər göndərim bizimkilər də qulluğunda dursunlar. Mən isə son vaxtlar doğma kəndimə gedə bilmirəm...

Bir qədər susub qəhərini boğandan sonra sözünə davam elədi:

– Görün iş nə yerə çatıb ki, quduz erməni millətçiləri Ermənistandan sonra soydaşlarımızı Azərbaycanın sərhəd kəndlərindən də qovmağa başlayıblar. Silahlı quldurların yandırdıqları, uşaqlarını öldürdükləri, sakinlərini ev-eşiklərindən qovduqları Qazax kəndlərindən bizim obaya da gələnlər var. Onların üzünə baxa bilmirəm, söhbətlərindən dəhşətə gəlirəm. Soruşurlar ki, bizi kəndimizə nə vaxt qaytaracaqlar. Kimdən soruşasan? Ölkədə vəzifə, hakimiyyət davası gedir. Güclü havadarları olan ermənilər də bildiklərini edirlər. Əlimdən gələn odur, ki, Azərbaycan Televiziyası üçün geniş bir film hazırlayım, ermənilərin vəhşiliklərini bütün dünyaya yayım...

Bəli, qeyrətinə boğulan həmkarım haqlı idi. Ermənilər xalqımızı artıq öz ölkəsindən də qovmağa başlamışdılar. Dediyi filmi hazırlamaqda olan Alı Mustafayevin də içində olduğu, Xocavəndin Qaradağlı kəndində törədilmiş soyqırım yerinə gedən hərbi vertolyot Azərbaycanın ortasında raketlə vurulub məhv edilmişdi.

Xatırladaq ki, ermənilərin Azərbaycan ərazisində Qarabağ müharibəsi başlanarkən törətdiyi ilk faciə Bağanis Ayrım kəndində olmuşdu. O zaman, dəqiq desək, 1990-cı il martın 23-dən 24-ə keçən gecə Bağanis Ayrım hərtərəfli hazırlanmış hücuma məruz qalmış və martın 24-ü səhər saatlarında sakinlər vəhşiliklə qovulmuş, kənd işğal olunmuşdu. Hücum zamanı kəndin əliyalın, dinc əhalisinə qarşı qətliam törədilmişdi. 10 nəfər öldürülmüş,15 nəfərdən çox insan yaralanmışdı. Bir ailənin 5 üzvü xüsusi amansızlıqla qətlə yetirilib yandırılmışdı. Kəndin 100-dən çox evi qarət olunmuş, əmlak və mal-qara talan edilmişdi...

Bir neçə il qabaq Qazağın sonuncu sərhəd kəndi olan Quşçu Ayrıma getmişdim. O zaman qəribə hisslər keçirmişdim. Qəzetdə dərc olunan “Necəsən, sərhəd kəndi?” yazısında da göstərmişdim ki, Qazax qəzasında Ayrım adlı 2 kənd olub. Onları bir-birindən fərqləndirmək üçün Quşçu kəndinin yaxınlığında olan Quşçu Ayrım, Bağanisin yaxınlığındakı isə Bağanis Ayrım adlanıb. Quşçu Ayrımdan Bağanis Ayrıma baxanda fikirləşirdim ki, görəsən, elə bir gün gələcəkmi, biz o biri Ayrım tərəfə keçə bilək?

İndi o gün gəldi! Bu, artıq arzu, xəyal deyil, gerçəkdir! Ölkə Prezidenti İlham Əliyevin yurdsevərliyi, uzaqgörənliyi, məharəti və iradəsi nəticəsində 34 il düşmən tapdağında qalmış 4 kəndimiz – Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı, nəhayət, Azərbaycana qaytarıldı! Azğın düşməni buna Azərbaycanın Vətən sevgisi və güc-qüdrəti məcbur etdi.

...Bu güc-qüdrətin nəticəsidir ki, Gəncədən Qazaxa kimi elə bir geniş, rahat yol çəkilib ki, adamda böyük sevinc, haqlı iftixar doğurur. İpək yolunun bir hissəsi olan bu magistral beynəlxalq səviyyəlidir. Qazaxdan bir qədər keçib digər magistrala daxil oluruq. Uzaqdan Qazaxbəyli kəndi görünür. Yolumuz oradır. Çünki ermənilərin işğal etdikləri və dünən artıq özümüzə qaytarılan kəndlərin sakinlərinin böyük bir qismi burada yaşayır.

Bir neçə il bundan əvvəl istifadəyə verilən, 304 ailənin yaşadığı qəsəbə kənddən daha çox şəhərə oxşayır. Asfalt yol, park və xiyabanlar, çoxmərtəbəli binalar, uşaqlar üçün əyləncə məkanları burada məskunlaşanlara hər cür rahatlıq gətirib. Azadlığına qovuşan kəndlərin hamısından burada məcburi köçkün ailəsi var.

Qəsəbəyə 500-600 metr qalmış musiqi sədaları eşidirik. Yaxınlaşdıqca çal-çağır coşğusu bir az da artır. Gördüyümüz mənzərəni sözlə ifadə etmək çətindir. Hamı bir-birini təbrik edir, qucaqlaşır, qol-qola tutub yallı gedir. Əllərdəki bayraqlar başların üstünə qaldırılıb sevinclə dalğalandırıldıqca möhtəşəm bir görüntü yaradır. Binalarının eyvanlarına çoxlu sakin çıxıb. Hərə sevincini coşğu ilə bölüşür. Kənarda dayanıb şənlənən, rəqs edən, mahnı oxuyan gənclərə baxaraq gülümsəyən orta yaşlı bir nəfərə yaxınlaşırıq.






**Aşağı Əskipara kənd sakini Tofiq Qasmov gəncləri göstərərək deyir:**

– Bu cavanların çoxu heç ata-babalarının kəndlərini görməyib. Evdə onlara o qədər Bağanis Ayrımdan, Xeyrimlidən, Qızılhacılıdan və o biri işğal olunmuş kəndlərdən danışmışıq ki, sanki, ruhən o yerlərə bağlanıblar. O yerlər bizə balaların müqəddəs əmanəti idi. Bizim öz kəndlərimizə möhkəm bağlılığımız erməni qəsbkarlarnı yandırıb-tökürdü. Elə buna görə də bizim o isti yuvalarımızı nifrətlə oda qaladılar.

Mən özüm Aşağı Əskipara kəndindənəm. Nələr görmüşük, danışmaqla qurtaran deyil. 14 iyun 1992-ci ildə işğal olunan sonuncu kənd Aşağı Əskiparadır. Məcburi köçkün düşən kənd sakinləri həmin qanlı günləri böyük kədər hissi ilə xatırlayır, dünyasını dəyişənləri ehtiramla yad edirlər. Kəndin müdafiəsi zamanı həlak olan şəhidlərin bir qismi Qazaxdakı şəhidlər qəbiristanlığında dəfn olunub. İndi azad olunan Aşağı Əskipara o kənddir ki, bir gündə 6 şəhid verdi. Bu gün Aşağı Əskiparanın 14 şəhidi var. Onlardan biri Azərbaycanın Milli Qəhrəmanı adını alıb, 2 nəfər ordenlə təltif olunub.





Biz illər idi ki, bu kəndlərə baxıb köksümüzü ötürürdük. Axı nə vaxtadək bunların belə işğalçı hərəkətlərinə dözməli idik? Doğrusu, Ali Baş Komandanın, sevimli Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz Qarabağı işğaldan azad edəndə bizim də ümidlərimiz artdı. Blirdik ki, Qazağın da torpaqları azad ediləcək və Prezidentimiz buna çalışır. İndi budur, həmin gün gəlib çatdı! Heç bilirsiniz xəbəri eşidəndən hansı hisslər keçiririk?! Burada analar, atalar var ki, yaşları 1 əsrə çatır. Hər gün gözləri yol çəkir. Deyirlər ki, biz o torpaqları görməsək, bu dünya ilə vidalaşa bilmərik, ruhumuz şad olmaz.

Bugünədək bizim Əskiparanın 1515 sakini məcburi köçkün həyatı yaşayır. Qazaxbəylidən başqa, digər kəndlərdə, respublikamızın bir çox şəhər və rayonlarında məskunlaşanlar da var. Hamısı bizə zəng edir, sevindiyindən uşaq kimi ağlayır.

...Yaşayış binalarının qarşısından keçən yola yüzlərlə sakin çıxıb. Az adam olar ki, əlində Azərbaycan bayrağı tutmasın. Yaşlı bir qadın gözlərində sevinc yaşları bilmirdi ki, oynasın, yoxsa mahnı oxusun, rəqs etsin. Kişilər baş-başa verib kəndlərinə necə qayıdacaqlarından danışırdılar.





**Zirəddin Yusifov, Xeyrimli kəndinin sakini, məcburi köçkün bildirdi:**

– Bizim kənddən köçkünlərin sayı hazırda 320 nəfərə çatıb. Bu qəsəbədə yaşayanlardan başqa rayonun digər kəndlərinə, necə deyərlər, səpələnənlər də var. Köçkünlük qədər ağır həyat yoxdur. Düzdür, Allah Prezidentimizin canını sağ eləsin, bir neçə il qabaq bizim üçün bu gördüyünüz qəsəbəni inşa elədi. Hər bir şəraitimiz var. Amma öz torpaqlarımızı istəyirdik. Necə sevinməyək ki, artıq arzumuza çatmışıq. Xeyrimli torpağını öpəcəyimiz günü gözüm önünə gətirəndə kövrəlirəm.

Qeyd edək ki, əslində, bu kəndin keçmiş adı Dil Xeyrimlidir. Toponim Xeyrimli tayfasının adından götürülüb. 1990-cı ilin martından sonrakı 2 ildə vaxtaşırı atışmalar olsa da, kənd işğal edilməmişdi. 1992-ci il martın 8-də Xeyrimli, aprelin 27-də Barxudarlı və Sofulu, iyunun 8-də Yuxarı Əskipara, həmin ayın 11-də Qızılhacılı, 14-də isə Aşağı Əskipara kəndlərini ermənilər işğal etdilər. Yerli əhali təcavüzə məruz qalaraq doğma evlərini tərk etməyə məcbur oldu.

**Şənlikdən bir nəfər aralanıb bizə yaxınlaşdı. O, jurnalist olduğumuzu bilib özünü təqdim etdi, Qızılhacılı kənd sakini Xasməmməd Mustafayev olduğunu söylədi:**

– Bizim bu gözəl günümüzə şahidlik etdiyiniz üçün sağ olun, Qızılhacılı kəndini Qarabağ müharibəsi dövründə ermənilər tam işğal edib və dağıdıblar. Düzdür, sonralar kəndin böyük bir hissəsi işğaldan azad olunsa da, dünənədək digər hissəsi hələ də cəbhə xəttində yerləşirdi. 2010-cu ilin yanvar ayında erməni quldurlar daha bir vəhşilik törədərək gecə vaxtı kənd qəbiristanlığına soxuldular. 30 məzar tamamilə dağıdıldı. Hətta bir gün əvvəl dəfn edilən sakinimizin məzarının üzərinə taxtadan hazırlanmış xaç işarəsi qoydular. Bunları ona görə bir daha xatırladıram ki, bu torpaqların ermənilərdən azad edilməsi təkcə bu günün qələbəsi deyil, gələcək nəsillərin də bu yırtıcılardan azad olunmasıdır.

Qızılhacılı sakini onu da əlavə etdi ki, hazırda 331 nəfər məcburi köçkün var və onların hamısı doğma torpağa qayıtmaq arzusu ilə yaşayırlar: “Sağ olsun Prezidentimizi, indiyədək nə demişdi, hamısını elədi, xalqını, torpağını hədsiz sevən bir dövlət başçısı kimi vədlərini həyata keçirdi.

…Bir məsələni də qeyd edək ki, strateji mövqeyi olan Bağanis Ayrım İcevan – Noyanberyan avtomobil yolu üzərində yerləşdiyindən düşmən gələcəkdə daha rahat hərəkət etmək üçün bu kəndin işğalını xüsusi plan əsasında həyata keçirib. Kənd işğal olunan zaman burada 600 nəfər yaşayırdı. Sonralar qonşuluqda olan Yuxarı Əskipara, Aşağı Əskipara, Xeyrimli kəndləri də qeyd etdiyimiz kimi işğal olundu.

Əhalisi əsasən əkinçilik və maldarlıqla məşğul olan bu kəndlərin əsrarəngiz təbiəti, çoxsaylı bulaqları olub. Bu kəndlərdən zorakılıqla çıxardılan insanlar indi doğma torpaqlarına qayıtmağa hazırlaşırlar.

…Qazaxdan qayıdarkən rayon icra hakimiyyəti başçısının müavini Gülayə Həsənova ilə əlaqə saxladıq. Dedi ki, təkcə Qazaxbəylidə yaşayan köçkünlər deyil, rayonun digər kəndlərində məskunlaşanlar da böyük sevinc içərisindədirlər. Bu toy-bayrama bütün rayon qoşulub. Ölkəmizin ərazi bütövlüyü daxilində Qazaxın torpaqları bütövləşdi. Bütün qazaxlılar bu tarixi qələbəni xalqımıza, eyni zamanda, bizə bəxş edən Prezident İlham Əliyevə sonsuz minnətdarlıqlarını ifadə edirlər. Bu toy-bayramın bir adı da qədirbilənlik, qalib liderinə sonsuz sevgidir. Bütün rayonumuz dövlət başçımızın uğurlu siyasətinin nəticəsi olan növbəti qələbəmizi alqışlayır. Nəhayət haqq-ədalət zəfər çaldı. Bu zəfəri bizə bəxş edən dövlət başçımız, ordumuz, xalqımız çoxəsrlik tariximizin ən parlaq səhifəsini yazdılar.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***
**Gəncə–Qazax–Gəncə**

# Bakıətrafı qəsəbələr içməli sudan korluq çəkməyəcək

**Bakıətrafı qəsəbələrdə əhalinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə yeni layihənin icrasına başlanılıb. Dövlət Su Ehtiyatları Agentliyindən aldığımız məlumata görə, dövlət investisiyası hesabına icra olunan həmin layihənin reallaşdırılması nəticəsində Abşeron yarımadasının şimal-şərq hissəsində, xüsusilə Maştağa, Nardaran və Bilgəh qəsəbələrinin sahil boyu ərazilərində, eyni zamanda, yeni salınmış yaşayış massivlərində içməli su təchizatının yaxşılaşdırılması nəzərdə tutulub.**



Layihəyə əsasən, ərazinin içməli su təchizatı Ceyranbatan sutəmizləyici qurğularından qidalanan Maştağa su anbarından gerçəkləşdiriləcək. Bu məqsədlə anbarın nasos stansiyası yenidən qurulacaq. Anbardan götürülən su nasoslar vasitəsilə Nardaran qəsəbəsində yeni tikilən 10 min kubmetr tutumu olan anbara vurulacaq.

Hazırda Maştağa və Nardaran anbarlarını əlaqələndirmək məqsədilə 820 millimetr diametrli polad borularla 6 kilometr uzunluğunda magistral su kəməri inşa edilir. Yaşayış massivlərinə suyun çatdırılması məqsədilə 530 millimetr diametrli polad borularla 11 kilometr uzunluğunda daşıyıcı magistral su kəmərləri çəkilir. Eyni zamanda suyun istehlakçılara çatdırılmasını təmin etmək üçün müşayiətedici və paylayıcı su xətləri tikilir.

Görüləcək iş çərçivəsində, ümumilikdə, 25 kilometr uzunluğunda magistral və paylayıcı su xətlərinin inşası layihələndirilib. Layihənin icrasına başlanandan qısa müddət ərzində su xətlərinin tikintisi işlərinin 50 faizi icra olunub. Eyni zamanda 10 min kubmetr tutumlu yeni su anbarının tikintisinə başlanılıb, həmçinin yaxın günlərdə nasos stansiyasının yenidən qurulmasına başlamaq nəzərdə tutulub.

Qeyd edək ki, layihənin əhatə etdiyi ərazidə mərkəzləşdirilmiş su təchizatı şəbəkəsi yoxdur. Ərazinin bir hissəsində əhali tərəfindən fərdi qaydada çəkilən su xətləri də tikinti normalarına cavab vermədiyindən istismara yararsız vəziyyətdədir. Şəbəkə olmayan ərazilərdə isə əhali içməli suyu maşınlarla əldə edir.

Yeni layihənin icrası nəticəsində çimərlik ərazisi boyu istirahət və turizm obyektlərinin də içməli su təchizatı yaxşılaşacaq. Plana əsasən, tikinti-quraşdırma işləri cari ilin sonuna qədər başa çatdırılacaq. Layihənin icrası Bilgəh, Nardaran, Maştağa qəsəbələrində, həmçinin yeni salınan yaşayış massivlərində 70 minə yaxın sakinin içməli su təchizatının yaxşılaşdırılmasına imkan verəcək.

Yeri gəlmişkən, əhalinin içməli su təchizatının yaxşılaşdırılması təkcə Bakıətrafı qəsəbələrdə deyil, həm də respublikamızın digər ərazilərində diqqət mərkəzində saxlanılır. Məsələn, Prezident İlham Əliyevin aprelin 16-da Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlini qoyması bunun bariz ifadəsidir. Yeri gəlmişkən, bu infrastrukturun yaradılması ilə Şirvan düzündə yerləşən Yevlax, Ağdaş, Göyçay, Zərdab, Ucar, Kürdəmir, İsmayıllı və Ağsu rayonlarının 112 min hektardan çox əkin sahəsini suvarma və yaşayış məntəqələrini məişət suyu ilə təmin olunacağı nəzərdə tutulur.

Qeyd edək ki, Yuxarı Şirvan suvarma kanalının infrastrukturunun bərpası, habelə mövcud təsərrüfatların su təminatı məsələlərinin vaxtında və səmərəli şəkildə həllinin dəstəklənməsi, su ehtiyatlarından daha səmərəli istifadə olunması, magistral kanalın suburaxma qabiliyyətinin artırılması məqsədilə cari il aprelin 8-də dövlətimizin başçısı Şirvan suvarma kanalının yenidən qurulması haqqında müvafiq sərəncam imzalayıb. Həmin sərəncama əsasən, Yuxarı Şirvan suvarma kanalının adı dəyişdirilərək Şirvan suvarma kanalı adlandırılıb.

Neftçala şəhərinin içməli su təchizatı da yaxşılaşdırılıb. Prezident İlham Əliyevin təsdiqlədiyi "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020–2022-ci illər üçün Tədbirlər Planı"na uyğun olaraq qısa müddət ərzində Şirvan–Muğan qrup su kəmərindən Neftçalaya birinci magistral su kəməri çəkilib və Salyan şəhəri yaxınlığında tutumu 7500 kubmetr olan su anbarı inşa edilib. 2020-ci ilin noyabr ayında şəhərə suyun verilməsi təmin olunub. 2023-cü ildə isə Neftçala rayonunun qəsəbə və kəndlərinin su təchizatına xidmət edəcək ikinci magistral su kəmərinin tikintisi işləri yekunlaşıb.

Beləliklə, yeni yaradılan infrastrukturun imkanları hesabına ötən müddətdə Neftçala şəhəri ilə yanaşı, rayonun 39 yaşayış məntəqəsinin içməli su problemi həll edilib. Rayonun qalan 11 yaşayış məntəqəsi və Salyan rayonunun 6 kəndi də daxil olmaqla, ümumilikdə, 17 kəndinin su təminatının yaxşılaşdırılması məqsədilə 76 kilometr uzunluğunda kəmər, tutumu 7500 kubmetr olan su anbarı və 1 su nasos stansiyasının inşası layihələndirilib.

Yevlax şəhərini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək üçün Kür çayının sahilində məhsuldarlığı sutkada 20 min kubmetr olan qumsüzgəc texnologiyalı sutəmizləyici qurğular kompleksi inşa edilib. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin məlumatına görə, layihənin ilkin mərhələsində ümumi həcmi 2500 kubmetr olan 2 içməli anbarının və 2,6 kilometrlik magistral su kəmərinin inşası başa çatdırılıb.

Hazırda Kür çayından nasoslar vasitəsilə götürülən su əvvəlcə xam su anbarına, daha sonra radial durulduculara ötürülür və çökdürülür. Növbəti mərhələdə qum süzgəclərdən keçən su zərərsizləşdirilərək təmiz su anbarına toplanır və yeni magistral kəmərlə şəhərin mövcud içməli su şəbəkəsinə verilir.

Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzurda da əhalinin dayanıqlı və keyfiyyətli içməli su ilə təmin edilməsinə mühüm önəm verilib. Ötən il mayın 5-də Prezident İlham Əliyev tərəfindən təməli qoyulan Füzuli şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemlərinin yaradılması layihəsinin birinci mərhələsinin icrasına başlanılıb. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən reallaşdırılan layihə 2040-cı ilədək perspektiv inkişaf nəzərə alınmaqla Füzuli şəhərində 50 min nəfərin tələbatının ödənilməsinə hesablanıb.

İlkin mərhələdə şəhərin xarici su təchizatı sistemlərinin və mərkəzi anbarların tikintisi işləri həyata keçirilir. Füzuli şəhərini dayanıqlı içməli su ilə təmin etmək məqsədilə Zərgər kəndi yaxınlığında ümumi tutumu 20 min kubmetr olan mərkəzi su anbarları inşa edilir. Layihəyə əsasən, Füzuli şəhərinin su mənbəyindən götürülən suyun şəhərə çatdırılmasını təmin etmək üçün 10,7 kilometr uzunluğunda magistral su kəmərinin inşası yekunlaşıb.

Füzuli şəhərini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə növbəti mərhələdə Gövşadlı kəndi yaxınlığında 15 subartezian quyusu qazılacaq. Bu mənbə hesabına Füzuli şəhəri ilə yanaşı, rayonun bir neçə kəndi də içməli su ilə təmin olunacaq.

Qeyd edək ki, Füzuli şəhərinin içməli və tullantı su sistemlərinin yaradılması layihəsi icra olunana qədər burada məskunlaşan əhalinin, eləcə də dövlət və özəl sektora aid binaların və obyektlərin içməli su ilə təmin edilməsi məqsədilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən təxirəsalınmaz tədbirlər həyata keçirilib. Bu məqsədlə 1980-ci illərdə Quruçayın məcrasında tikilmiş və işğal dövründə yararsız hala salınmış drenaj sistemləri bərpa edilərək istismara qaytarılıb. Eyni zamanda su mənbəyində ümumi tutumu 100 kubmetr olan 2 sutoplayıcı rezervuar və nasos stansiyası, magistral su kəməri inşa edilib. Şəhərdə formalaşan tullantı sularının təmizlənib kənarlaşdırılması məqsədilə təxirəsalınmaz tədbir kimi ümumi məhsuldarlığı sutkada 600 kubmetr olan 4 ədəd modul tipli təmizləyici qurğu da quraşdırılıb.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin məlumatına əsasən, 2003-2023-cü illər ərzində respublikada 22 min kilometrdən çox su, 8 min kilometrdən çox kanal və tullantı su xətləri çəkilib. Eyni zamanda 320 içməli su anbarı yaradılıb, 174 nasos stansiyası tikilib, 1 milyon 500 su sayğacı quraşdırılıb. Həmçinin 45 yeni su mənbəyi yaradılıb. Eyni zamanda bu illər ərzində 54 şəhər və rayon mərkəzində su təchizatı və tullantı suların infrastrukturu layihələri icra olunub, onların 32-si tam başa çatdırılıb. Təqribən 1126 kənddə 1 milyon 500 min əhalini təmsil edən ərazidə içməli su təchizatı layihələri icra olunub, 28 tullantı su təmizləyici qurğu tikilib.

***Vaqif BAYRAMOV***
***XQ***

# Neft Fondu – 57 milyard dollar!

**Bu il mart ayının 31-nə Dövlət Neft Fondunun (DNF) vəsaitləri 2024-cü ilin əvvəlinə (56 milyard 70 milyon ABŞ dolları) nisbətən 2,3 faiz artaraq 57 milyard 373 milyon ABŞ dolları təşkil edib.**



DNF-nin bu barədə məlumatında daha sonra bildirilir ki, cari ilin yanvar–mart ayları ərzində qurumun büdcə gəlirləri 5 milyard 268 milyon manat, büdcə xərcləri isə 3 milyard 205 milyon manat təşkil edib.

Bu ilin ilk rübü ərzində DNF-in neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 3 milyard 421 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 2 milyard 646 milyon manat, bonus ödənişləri 776 milyon manat, tranzit gəlirləri 0,3 min manat olub. Fondun vəsaitlərinin idarə olunmasından əldə edilən gəlir isə 1milyard 847 milyon manat təşkil edib.

Hesabat dövrü ərzində DNF-in 2024-cü il büdcəsinin icrası çərçivəsində 3 milyard 195 milyon manat vəsait dövlət büdcəsinə transfert edilib. 2024-cü ilin yanvar–mart aylarında "2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşməsinə 1 milyon manat, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı"nın maliyyələşməsinə isə 3,2 milyon manat yönəldilib. Sözügedən dövrdə DNF-in idarə edilməsi ilə bağlı xərcləri 5,9 milyon manat təşkil edib.

Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı DNF-in büdcədənkənar gəliri hesabat dövrü üzrə 151,7 milyon manat olub.

***XQ***

# "Dəmir daşımalar" 11 faiz artıb



**"Azərbaycan Dəmir Yolları" QSC-dən verilən məlumatda bu qurumun tranzit yüklərin daşınmasını 11 faiz artırdığı bildirilib.**

Qeyd edilib ki, cari ilin I rübündə QSC 1,8 milyon tondan çox tranzit yük daşıyıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 11 faiz çoxdur.

Son 1 ildə isə "Azərbaycan Dəmir Yolları"nın ölkə daxilində yükdaşımaları isə 6 faiz artaraq 0,8 milyon tonu keçib. Yanvar–mart aylarında dəmir yolu müəssisəsi, ümumilikdə, 4,4 milyon tondan çox yük daşıyıb.

***XQ***

# KOB evləri – 100 min xidmət

**Bu ilin yanvar–mart aylarında İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) məxsus KOB evlərində sahibkarlara 99 mindən çox xidmət göstərilib.**

Qurumdan verilən məlumata görə, xidmətlərin 80 mindən çoxu "Bakı KOB evi"nin, 15 minə yaxını "Yevlax KOB evi"nin, 4 mindən çoxu isə "Xaçmaz KOB evi"nin payına düşüb. Xidmətlərin 91 minə yaxınını dövlət qurumları ("G2B"), 9 minə yaxınını isə biznes qurumları ("B2B") təqdim edib.

Sahibkarlar KOB evlərinə daha çox biznes fəaliyyəti üçün zəruri olan lisenziya və icazələr, mənşə sertifikatı, yükdaşımaları həyata keçirmək üçün icazə blankı, fərqlənmə nişanı, taxoqraf kartları və digər sənədlərin alınması, vergi və gömrük məsələləri, kommunal və digər ödənişlər, biznes krediti üçün müraciət ediblər.

***XQ***

# Neft-qaz – 10 milyard manat ÜDM

**Ölkəmizin neft-qaz sektorunda cari ilin yanvar–mart aylarında ümumi daxili məhsul istehsalı (ÜDM) əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,4 faiz artaraq 10 milyard 397,8 milyon manat olub.**



Dövlət Statistika Komitəsinin məlumatına əsasən, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,4 faiz, qeyri neft-qaz sektorunda isə 6,7 faiz artıb.

***XQ***

# "Yaşıl gübrə" Azərbaycana yaşıllıq və bolluq gətirəcək

**Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ölkəmizdə və xaricdə "yaşıl enerji", dekarbonizasiya və aşağı karbonlu layihələrin həyata keçirilməsində yaxından iştirak etməyi hədəfləyir. Dünyanın prioritet elan etdiyi "yaşıl keçid" platformasına mühüm töhfələr verməyə çalışan şirkət bərpaolunan enerji layihələrinin effektiv idarə edilməsi, eləcə də neft-qaz əməliyyatlarında dekarbonizasiya proseslərinə dəstək göstərmək kimi strateji planları da artıq öz fəaliyyət sferasına daxil edib. SOCAR artıq bir sıra beynəlxalq şirkətlərlə bu istiqamətdə əməkdaşlığa başlayıb.**



Bugünlərdə SOCAR ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti arasında yaşıl gübrələrlə bağlı əməkdaşlıq sazişinin imzalanması da bunun bariz nümunəsidir. Sənədi SOCAR-ın vitse-prezident Anar Məmmədov və "ACWA Power" şirkətinin hidrogen üzrə qlobal rəhbəri və vitse-prezidenti Driss Berraho imzalayıblar. İmzalanma mərasimində Azərbaycanda dənizdə və quruda külək, günəş və "yaşıl" hidrogen kimi bərpaolunan enerji, həmçinin onlarla əlaqəli digər potensial layihələrin birgə işlənməsinə dair əməkdaşlıq haqqında sazişin imzalandığı məmnunluqla qeyd olunub. Yeni imzalanan sənədin "Aşağı karbonlu Yaşıl Gübrə" layihəsi çərçivəsində "yaşıl gübrə"lərin (əsasən karbamid olaraq) potensial istehsalı və sonrakı satışı üzrə əməkdaşlığı nəzərdə tutduğu vurğulanıb. Sazişə əsasən, "ACWA Power" şirkətinin "Aşağı karbonlu/ Yaşıl Gübrə" layihəsinin bərpaolunan enerji və "yaşıl" hidrogenin istehsalına aid olan hissələrində aparıcı rol oynayacağından əminlik ifadə olunub.

Qeyd edək ki, Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ölkəmizin əsas "yaşıl enerji" tərəfdaşlarından biridir. Şirkət hazırda 240 meqavat gücündə "Xızı–Abşeron" Külək Elektrik Stansiyasının tikintisini həyata keçirir. Xatırladaq ki, 2022-ci ilin yanvarın 13-də təməli qoyulan bu stansiya ildə, təxminən, 1 milyard kilovat-saata qədər elektrik enerjisi istehsal edəcək. Bu da 300 min evin elektrik enerjisi ilə təmin edilməsinə imkan yaradacaq. Bununla yanaşı, stansiyanın istismara daxil edilməsi ilə 220 milyon kubmetr təbii qaza qənaət ediləcək və 400 min ton karbon tullantılarının qarşısı alınacaq. Bir məqamı da diqqətə çatdıraq ki, hazırda Azərbaycana yatırılan 300 milyon ABŞ dollarına yaxın sərmayə "ACWA Power" şirkətinin Səudiyyə Ərəbistanı hüdudlarından kənarda qoyduğu ən iri sərmayədir.

Yeri gəlmişkən, bu il martın əvvəllərində Bakıda keçirilmiş Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları çərçivəsində "ACWA Power" şirkətinin İdarə Heyətinin sədri Məhəmməd Abunayyan ilə görüşən iqtisadiyyat naziri Mikayıl Cabbarov özünün sosial şəbəkə hesabında etdiyi paylaşımda Səudiyyə Ərəbistanı ilə ölkəmiz arasında iqtisadi əlaqələrin gücləndirilməsi və "yaşıl enerji"yə keçidin təmin edilməsi istiqamətində hədəflərin reallaşmasında bu ölkədən olan investorlarla işbirliyinin əhəmiyyətli rol oynadığını qeyd etmişdi. Həmin paylaşımda nazir, həmçinin "ACWA Power" şirkətinin rəhbəri ilə görüşdə bərpaolunan enerji sahəsində birgə təşəbbüslər, Azərbaycanda həyata keçirilən külək elektrik stansiyası layihəsinin icra vəziyyəti, dəniz suyunun duzsuzlaşdırılması və digər layihələrdə potensial əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparıldığını diqqətə çatdırmışdı.

SOCAR özünün "yaşıl" layihələrini ötən il təsis etdiyi törəmə şirkəti vasitəsilə həyata keçirəcək. Məlum olduğu kimi, 2023-cü ilin sonlarında SOCAR Müşahidə Şurasının qərarı ilə şirkətin tabeliyində "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyət (MMC) yaradlıb. Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin ötən il dekabrın 25-də imzaladığı sərəncamdan irəli gələn tapşırıqlar çərçivəsində təsis olunan şirkətin əsas fəaliyyət istiqamətlərinə bərpaolunan enerji, "yaşıl" hidrogenin istehsalı, karbonun tutulması, utilizasiyası və saxlanılması kimi layihələrin icrası, ölkə üzrə karbon emissiyasının azaldılması üçün strateji yol xəritələrinin hazırlanmasında müvafiq köməyin göstərilməsi kimi mühüm məsələlər daxildir. Eyni zamanda yeni yaradılan şirkət qeyd olunan sahələrdə beynəlxalq təcrübələrin öyrənilməsini və ölkəmizdə tətbiqini həyata keçirəcək.

"SOCAR Green" MMC Birləşmiş ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə birgə "Meqa" layihəsinin ilkin mərhələsində quruda 1 qiqavat gücündə külək və günəş enerjisi, Böyük Britaniyanın enerji nəhəngi BP şirkəti ilə birgə "Şəfəq" layihəsi çərçivəsində Cəbrayıl rayonunda 240 meqavatlıq günəş enerjisi layihələrini icra edəcək. Bununla yanaşı, şirkət tərəfindən "ACWA Power", "Masdar" və "Energy China" şirkətləri ilə birgə Naxçıvan Muxtar Respublikasında günəş və külək enerjisi layihələrinin icrası nəzərdə tutulur. Adı çəkilən nüfuzlu şirkətlərlə əməkdaşlıq etməklə "SOCAR Green" MMC "yaşıl enerji", dekarbonizasiya və aşağı karbonlu layihələrin Azərbaycanda və xaricdə həyata keçirilməsində, SOCAR üçün yeni biznes imkanlarının yaradılmasında, bu sahələrdə kadr bazasının formalaşdırılmasında və mövcud potensialın gücləndirilməsində, həmçinin "xalis sıfır" emissiya hədəflərinə çatmaqda öz müsbət töhfəsini verəcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# İslahatlar regionlara yeni don biçir

*Dövlət başçısı 2021-ci ildən indiyədək bölgələrə 140-a yaxın səfər edib*



**Prezident İlham Əliyev respublikamıza rəhbərlik etdiyi 20 ildən artıq bir müddət ərzində respublikamızın bütün şəhər və rayonları sürətlə müasirləşib, abadlıq-quruculuq işləri yüksək səviyyədə həyata keçirilib, böyük infrastruktur layihələri gerçəkləşdirilib, yeni iş yerlərinin yaradılması, vətəndaşların sosial rifahının yüksəldilməsi diqqət mərkəzində saxlanılıb.**

Ölkə rəhbəri regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin reallaşdırılmasına mühüm önəm verib, gərgin iş rejiminə baxmayaraq, bölgələrə mütəmadi səfərlər edib, görülən işlərlə yerində tanış olub, layihələrin daha sürətlə icrası üçün tapşırıq və tövsiyələrini bildirib.

Dövlət başçısı təkcə ötən il rayonlara səfəri çərçivəsində 160-dan çox obyektin– istehsal müəssisələri, yollar, elektrik təchizatı obyektləri, su təchizatı layihələri, həmçinin səhiyyə və təhsil müəssisələrinin açılış mərasimlərində iştirak edib. Bütün bunlar statistik göstəricilərdə də öz ifadəsini tapıb. Belə ki, Prezident İlham Əliyev 2021-ci ildə 17, 2022-ci ildə 14, 2023-cü ildə 11, bu ilin ötən aylarında isə 5 rayonda 47 səfərdə olub. Ümumiyyətlə, ölkə rəhbərinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları daxil olmaqla, 2021-ci ildən indiyədək bölgələrə 140-a yaxın səfəri reallaşıb.

Məhz bütün bu səfərləri şərtləndirən diqqət və qayğı regionların sosial-iqtisadi inkişafını sürətləndirib, ölkənin iqtisadi artım tempinin davamlılığını gerçəkləşdirib, eyni zamanda əhalinin sosial rifahının yüksəldilməsinə müsbət təsir göstərib. Statistikaya əsasən, ötən 20 il ərzində 3200-dən çox məktəb binası, 750-dən çox tibb müəssisəsi tikilib və ya əsaslı təmir edilib, 40-dan çox olimpiya mərkəzi və yüzlərlə müxtəlif idman qurğuları istifadəyə verilib. Eyni zamanda bu müddətdə yolların tikintisi və yenidən qurulması, su, qaz, elektrik təsərrüfatlarının yenilənməsi və müasirləşdirilməsi, körpülərin salınması, sosialyönümlü obyektlərin yenidən qurulması və əsaslı təmiri prosesi reallaşdırılıb. Vətən müharibəsindən ötən dövrdə isə Böyük Qayıdış proqramının reallaşdırılmasına başlanılıb.

Regional inkişaf proqramlarının uğurla həyata keçirilməsi, eyni zamanda yüksək iqtisadi göstəricilərlə müşahidə edilib. Belə ki, ötən 20 ildə ölkə iqtisadiyyatı 3,4 dəfə, ÜDM nominal ifadədə 22 dəfə yüksəlib. Dövlət büdcəsinin gəlirləri 2023-cü ildə 30 milyard manatdan çox olub. Azərbaycanın xarici valyuta ehtiyatları xarici dövlət borcunu 10 dəfə üstələyib. Qeyri-neft ixracında 8 dəfədən çox artım qeydə alınıb.

Dövlət proqramı çərçivəsində regionlarda sənayeləşmə siyasətinə uyğun olaraq sənaye parkları və məhəllələrinin fəaliyyətinin təşkili və genişləndirilməsi istiqamətində işlər indiyədək uğurla davam etdirilib. 7 sənaye parkının–Sumqayıt Kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz vadisi İqtisadi Zonası" sənaye parklarının və 5 sənaye məhəlləsinin – Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələrinin səmərəli fəaliyyəti təmin olunub.

Qeyd edək ki, respublikada fəaliyyət göstərən sənaye parkları və məhəllələrində sahibkarların biznes fəaliyyətini stimullaşdıran, onların vergi və gömrük güzəştləri əldə etmələri üçün əlverişli şərait yaradan, eyni zamanda 2016-cı ildən tətbiq edilən investisiya təşviqi mexanizmi çərçivəsində 7 ildən artıq müddət ərzində 583 layihə təşviq olunub. Həmin layihələrin icrası nəticəsində iqtisadiyyata 5,6 milyard manatdan artıq investisiya yatırılıb, 38,6 mindən çox iş yerinin yaradılması nəzərdə tutulub. İndiyədək dəyəri 1,8 milyard manatdan artıq olan texnika, texnoloji avadanlıq və qurğular güzəştli şərtlərlə ölkəyə idxal edilib və müasir istehsal sahələri qurulub.

Sənaye park və məhəllələri xarici investisiyaların ölkəyə cəlbində və qeyri-neft sektorunun inkşafında mühüm rol oynayırlar. Onlar yeni texnologiyaların ölkəyə transfer olunmasında, bununla da rəqabətqabiliyyətli əmtəələr istehsal edilməsində daha çox fərqlənirlər. Eyni zamanda yerli şirkətlər sənaye park və məhəllələrinin yaradılması ilə bağlı beynəlxalq təcrübədən bəhrələnməklə həmin texnologiyalar əsasında yeni milli istehsal müəssisələrinin açılmasına böyük maraq göstərirlər.

Son illərdə ölkəmizdə rəqabətə davamlı milli iqtisadiyyatın yaradılması, rəqabətlilik mühitinin təminində korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, rəqəmsal iqtisadiyyatda rəqabət siyasətinə rəqəmsal baxışın diqqət mərkəzində saxlanılması kimi məsələlərə böyük əhəmiyyət verilib. Bundan başqa, istehlak bazarında rəqabət üstünlüyünün gerçəkləşdirilməsinə, eyni zamanda, müəssisələrin rəqabətqabiliyyətliliyinin və dayanıqlılığının rəqəmsal transformasiya texnologiyaları vasitəsilə yüksəldilməsinə həlledici vasitə kimi yanaşılıb.

Ekspertlər bildirirlər ki, vergi, gömrük, dövlət satınalmaları və iqtisadi subyektlərlə qarşılıqlı əlaqədə olan digər dövlət sektorlarında şəffaflıq və ədalətliliyin təmini rəqabət mühitini gücləndirir. Bu həm də sahibkarlıq fəaliyyətinin qanun çərçivəsində qurulması, iqtisadiyyatın əsaslarının möhkəmlənməsi baxımından da zəruri şərtlərdən biridir. Çünki sağlam rəqabətli iqtisadiyyat həm xalqın rifah səviyyəsini yüksəldir, həm də xaricdən ölkəyə investisiya axınının miqyasını artırır. Bununla yanaşı, rəqabət mühitinin formalaşması ölkənin qlobal iqtisadiyyata inteqrasiyasını sürətləndirir, respublikamızın bu istiqamətdə lider mövqeyə yüksəlməsini reallaşdırır.

*V.BAYRAMOV*
*XQ*

## Naxçıvan xəbərləri



### Hamıya və hər yerə su!

Muxtar respublikada hidrogeoloji işlərin aparılması, yeraltı suların dayanıqlığının, kimyəvi tərkibinin, ekoloji vəziyyətə təsirinin qiymətləndirilməsi və digər məsələlərlə bağlı "Qalf Drilling Saplay FZE" şirkəti ilə Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı ASC arasında memorandum imzalanıb.

Bu münasibətlə keçirilən tədbirdə bildirilib ki, muxtar respublika ərazisində ən etibarlı su mənbəyi Araz çayı və onun üzərindəki su anbarıdır. Araz çayının mövcud potensialından səmərəli istifadə etmək məqsədilə bir neçə layihə hazırlanmaqdadır. Bu layihələrin gerçəkləşməsi muxtar respublikanın suvarma suyuna olan tələbatının ödənilməsi istiqamətində əsaslı kömək edəcək. İmzalanan yeni memorandum isə muxtar respublikanın su ehtiyatlarının artırılmasına öz töhfəsini verəcək.

### 1500 yeni vergi ödəyicisi



Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına əsasən, yanvar–mart aylarında qədim diyarda 1559 yeni vergi ödəyicisi qeydiyyata alınıb.

Həmin ödəyicilərin 1467-si fiziki, 92-si hüquqi şəxs və digər təşkilatlar olub. Ötən ilin eyni dövrü ilə müqayisədə qeydiyyata alınmış vergi ödəyicilərinin sayı 8,2 faiz çoxalıb.

Məlumatda, eyni zamanda ilin ilk rübündə büdcəyə ötən ilin eyni dövrünə nisbətən 24,8 faiz və ya 9,1 milyon manat çox–45,8 milyon manat vergi daxil olduğu bildirilib. Cari ilin birinci rübündə Naxçıvanda vergi daxilolmaları üzrə proqnoz 116,1 faiz icra edilib.

### 3 ayda 2355 "ASAN İmza"




Bu ilin yanvar–mart aylarında muxtar respublikada 1300 müraciət üzrə 2355 "ASAN İmza" sertifikatı verilib.

Dövlət Vergi Xidmətinin məlumatına görə, strukturlar tərəfindən vergi qanunvericiliyi və inzibatçılığı ilə əlaqədar sualların cavablandırılması, vergi uçotu, qeydiyyat, bəyannamələr, cari vergi ödəmələri və digər məsələlərlə bağlı 10130 xidmət göstərilib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 1,2 dəfə çoxdur. Bununla yanaşı, hesabat dövründə vergi ödəyicilərinə 162 min 514 məlumatlandırma xarakterli müxtəlif növ bildiriş (məktub) göndərilib.

*Səbuhi HƏSƏNOV*
*XQ*

**Naxçıvan**

## Ağdərə–Ağdam yolu da yenilənir



**XQ-nin Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə istinadən verdiyi məlumata görə, Suqovuşan–Kəlbəcər avtomobil yolunun 9-cu kilometrliyindən ayrılan və 33,5 kilometr uzunluğa malik Ağdərə–Ağdam avtomobil yolunun hərəkət hissəsinin eni 9 metrdir. Torpaq yatağının eni 15 metr təşkil edəcək yol 2 hərəkət zolaqlı II texniki dərəcəyə uyğun olaraq inşa edilir.**

Hazırda avtomobil yolunda layihə üzrə torpaq işləri görülür. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yararsız qruntun çıxarılması və əvəzində yararlı material verilərək normativ hündürlüyə çatdırılması, yolun genişləndirilərək profilə salınması işləri həyata keçirilir.

Yolboyu layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif diametrlərə malik dairəvi boru, düzbucaqlı su keçidlərinin tikintisi aparılır. Bundan başqa, layihə üzrə Ağdam ərazisində Xaçınçay üzərində 5 aşırımlı körpü də inşa edilir. Hazırda körpü dayaqları tikilir.

Ağdərə–Ağdam avtomobil yolu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılır.

## Şirvanda işıqlar sönməyəcək



**"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti investisiya layihəsi çərçivəsində regionların elektrik şəbəkələrində yenidənqurma və əsaslı təmir işlərini davam etdirir.**

QurumunTədbirlər Planına uyğun olaraq hazırda Şirvan şəhərində 35 kilovoltluq 754.1, 754.2 və 756 saylı hava xətlərinin keçdiyi ərazidə əsaslı təmir-bərpa və yenidənqurma işləri həyata keçirilir. Artıq 35 kilovoltluq hava xətlərinin keçdiyi ərazidə dəmir dayaqlar basdırılıb və müasir tipli, izolyasiyalı kabel xətləri çəkilib. İş prosesi zamanı təhlükəsizlik tədbirləri nəzərə alınaraq xətlər və dayaqlar əhalinin sıx məskunlaşdığı ərazilərdən çıxarılaraq daha əlverişli yerlərdən çəkilir.

Xatırladaq ki, Şirvan şəhərinin və Hacıqabul rayonunun əksər hissələrindən keçən elektrik xətləri ötən əsrin ortalarında çəkilib. 60–70 il istismar edildiyi üçün bu xətlərin əsaslı yenidənqurmaya ehtiyacı var idi. Müasir elektrik şəbəkəsinin qurulduğu ərazilərdə sakinlər dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunurlar. Şirvan Regional Enerji Təchizatı və Satış İdarəsinin əhatə etdiyi şəhər və rayonlarda yenidənqurma işləri getdikcə intensiv xarakter alır.

"Azərişıq" ASC-nin investisiya proqramına uyğun olaraq ölkənin bütün regionlarında bir sıra kənd və qəsəbələrin elektrik şəbəkəsi də yenilənir. Məqsəd abonentlərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunması ilə yanaşı, həm də elektrik enerjisi itkilərini minimuma endirməkdir.

**XQ**

# Kənd ziyan və itkilərdən etibarlı qorunur

*I rübdə fermerlərə 1,8 milyon manat sığorta ödənilib*

**Azərbaycanda aqrar sığorta mexanizminin tətbiqi kənd təsərrüfatına bir dinamizm, inkişaf gətirib. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən iqtisadi islahatların tərkib hissəsi olan aqrar sığortaya inam getdikcə artır. Artıq fermerlərin və fərdi təsərrüfat sahiblərinin əsl dayağı, himayədarı olan bu mexanizm, həm də dövlət-özəl sektor tərəfdaşlığına mühüm töhfələr verir.**



Ötən il Aqrar Sığorta Fondu tərəfindən fermerlərə və fərdi təsərrüfat sahiblərinə 4 milyon 400 min manat məbləğində sığorta ödənişləri edilib. Bu isə 2022-ci illə müqayisədə 80 faiz çoxdur. Ümumi sığorta ödənişlərinin 3 milyon 500 min manatı bitkiçiliyin, 910 min manatı isə heyvandarlığın payına düşüb. Əvvəlki illə müqayisədə bitkiçilik və heyvandarlıq üzrə ödənişlər müvafiq olaraq 2 dəfə və 28 faiz artıb. Bu sahədə ödənişlərin sayının və məbləğinin ildən-ilə artması, həm aqrar sığorta sisteminin işləkliyini, həm də fermerlərin bu mexanizmə marağını göstərir.

Aqrar Sığorta Fondu təsərrüfatlarını sığorta etmiş fermerlərə müxtəlif hadisələr nəticəsində dəyən zərərlə bağlı sığorta ödənişlərini davam etdirir. Artıq Azərbaycanda dövlət dəstəyi ilə tətbiq edilən aqrar sığorta mexanizmi çərçivəsində cari il üzrə sığorta ödənişlərinə başlanıb. Fondun məlumatına görə, bu ilin ilk rübündə ölkə üzrə 1,8 milyon manat sığorta ödənişləri həyata keçirilib.

Bugünlərdə isə Aqrar Sığorta Fondu tərəfindən İsmayıllı, Qusar və Şabran rayonlarında gilas və badam bağları, eləcə də kələm əkinlərinə dəyən zərərlərə görə fermerlərə sığorta ödənişləri edilib. Belə ki, İsmayıllı rayonunun Qalıncaq kəndində baş vermiş fırtına hadisəsi nəticəsində gilas bağlarına dəymiş zərərə görə iki fermerə, ümumilikdə, 41 min 965 manat məbləğində sığorta ödənişi təqdim edilib. Bununla yanaşı, Qusar rayonunun Gican kəndində sel-subasma hadisəsi nəticəsində kələm əkini sahəsinə dəymiş zərərə görə 1566 manat, Şabran rayonunun Pirəbədil kəndində donvurmanın təsirinə məruz qalmış badam bağına görə təsərrüfat sahibinə 1777 manat məbləğində sığorta ödənilib.

Bu ilin ötən dövründə bitkiçilik sahəsi üzrə ən böyük sığorta ödənişi isə Balakən rayonunda həyata keçirilib. Belə ki, rayonun Qazma kəndində sığortalı qarğıdalı sahəsi təbiətin şıltaqlığına məruz qaldığı üçün təsərrüfat sahibinə 89 min 799 manat sığorta ödənişi edilib. Ümumilikdə, rayondakı qarğıdalı sahələri dolu hadisəsindən ciddi zərər görən digər fermerlər aqrar sığortadan bəhrələniblər. Yeri gəlmişkən, qarğıdalı Aqrar Sığorta Fondu tərəfindən ən çox ödəniş həyata keçirilən bitkilərdəndir. Ötən müddətdə bu əkinlər üzrə 220 min manatdan artıq ödəniş edilib.

Bütövlükdə isə, Aqrar Sığorta Fondu tərəfindən meyvə bağları üzrə ödənişlər sürətlə artır. Bir qədər əvvəl gözlənilməz təbiət hadisələrinin təsirinə məruz qalmış üzüm, ərik və alça bağları üzrə də sığorta ödənişləri həyata keçirilib. Aqrar sığorta ödənişi alan fermerlər, sığorta mexanizminin işindən razı qalıb, bu dəstəyə görə dövlətə təşəkkür ediblər. Təsərrüfatlarını daha da inkişaf etdirəcəklərini bildirən sahibkarlar digər fermerləri də bu sərfəli imkandan istifadə edərək əkin sahələrini və meyvə bağlarını sığortalamağa çağırıblar.

Qeyd edək ki, aqrar sığorta mexanizmi vasitəsilə ölkədə 48 adda bitki və bitkiçilik məhsullarını, o cümlədən meyvə bağlarını və tərəvəz əkinlərini sığortalamaq mümkündür. Aqrar sığorta əkin sahələrini təbiət hadisələri – dolu, qasırğa-fırtına, sel-subasma, şaxtavurma, leysan, normadan artıq qar yağıntıları, 3-cü şəxslərin hərəkətləri və sair risklərdən qoruyur. Sığorta haqqının 50 faizini isə fermerlərə dəstək üçün dövlət ödəyir. Nəticədə, fermerlər cüzi məbləğ ödəməklə meyvə bağlarını və tərəvəz sahələrini sərfəli şərtlərlə sığorta etməklə əkin sahələrini çoxsaylı risklərdən qoruya bilirlər.

Ölkə fermerlərinin güvənc yeri olan aqrar sığorta vasitəsilə əkin sahələri ilə yanaşı, kənd təsərrüfatı heyvanları və balıqçılıq təsərrüfatları da sığorta edilir. Bitkiçilik sığortasına taxıl və tarla bitkiləri, meyvə bağları, texniki bitkilər, tərəvəz və bostan bitkiləri, heyvanların sığortasına isə iri və xırda buynuzlu heyvanlar – inək, camış, qoyun və keçi təsərrüfatları daxildir.

*M.QULİYEV*
*XQ*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 214

Bakı şəhəri, 19 aprel 2024-cü il

**Azərbaycan Texniki Universitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında**

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.12.1-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Texniki Universiteti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Texniki Universitetinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**2.** "Azərbaycan Texniki Universitetinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

**3.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Qərar qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində Azərbaycan Texniki Universitetinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınması üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 215

Bakı şəhəri, 19 aprel 2024-cü il

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İnzibati orqanların Təsnifatı"nın təsdiq edilməsi haqqında" 2007-ci il 28 avqust tarixli 136 nömrəli və "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adlarının təsdiq edilməsi barədə" 2008-ci il 19 dekabr tarixli 277 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 23 fevral tarixli 97 nömrəli Qərarı) ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nın II bölməsinin 14.1.2-ci, 14.1.3-cü və 14.1.5-ci yarımbəndləri ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 23 fevral tarixli 97 nömrəli, 1 aprel tarixli 184 nömrəli və 3 aprel tarixli 196 nömrəli qərarları) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"ndan "Dövlət Məşğulluq Xidmətinin Aparatı;", "Dövlət Sosial Təminat Xidmətinin Aparatı;" və "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Aparatı;" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 216

Bakı şəhəri, 19 aprel 2024-cü il

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ətrafında 200 metr radius çərçivəsində yığıncaqların, mitinqlərin, nümayişlərin və küçə yürüşlərinin keçirilməsi qadağan edilə bilən mərkəzi, rayon və şəhər icra hakimiyyəti orqanlarının yerləşdiyi binaların siyahısı"nın təsdiq edilməsi haqqında" 2008-ci il 27 sentyabr tarixli 234 nömrəli, "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"nın təsdiq edilməsi barədə" 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli və "Korrespondensiyaların və digər göndərişlərin qəbulu, qablaşdırılması, mühafizəsi və çatdırılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 12 fevral tarixli 47 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti haqqında Əsasname"nin təsdiq edilməsi barədə" 2021-ci il 19 fevral tarixli 1290 nömrəli, "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti haqqında Əsasnamənin, Xidmətin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1509 nömrəli və "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 27 sentyabr tarixli 234 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 880 (Cild I) ilə təsdiq edilmiş "Ətrafında 200 metr radius çərçivəsində yığıncaqların, mitinqlərin, nümayişlərin və küçə yürüşlərinin keçirilməsi qadağan edilə bilən mərkəzi, rayon və şəhər icra hakimiyyəti orqanlarının yerləşdiyi binaların siyahısı"nın 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. yeddinci abzas aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin inzibati binası;";

1.2. səkkizinci–on beşinci abzaslar onuncu–on yeddinci abzaslar hesab edilsin və aşağıdakı məzmunda səkkizinci, doqquzuncu abzaslar əlavə edilsin:

"Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin inzibati binası;

Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin inzibati binası;".

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1223 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 fevral tarixli 85 nömrəli və 12 mart tarixli 137 nömrəli qərarları) ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"na 2 nömrəli Əlavə - "Azərbaycan Respublikasının müvafiq dövlət orqanları tərəfindən verilmiş icazə sənədləri təqdim edilməklə sadələşdirilmiş qaydada gömrük sərhədindən keçirilən və beynəlxalq poçt göndərişləri vasitəsilə alınan (göndərilən) mallar"ın 2-ci hissəsində "Xüsusi Dövlət Mühafizə" sözləri "Prezidentin Təhlükəsizlik" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 fevral tarixli 47 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 345 (Cild I) ilə təsdiq edilmiş "Korrespondensiyaların və digər göndərişlərin qəbulu, qablaşdırılması, mühafizəsi və çatdırılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bənddə "Dövlət Mühafizə Xidmətinin Feldyeger Rabitəsi İdarəsi" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Feldyeger Rabitəsi Baş İdarəsi" sözləri ilə əvəz edilsin;

3.2. 1.4-cü, 3.2-ci bəndlərdə "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin;

3.3. 10.5-ci bəndin birinci cümləsində "9.4-cü" sözləri "10.4-cü" sözləri ilə, 11.3-cü bənddə isə "2-ci" sözləri "3-cü" sözləri ilə əvəz edilsin;

3.4. həmin Qaydanın 1 nömrəli (hər üç halda), 2 nömrəli, 3 nömrəli və 5 nömrəli əlavələrində ismin müvafiq hallarında "Dövlət Mühafizə Xidmətinin Feldyeger Rabitəsi İdarəsi" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Feldyeger Rabitəsi Baş İdarəsi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 217

Bakı şəhəri, 19 aprel 2024-cü il

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə**

"Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2435 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 23 fevral tarixli 97 nömrəli və 3 aprel tarixli 195 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nın 3-cü hissəsinin əlli ikinci abzasından "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 218

Bakı şəhəri, 19 aprel 2024-cü il

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nda dəyişiklik edilməsi haqqında**

"Şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin Əsasnaməsi"nin təsdiq edilməsi və bundan irəli gələn bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2432 nömrəli Fərmanının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 547 (Cild I); 2024, № 1, maddə 87) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın 13.1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"13.1. Şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sistemi".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Yeni müstəmləkəçiliyin Fransa yenilikləri

**Fransanın xarici siyasəti dünyanın müxtəlif regionlarında müstəmləkə altına saldığı xalqları assimilyasiya etmək, dilini, mədəniyyətini, adət-ənənələrini aradan qaldırmaqla onlara fransız mədəniyyətini aşılamaq, daim öz orbitində saxlamaqdan ibarət olmuşdur.**

İndiki postmüstəmləkə dövründə də həmin siyasəti "demokratik əməkdaşlıq" və bu kimi cəzbedici adlarla davam etdirən Fransa keçmiş kaloniyalarını siyasi, iqtisadi, mənəvi-mədəni sahələrdə öz təsiri altında saxlayıb, həmin ölkələrin təbii sərvətlərini mənimsəmək, ucuz işçi qüvvəsi kimi onların əməyinin Fransa iqtisadiyyatına xidmətini davam etdirməkdir.

Qeyd etmək lazımdır ki, Fransanın müstəmləkəçilik siyasəti XVIII əsrdə fəlsəfi-siyasi baxımdan J.J.Russo tərəfindən formalaşan "Bon sauvage"(bon suvəc-nəcib vəhşi) nəzəriyyəsinə istinad ilə qarşılıqlı faydalı və mütaqabil əməkdaşlıq etmək vədi yerinə yetirilməmişdir. Onun bu ölkələrə yönəlmiş siyasətindən məqsəd, əslində, keçmişdəki müstəmləkəçilik irsinin yenidən canlandırılması, frankofon ölkələrdə qeyri-Avropa dövlətlərinin və Çinin fəallaşmasına mane olmaqdır. Buna görə də o, yardımları və insani əlaqələri gücləndirməyi qarşıya məqsəd qoymuşdu. Lakin təkrar seçilərkən onun verdiyi vədlər, etdiyi müraciətlər, bu ölkələrə daha xoş yanaşma üsulu – heç biri həyata keçmədi.

Qeyd edilməlidir ki, müstəmləkə



edir. Russonun "Bərabərsizliyin mənşəyi haqqında mülahizələr" əsəri başdan-başa antihumanist çağırışlardan ibarət idi. Kənardan yeridilən mədəniyyəti idealizə edən bu təlimə uyğunlaşdıraraq sonrakı illərdə fransız mədəniyyəti bəh-bəhlə işğaldakı xalqlara təlqin edilirdi.

Fransanın müstəmləkəçilik siyasəti Böyük Britaniya müstəmləkəçilik siyasətindən tam fərqlidir. Bu, birbaşa assimilyasiya siyasətidir. Məsələn, Afrikanı "fransızlaşdırmaq" ("Frenchification"), onları bir qara dərili fransıza çevirmək siyasəti. Bunun üçün bütün təbliğat vasitələri işə salınırdı.

Müstəmləkə ölkələrində mətbuatı öz əlində tutmaq, yalnız Fransadan gətirilən təbliğat vasitələrini yaymaq, yerli mətbuatın inkişafını məhdudlaşdırmaq siyasəti indi də Afrikada və digər regionlarda davam etdirilir.

Yerli-köklü xalqların həyat tərzində, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə müstəmləkəçilik dövrünün fəsadları, problemləri yaşanmaqdadır.

Fransızların müstəmləkəsi olmuş Yeni Kaledoniyada yerli-köklü (aborigen) əhalinin sıxışdırılması baş verməkdir. Hələ də belə ölkələrə Fransanın tərkib hissəsi kimi baxılır. Onlar Fransa parlamentinə də nümayəndə(lər) seçirlər.

Katolik kilsəsi də kolonial siyasətdə fəal rol oynadığı kimi, indiki şəraitdə də oxşar missiyanı davam etdirməyə çalışır.

Məlumdur ki, 1789-cu il Fransa inqilabı "İnsan haqları haqqında" Bəyannamə qəbul etmişdi, lakin çox keçmədən Fransanın başlatdığı müharibələr və geniş müstəmləkəçilik iştahı bu bəyannamənin humanist müddəalarını unutdurdu.

Fransa müstəmləkələrindəki üsyanları amansızlıqla yatırırdı. 1856-1859-cu illərdə Melaneziyadakı, xüsusən Yeni Kaledoniyanın mərkəzi Noumeadakı üsyanlar ağır cəza tədbirləri vasitəsilə boğulurdu. Sürgün, ağır vergilər və s. Yaxud 1962-ci ildə Əlcəzair xalqının azadlıq uğrunda mübarizəsi 1 milyonadək qurban və 2 milyon məcburi köçkünlə nəticələnmişdi.

İrqi-dini ayrı-seçkilik Fransanın siyasətində hər zaman nümayiş etdirilib. Parisin öz müstəmləkələrinə öz adamlarını yerləşdirməklə, yerli əhalinin sayını aşağı salmaq siyasəti ona gətirib çıxardıb ki, köklü əhali bəzi yerlərdə azlıqda qalıb, etnik qrupa çevrilib.

İndi də Fransa öz metropoliyalarında, əslində, yeni müstəmləkəçilik siyasətindən əl çəkmir. Bu ölkələrin ümumi sahəsi 551500 kv.km-dir. Fransanın öz sahəsi 643801 kv.km. Dənizarxası ərazilərin genişliyinə görə Fransa dünyada 2-ci böyük "müstəsna iqtisadi zonaya" (exclusive economic zone) malikdir.

Fransanın tabeliyində 18 regionu, mülkiyyətində isə 5 dənizarxası kollektivi, 1 dənizarxası ərazi, 1 xüsusi kollektiv (Yeni Kaledoniya) vardır. Dənizarxası ərazilər, kollektivlər Fransanın tərkib hissəsidir (Fransız Polineziyası, Sen-Bartelemi, Sen-Marten, Yeni Kaledoniya və s.). Amma onlar Avropa İttifaqına daxil deyil.

Fransada İslam dininə münasibətlə əlaqədar da ciddi problemlər yaşanır, burada ölkədə islamofobiya geniş yayılmışdır.

2017-ci ilin noyabrında Burkino–Fasoda universitetdə çıxış edən Prezident Makron Fransanın Afrikadakı keçmiş müstəmləkələri ilə yeni münasibətlərdən, tarixi ənənələrdən və gələcək nikbin perspektivlərdən danışmışdı. Lakin Beynəlxalq Sülh üçün Karnegi Fondunun ("Carnagie Endowment for International Peace") dəyərləndirməsinə görə, Prezident Makronun Afrika ölkələri ölkələrində Fransanın formalaşdırdığı yerli elita bütün dövrlərdə məhz fransız maraqlarının ifadəçisi rolunu oynamağa hədəfləndirilmişdi.

1960-cı ildən dekolonizasiya başlasa da, Fransanın siyasəti bir sıra ölkələrdə, əslində, yeni müstəmləkəçilik şəklində davam etməyə başladı. 1990-da Prezident Mitteran demokratik tərəfdaşlığa dair vədlər versə də, Fransanın həyata keçirdiyi tədbirlər Parisin insan haqları ilə əlaqədar ritorikasının iç üzünü ortaya qoydu. 2008-də N.Sarkozi Fransafrik (Françafrique) anlayışının başa çatdığını bəyan etdi. Lakin Afrikada siyasi və maliyyə əlaqələrində Fransa maraqlarının yeridilməsi yenə də davam etdirildi.

Azad seçkilər və demokratiya bəyanatları versə də, Paris zaman-zaman özünə uyğun rejimləri dəstəkləyir, ölkələrin daxili işlərinə qarışır, hərbi-siyasi gücünü və iştirakını davam etdirir. Bu siyasət prezident Makronun dövründə də Afrika ölkələrində davam etdirilir ki, bu da Fransaya inamsızlığı get-gedə artırır. Xüsusən də, Çinin, Hindistanın, İsrailin, Türkiyənin, Rusiyanın, Birləşmiş Ərəb Əmirliyinin bu qitədəki artan fəaliyyətləri Fransa siyasətinin təsirini azaldır, gözdən salır, haqlı etirazlar doğurur. Bir fakta nəzər salaq: 2018-ci ildə 82 min afrikalı tələbə Çində təhsil almışdır, bu Fransada təhsil alan afrikalılardan təqribən iki dəfə çoxdur.

2017-ci ildə Burkino Fasoda prezident Makron demişdi ki, "müstəmləkəçilik insanlığa qarşı cinayətdir". Amma Fransanın baş naziri milli xəbər proqramında çıxış edərkən müstəmləkəçiliyi mədh etmişdi. Fransanın dərsliklərində hələ də müstəmləkəçiliyin ancaq müsbət yönləri əks etdirilməkdədir. Fransız mədəniyyətinin digərlərindən üstünlüyü təlqin olunur.

Halbuki, Afrika ölkələrinin maddi-mənəvi irsinin ən yaxşı nümunələri hələ də Fransa muzeylərindədir. Prezident Makron mədəniyyət sahəsində keçmişdə yol verilən səhvləri etiraf etsə də, həmin dəyərli artefaktların geriyə, aid olduqları ölkələrə qaytarılması üçün heç bir addım atılmamışdır (66 min mühüm eksponat).

Keçmiş müstəmləkələrində iqtisadi diplomatiya ilə yanaşı, hərbi müdaxilələr də Fransanın istifadə etdiyi üsullardandır. Son illərdə Fransa Burkino–Faso, Mərkəzi Afrika Respublikası, Çad və Malidə bu vasitəyə əl atmışdır. Ümumiyyətlə, Fransa 1960-cı ildən 1990-cı illərin ortalarınadək 122 dəfə Afrika ölkələrinə hərbi müdaxilə etmişdir. Məsələn, Benin (1991), Mərkəzi Afrika Respublikası (1979, 1996), Çad (Bizon əməliyyatı).

Nəticə olaraq demək olar ki, Afrika və digər regionlardakı keçmiş müstəmləkələrlə yeni münasibətlərin qurulması Makron hökumətinin yanlış siyasəti nəticəsində uğursuzluğa duçar olur. Dünyanın digər bölgələrində də Makron hökumətinin siyasətinə etimad azalır və Fransa dünya nizamında iddia etdiyi yeri tuta bilmir. Bu da, Fransanın sülhə və əməkdaşlığa əngəl olan siyasəti ilə birbaşa əlaqədardır. Bunun ən yeni nümunəsi də Fransanın Cənubi Qafqazda sülhə və əməkdaşlığa ciddi zərər vuran cəhdləridir. Lakin bu təxribatçı fəaliyyətlərin də iflasa uğrayacağı labüddür.

***Eynulla MƏDƏTLİ,***
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktor müavini, tarix elmləri doktoru, fövqəladə və səlahiyyətli səfir***

# Milli kinomuzun yönü hayanadır?

## *Azərbaycan filmlərini dünyada tanıtmaq hədəf seçilib*

**Məlum olduğu kimi, Prezident İlham Əliyev 2022-ci il aprelin 20-də "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxsin yaradılması haqqında Fərman imzalayıb. Məqsəd milli kino təsərrüfatında vacib islahatların aparılması, kinematoqrafiya və yayım infrastrukturunun müasirləşdirilməsidir. Kino Agentliyinin (ARKA) baş direktoru vəzifəsini icra edən Əməkdar incəsənət xadimi Orxan Fikrətoğlu qurumun ötən 2 ildə gördüyü işlər, yaxın və uzaq perspektivlərlə bağlı "XQ"-nin suallarını cavablandırıb. Onun fikirlərini təqdim edirik.**



– Dövlət başçımızın kino ilə bağlı imzaladığı sənədlər, verdiyi göstəriş və tövsiyələr Azərbaycan kinosuna göstərilən qayğının bariz nümunəsidir. Bu, bizə fəaliyyətimizdə böyük maddi-mənəvi stimul verir.

Kinematoqrafiya özündə mədəniyyətin bir çox sahələrini yaşadan, sintez edən polifonik və populyar bir sənət sahəsidir. Eyni zamanda yumşaq siyasət, təbliğat, reklam və istehsalatı ehtiva edir. Kinonu sənayeləşdirərək, bu bazardan çox yüksək gəlir götürən ölkələr də var. Hər bir halda, kino millətlərin özünüifadə vasitəsidir.

Sadaladığım aspektlərdən yanaşsaq, milli kinomuzda sələflərimizdən bizə qalan miras elə də ürəkaçan deyildi. Kino istehsalı dayandırılmışdı və bu sahədə iki paralel yaradıcılıq ittifaqı vardı. Gənclər işsiz idilər, ən yaxşı halda daha çox az büdcəli, TV formatlı filmlər çəkməklə həm sənəti, həm də kinomühitin ovqatını dəyişirdilər. Filmlərdə isə milli məzmun, dövlətin təməl prinsiplərinin qorunması başlıca amil olaraq nəzərə alınmırdı.

Bu gün ARKA-nın ilk amacı kino sahəsinə məhz milli məzmunu qaytarmaqdır. Film siyasətini "prodüser kinosu" sistemi vasitəsilə həyata keçirmək, istehsalatı stimullaşdırmaq, sahəni sənayeləşdirmək, plüralizm və müxtəliflik yaratmaq əzmindəyik. Dövlət sifarişi ilə çəkilən filmlərin sosial sifarişlərə, millətin zehniyyətindən gələn qaynaqlara söykənməsini vacib sayırıq. Eyni zamanda, yerli və xarici kino istehsalçıları üçün imtiyazlı istehsal şəraitinin yaradılmasını təmin edən və çox güman ki, yeni qanunvericiliklə tənzimlənən kino mühiti yaratmağı düşünürük. Bütün bunlar isə yekunda milli məzmunla süslənmiş universal kino dilində danışmağı bacaran yeni yaradıcı nəsil formalaşdırmağı hədəfləyir.

Prioritet istiqamətlərimizdən biri də ənənə üzərində formalaşmış kino klassikasını və yetərincə uğurları olan milli kino tariximizi dünyada təbliğ etməkdir. Ən nəhayət, dövlətin "yumşaq siyasəti" funksiyasına qədər qaldıracağımız yeni çəkiləcək filmlər vasitəsilə dünyaya Azərbaycan həqiqətlərini daha intensiv çatdırmağı düşünürük. Bunun üçün yetərincə mobil komanda var və artıq bir sıra real işlər də görülüb. Mədəniyyət Nazirliyində aparılan mühüm islahatların davamı kimi, Kino Agentliyi də dövrün çağırışlarına və bu sahədə qazanılmış kinematoqrafik təcrübəyə söykənir.

Konkret olaraq, işimiz çəkiləcək filmlərin şəffaf seleksiyadan keçirilməsi üçün müxtəlif müsabiqələr təşkil etməkdən, yeni idarəçilik sistemləri yaratmaqdan, istedadlı gənclərə əməli dəstək proqramlarını real icra etməkdən ibarətdir. Xüsusən də Mədəniyyət və İncəsənət Universitetinin tələbələrinə dəstək olaraq, artıq seçilmiş 16 təzə filmin maliyyələşməsinə nail olmaq, sahəyə yeni "oyunçuları" və "investorları" cəlb etmək, animasiya sahəsini, sənədli film sektorunu yenidən təşkilatlandırmaq, bir sözlə, kinematoqrafiyaya yeni nəfəs gətirmək görəcəyimiz çoxsaylı işlər sırasındadır.

ARKA-da kifayət qədər nüfuzlu peşəkarlardan ibarət Bədii şura fəaliyyətə başlayıb. Layiqli filmlərin istehsalata buraxılması və hazır sənət nümunəsi kimi qəbul olunması kollegial şəkildə Bədii şuranın qərarından sonra gerçəkləşəcək, bu sahədə heç bir subyektiv baxışa yol verilməyəcək. Doğrudur, biz film çəkmirik, ancaq istehsalla məşğul olan kinoşirkətlərin çəkiliş və filmlərini nümayiş etdirmək üçün çox vacib olan münbit şəraiti yaratmağı, təşkil etməyi və rəqabət bazarını stimullaşdırmağı təmin etməliyik ki, bir neçə ilə kino sahəsi yenidən dirçəlsin və dünya miqyasında elit festivallardan bizim "art filmlərin" qalib olduğu barədə xəbərlər gəlsin.

Qısa müddət ərzində biz Ssenari laboratoriyası və Alternativ Kino Akademiyası da yaratmağa nail olmuşuq. Mərkəzləşdirilmiş kino statistikası saytını yaradıb istifadəyə vermişik. Postprodakşn dövründə maddi yardıma tələbatı olan kino şirkətlərinə birdəfəlik dəstəyin verilməsini təmin etmişik. Dünyaşöhrətli Avropa prodüserləri Martin Hagemann və Titus Kreynbeqin rəhbərliyi ilə prodüser kursları açılıb və bu kursları bitirən gənclərdə yeni zehniyyətin artırılması üçün açıq pitçinqin keçirilməsi, buradan qalib çıxan layihələrin maliyyələşdirilməsi də həyata keçirilir. Fərəhli haldır ki, istehsalı başa çatmış "Hadrut, sən azadsan!", "Qarabağ FK – 30 mövsüm səfərdə" sənədli filmləri və "Oğurlanmış bahar" animasiya filmi artıq ictimaiyyətə təqdim olunub.

Onu da deyim ki, 1998-ci ildə qəbul olunmuş "Kinematoqrafiya haqqında" Qanun yaradıcılıq və istehsalat münasibətlərinin tənzimlənməsini təmin edə bilmir və onun yenidən yazılması zərurəti yaranıb. Bu sahədə hüquqşünaslarla və Milli Məclisdə müvafiq komitələrlə işlər aparılması, yeni Qanunu hazırlamaqla bağlı Mədəniyyət Nazirliyinin tərkibində işçi qrupunun yaradılması və digər tədbirlər vəziyyəti yaxşılaşdıracaq. Yeni qanunda kino istehsalı prosesində müxtəlif formalı imtiyaz və güzəştlərin tətbiqi də nəzərdən keçirilir. Digər mühüm prosedurlardan sonra qanunvericilik layihəsi hazırlanaraq kino ictimaiyyətinə təqdim olunacaq və veriləcək təkliflər nəzərə alınandan sonra sənəd daha da təkmilləşdiriləcək, sonra daha yüksək aidiyyəti orqanlara göndəriləcək.

Milli kino irsinin qorunması və zənginləşdirilməsi, habelə kino incəsənətinin təbliği də diqqət mərkəzindədir. Dövlət Film Fondunda, Dövlət Kino və Foto Arxivi İdarəsində, digər arxiv və mənbələrdə kinematoqrafiyaya aid vizual materialların, foto və sənədlərin vahid reyestrinin yaradılması və qorunması nəzərdə tutulur. Azərbaycan kinosunda əvəzsiz xidmətləri olan kino klassiklərinin Film Fondunda və yaxud yeni yaradacağımız kino muzeyində fərdi guşələrinin açılması, onlara aid əşya və sənədlərin toplanılaraq qorunması da görəcəyimiz işlər sırasındadır.

Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə "Milli kino tarixi" çoxcildliyi nəşr olunacaq, kino xadimlərinin yaradıcılığını və avtobioqrafiyasını əks etdirən elektron antologiya da hazırlanacaq. Mədəniyyət Nazirliyi milli kinomuzun təbliğ edilməsi məqsədilə A kateqoriyalı festivallarda Azərbaycan pavilyonlarının açılması haqqında qərar verib. Gələn ay Kann festivalında Azərbaycan pavilyonlarının qurulmasına başlanılacaq. Ölkəmiz həmin festivalda yeni yanaşma və yeni kino fəlsəfəsi təqdimatı ilə təmsil olunacaq. Həmçinin yerli telekanallarda təbliğat mexanizmi olaraq, müxtəlif təyinatlı kino verilişlərinin hazırlanması, müstəqil kino və mədəniyyət portallarının dəstəklənməsi nəzərdə tutulub.

Bir yenilik də budur ki, gənc nəslin mədəni-milli ruhda formalaşmasına töhfə vermək, habelə klassik və müasir filmləri tamaşaçılara daha yaxından tanıtmaq məqsədilə ali məktəblərdə onların nümayişinə başlanılıb. Bundan başqa, kino xadimlərinin yubileylərinə həsr olunmuş "Kinomuzu yaradanlar... kinomuzu yaşadanlar" adlı layihəyə start verilib və bu da kino sənətkarlarının irsinin gərəkən təbliği məqsədini daşıyır. Layihə hər ay 4 kino xadiminə həsr olunacaq.

ARKA kino mühitində bizə qədər mövcud olan müəyyən çarpazlılığı vahid istehsal mühitində birləşdirmək niyyətindədir. Mövcud nöqsanları aradan qaldırıb yeni istehsal mühitinə uyğunlaşdırırıq. Əminəm ki, yenidən hazırlanan qanunvericiliyə əsaslanan elə istehsal mühiti formalaşacaq ki, daha şirkətlər kino üçün dövlətdən pul ummayacaqlar, əksinə dövlət büdcəsinə pul gətirəcəklər. Biz Kino Agentliyini bu işlək halqada ancaq istehsalat və bazarı təşkil edən, stimullaşdıran mərkəz kimi görürük. Nəhayət, milli məzmun daşıyıcısına çevrilmiş, eyni zamanda, bütün dünyaya universal hekayə kontekstində vizual dildə bizdən danışan bir kino mühiti yaranacaq.

Xatırladım ki, ARKA bu areala yeni adlar qazandırmaq məqsədilə 2023–2024-cü illərdə istehsal olunmaq üçün film layihələri müsabiqəsi keçirib və seçilən filmlər istehsalata buraxılıb. Onların arasında, əlbəttə, dövlət sifarişi ilə maliyyələşən filmlər də var. Müstəqil mütəxəssislərdən ibarət Seçim komissiyası və Mədəniyyət Nazirliyinin kinematoqrafiya, rəqəmsal və digər audiovizual əsərlərin məzmununun qiymətləndirilməsi üzrə Ekspert Şurasının iştirakı ilə açıq səsvermə nəticəsində tammetrajlı, qısametrajlı bədii, sənədli, animasiya və tələbə filmləri layihəsinin istehsalına dəstək göstərilməsi təsdiq edilib.

Türkiyə, Özbəkistan və digər ölkələrlə birgə layihələrin həyata keçirilməsi də təmin edilib. Konkret olaraq Özbəkistan kinematoqrafçıları ilə görkəmli alim Maqsud Şeyxzadənin həyatından bəhs edən bədii filmin çəkilməsi üçün Bakıda memorandum imzalamışıq. Ümumiyyətlə, hədəfimiz iqtisadi səmərə baxımından daha çox xarici kino bazarına, xüsusilə də TÜRKSOY-a üzv ölkələrin bazarlarına yönəlib. Bu günlərdə Türkiyənin tanınmış film şirkətləri olan "Skala Film Prodüksiyon" və "Tulpar Film" şirkətləri ilə də anlaşma memorandumu imzalanıb. Tezliklə iki qardaş ölkənin bazarlarına çıxacaq "Qızıl qatar" adlı birgə filmin istehsalı nəzərdə tutulur. Filmdə 1918-ci ildə Nuru paşanın komandanlığı ilə Osmanlı ordusunun AXC-yə köməyə gəlməsi, həmçinin Bakıdan Türkiyəyə qızıl yüklü qatarın göndərilməsi öz əksini tapacaq. Türkiyə ilə birgə istehsal olunacaq daha bir film Nargin adasında saxlanılan türk əsirlərinin həyatından bəhs edən "Narginli Sona"dır. Bu ekran işini Türkiyənin "Yerli Düşüncə Basın Yayın Medya" şirkəti bizimlə birgə maliyyələşdirir. Bir sözlə, Azərbaycanı beynəlxalq çəkiliş məkanı kimi inkişaf etdirmək və xarici şirkətlərin bu işə cəlb olunması üzrə perspektivlərimiz genişdir.

İnanıram ki, Agentliyin dəstəklədiyi yeni filmlərimiz milli təqdimatda daha effektiv şəkildə dünya miqyasına çıxacaq və nəhayət, Azərbaycanı kino ölkəsi kimi dünyada tanıdacaq. Bütün çətinliklərə baxmadan, uğurlu sonluğa inanırıq və bu, belə də olacaq, çünki yaxşı filmin sonu həmişə yaxşı ovqat yaradır...

***Hazırladı:***
***Əli NƏCƏFXANLI***
***XQ***

# Zaman saxlancıdır tanınmışların





**Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə Sumqayıt Dövlət Dram Teatrında tanınmış teatr və kino rejissoru Rövşən Almuradlının 70 illiyinə həsr olunmuş bədii gecə keçirilib.**

Öncə monitorda mərhumun həyat və yaradıcılığı ilə bağlı foto-video fraqmentlər göstərildi. Sonra tədbirin aparıcısı Əməkdar artist Cəlal Məmmədov Rövşən Almuradlının yaradıcılıq fəaliyyətindən bəhs etdi. Sumqayıt Dövlət Dram Teatrının baş rejissoru, Xalq artisti Firudin Məhərrəmov ötən əsrin sonlarından tanıdığı Rövşən Almuradlının yaradıcılığının səciyyəvi cəhətlərini vurğuladı. Onun quruluş verdiyi "Dəyirman", "Bayramın birinci günü", "Qətl günü" və s. tamaşalarının fərqli keyfiyyətləri qeyd edildi. Ustad rejissorun hər zaman gənclərə tükənməz enerji ötürdüyü bildirildi.

Milli Məclisin üzvü, Xalq şairi Sabir Rüstəmxanlı milli mücadilə mövzusunda əsərlərin səhnə və ekran həllində rejissor dostunun rolunu dəyərləndirdi. Onun "Ölüm zirvəsi" romanının motivləri əsasında Rövşənin çəkdiyi "Cavad xan" bədii filmini qeyd etdi. BDU-nun professoru, Əməkdar jurnalist Qulu Məhərrəmli mərhum yubilyarın şəxsiyyəti ilə yaradıcılığının mükəmməl vəhdətinin təsvirini verdi. AJB-nin sədri Elçin Şıxlı bildirdi ki, Rövşən Almuradlı yaradıcılığının mayasında Vətən sevgisi, Turan sevdası, müdrik insan sevgisi dayanırdı. Milli Məclisin üzvü Müşfiq Məmmədli tanınmış rejissorun hər zaman tarixi irsə, qan yaddaşına sadiq olduğunu söylədi. Xanəndə, Əməkdar artist Nuriyyə Hüseynova ifası ilə məclisi rövnəqləndirdi. İstedadlı aktyor Cavidan Novruz "Cavad xan" filminin çəkilişləri ilə bağlı xatirələrini bölüşdü.

Sonda mərhum sənətkarın çox sevdiyi Ramiz Rövşən yaradıcılığından nümunələri musiqi notları üstündə bəstəkar-ifaçı, rejissor Rövşən Nicat təqdim etdi.

***Ə.ƏLİYEV***
***XQ***

# "Həmin gün..."ün musiqili-şeirli gecəsi



**"Atəşgah məbədi" iştirak etdiyimiz ənənəvi ədəbi-musiqili tədbirlər formatından xeyli fərqli, amma unudulmaz bir söz axşamına evsahibliyi edib. Orada təşkil olunan "Həmin gün..." adlı poeziya gecəsində Heydər Əliyev Fondunun vitse-prezidenti, ictimai xadim Leyla Əliyeva da iştirak edib.**

Müasir poeziyamızın tanınan isimlərindən olan şair-publisist, "Söz" ədəbi dərnəyinin rəhbəri Nigar Həsənzadə qonaqları salamlayaraq, şeir çələngindən nümunələr səsləndirdi. Sonra Əməkdar artistlər Firdovsi Atakişiyev və Gülzar Qurbanova Leyla Əliyevanın və Nigar Həsənzadənin şeirlərini söylədilər. Bədii-estetik cəhətdən olduqca nizamlı, ürəkoxşayan və düşündürücü şeirlər hər kəsi duyğulandırdı. Leyla Əliyevanın şeirlərini doğma dilimizə Adil Cəmil, Nigar Həsənzadənin şeirlərini isə Salam Sarvan tərcümə ediblər.

Qiraətçilərin ardınca "Sənət" uşaq musiqili incəsənət qrupu Ümummilli lider Heydər Əliyevin sevdiyi və öz ifasında eşitdiyimiz məşhur "Küçələrə su səpmişəm" xalq mahnısının müşayiəti ilə səhnəyə daxil oldu. Onlar həzin milli rəqs nümayiş etdirərək gecəni daha da canlandırdılar. Sonra səhnəyə məhdud fiziki imkanlı gənc estrada müğənnisi Murad Sadıx çıxdı və ecazkar səsi ilə hər kəsi heyran qoydu.

Leyla Əliyevanın özünəməxsus çıxışı ədəbi-musiqili gecənin ən maraqlı məqamı oldu. Onun öz yazdığı şeiri məxsusi ifa etməsi gecənin bütün iştirakçılarını təsirləndirdi.

Beləcə, dəqiqələr, saatlar Bakının ən qədim məkanlarından birində keçirilən poeziya gecəsinin şirinliyində əridi. "Həmin gün..." ədəbiyyat, mədəniyyat və mənəviyyat üçlüyünün gözəl vəhdəti kimi yadda qaldı.

***Anar TURAN***
***XQ***

# "Azərbaycan İrəvanı" sənədli filmin yaddaşında



**Bakı Kitab Mərkəzində Heydər Əliyev Fondunun dəstəyi ilə "Fortis Construction" şirkətinin layihəsi çərçivəsində ərsəyə gətirilmiş "Azərbaycan İrəvanı" filmində İrəvan tarixindən təxminən yüz il əvvəlki dövrünə "səyahət" edilir.**

Təqdimat mərasimini açan Bakı Kitab Mərkəzinin direktoru Günel Rzayeva tarixi irsimizin qorunmasına yönəlmiş bu layihəyə göstərdiyi dəstəyə görə Heydər Əliyev Fonduna təşəkkürünü ifadə edib. Filmin müəllifi və aparıcısı Fuad Axundov bildirib ki, bu film onların yaradıcı qrupunun 10-cu layihəsidir. Bu dəfə əsas məram İrəvanın qədim Azərbaycan şəhəri olduğunu əsaslı şəkildə göstərməkdir.

Filmin elmi məsləhətçisi, Gürcüstan Milli Muzeyinin Tarix və Etnoqrafiya İnstitutunun direktoru, "İrəvan xanlığı" kitabının müəllifi Eldar Nadiradze çəkiliş prosesinin özəlliklərindən bəıhs edib: "Mən belə bir nəticəyə gəlmişəm ki, Azərbaycan xalqı dünya sivilizasiyasının xəzinəsində görkəmli yer tutan möhtəşəm mədəni irsin yaradıcısıdır".

Daha sonra rejissoru Mirsadıq Ağazadə, prodüseri Səbinə Uluxanova olan film nümayiş olunub. Ekran əsəri vaxtilə çiçəklənən İrəvan xanlığının və İrəvan qalasının demək olar ki, tamamilə məhv olunmuş Azərbaycan mədəni, tarixi və insan amili irsi ilə birlikdə müasir dövrünün təxminən yüz illik tarixindən bəhs edir. Ekran əsəri Azərbaycan subtitrləri ilə rus dilində hazırlanıb.

***XQ***

**Replika**

# "Dil zəmisi"nin "alaq otları"

**Mətbu dil bədii dilin tərkib hissəsi və mədəniyyətin bir qoludur. Amma bəzən buna əhəmiyyət verilməməsi, dilin orfoqrafik tələblərinə və leksik qaydalarına, məna çalarlarına laqeyd yanaşılması təəssüf doğurur. Sanki informasiya resurslarında, onlayn mediada çalışanların çoxu fonetika, morfologiya, sintaksisin nə olduğundan xəbərsizdirlər.**



Əgər ana dilimizlə bağlı yazı qüsurlarına saytların, az qala, hər iki xəbərindən birində rast gəlməsəydik, bəlkə də bu barədə danışmazdıq. Amma belə deyil və yazı, ifadə səhvlərinin artan silsilə ilə getməsi ciddi narahatlıq doğurur. Dilə biganəlik göstərən həmkarlarımızın bir qismi bunu xəbərlərin tez-tələsik, necə gəldi, yazılıb yayımlanması ilə izah edir. Deyən gərəkdir: axı dilin nə günahı var ki, sən tələsib, informasiyanı necə gəldi, yazmalı olursan və unudursan ki, bununla həm də oxuculara hörmətsizlik göstərirsən?

Oxunmadan, redaktə olunmadan verilən xəbərlər vasitəsi ilə dövriyyəyə savadsız, eybəcər, hətta gülməli mətnlərin buraxılmasına heç cür haqq qazandırmaq olmaz. Çünki məlumatın, fikrin cilasız ifadəsi oxucu zehnini labirintə salır, əsəb yaradır.

Son günlərdə bəzi xəbər portallarında, saytlarda "pinti dil" nümunlərindən sitatları oxucuların diqqətinə çatdırmaq istəyirik:

**Teleqraf TV:** "Videonu bəyəndinizsə, kanala abunə olmağı və videonu bəyənməyi unutmayın"(ifadə təkrarı).

**Metbuat.az** "Sovetski"de söküntü zamanı bunlar tapıldı" (kompüterdə dil ayarlarını dəyişmək tənbəlliyi üzündən yol verilmiş kobud orfoqrafiya xətaları).

**Publika.az:** "Hindistan Pakistan bəhanəsi..." – "Hindistanın bu qərarına geostrateji narahatlıqlar və Türkiyənin Hindistanın düşmən hesab etdiyi Pakistanla yaxınlığının təsir etdiyi iddia edilir" (xəbərin başlığı anlaşılmazdır və 1 cümlədə 3 "etmək" feili işlənib.

**Apa.az** "Əraziyə Dövlət Yanğından Mühafizə Xidmətinin yanğından mühafizə bölmələri və təcili tibbi yardım briqadası cəlb edilib" (ifadə təkrarı).

**Axar.az** "Türkiyə İran rəsmilərinə və İsrailə təsiri olan Qərb ölkələrinə gərginliyə son qoymağa çağırış edir (14 sözün 5-i ismin yönlük halında işlənib).

**Banker.az:** Rubrika – "Ölkə daxılı". ("Ölkədaxili" xəbər mənasındadır). Amma ifadənin tələb olunan kimi, bitişik yazılmaması, üstəlik də saytın adı və "daxıl" sözü bank–maliyyə anlayışı yaradır. Halbuki, xəbərdə söhbət rayonların birində DYP bölməsinə rəis təyinatından gedir (Biz hələ həmin xəbərlərin heç bir vacib informativ əhəmiyyət daşımadığını demirik).

Bu cür ürəkbulandıran misallardan çox çəkmək olar. Oxucu hər hansı bir saytda xəbərlərə dilin saflığı baxımından nəzər salsa, nöqsanlara yetərincə rast gələ bilər.

Gəlin, media məkanını, digər janrlara nisbətən, daha çox oxunan xəbərlərin mətnlərini zibilləməyək! Məsuliyyətsizlik səbəbindən bu məkanı basan "alaq otları"nı təmizləyək və qəlbimizin tərcümanı olan dilimizi qoruyaq.

***Ə.DOSTƏLİ***
***XQ***

# “M Teatr” təkcə səhnə deyil, həm də mədəni mərkəzdir

*Müsahibimiz yeni sənət ocağının yaradıcısı və rəhbəri, Xalq artisti Vidadi Həsənovdur*




**– Vidadi müəllim, “M Teatrı” yaratmaq ideyası necə meydana çıxdı?**

– Mən uzun illərdir Mədəniyyət və İncəsənət Universitetində müəllimlik edirəm. Bu müddətdə çox sayda bacarıqlı və istedadlı tələbələrə rast gəlmişəm. Lakin onların bir çoxunun universiteti bitirdikdən sonra iş tapa bilmədiklərinə görə məyus olurdum. Bir müddət keçirdi və mən həmin tələbələrin taksi sürücüsü və başqa xidmət sektorlarında işləyən gördüm. Dövlət teatrlarında isə ştata düşmək çox çətindir.

Düşündüm ki, belə gənclərin istedadını üzə çıxarmaları üçün müstəqil teatr yaradaq. “M Teatr” belə yarandı! Gördüyünüz kimi, 2016-cı ildən bu günə qədər bu teatr fəaliyyət göstərir.

**– Teatrın səhnəsində daha çox hansı janrda tamaşalar oynanılır?**

– “M Teatr”da müxtəlif janrlarda maraqlı tamaşalar səhnəyə qoyulur. Teatrın repertuarında yer alan Rövşən Ağayevin “Vidalaşmadan getmə”, dahi bəstəkar Üzeyir Hacıbəylinin felyetonları və böyük satirik Mirzə Ələkbər Sabirin şeirləri əsasında hazırlanan “Məsəl və Əməl” tamaşaları teatrsevərlər tərəfindən rəğbətlə qarşılanıb.

Dünya yazıçılarının əsərlərinə də müraciət edirik. Bu tamaşalardan Antuan de Sent Ekzüperinin “Balaca şahzadə”, Con Steynbekin “Adamlar və siçanlar” və başqalarını misal çəkmək olar.

**– “M Teatr”ın tamaşalarına daha çox kimlər gəlir?**

– Teatrımızın tamaşaçıları əsasən şəhərimizin intellektual sakinləridir. Biz repertuarı insanların arzu və istəklərinə uyğun olaraq seçirik. Sosial şəbəkələrdə tez-tez sorğular keçiririk. Hansı müəllifin əsərlərini səhnədə görmək istəyirlər? Sorğudan sonra müəyyən qənaətə gəlib həmin tamaşaları hazırlayırıq.

Məsələn, son 4-5 ay ərzində keçirdiyimiz sorğulardan bəlli olub ki, insanlar daha çox “Ovod” tamaşasını səhnədə görmək istəyirlər.

Əslində, hər bir tamaşanın öz tamaşaçısı var. Biz də tamaşaçılarımızdan çox razıyıq.

**– Vidadi müəllim, bir qədər də aktyor heyətinin peşəkarlığı barədə söz açardınız....**

– Bizim teatrda Mədəniyyət və İncəsənət Universitetinin məzunları ilə yanaşı, başqa təhsil ocaqlarını bitirmiş gənclər də var. Onların incəsənət sahəsinə maraqları olduqca böyükdür. Buna misal kimi, teatrın istedadlı aktrisası Oksana Rəsulovanın adını çəkə bilərəm. Baxmayaraq ki, bu xanımın bu sahədə ixtisas təhsili yoxdur, amma teatrda aparıcı aktrisalardandır.

Teatrın yaradıcı heyətində Xarici Dillər Universitetini bitirmiş gənc aktrisa Ayla Rüstəm də var. Bütövlükdə, bizdə istedadlı aktyorlar çoxdur. Ümumiyyətlə, istedad haqqında məşhur bir deyim də var. “İstedadlı insan hər sahədə istedadlıdır”.

**– “M Teatr” müstəqil yaradıcılıq təşkilatıdır. Teatrın maliyyə problemləri nə cür həll olunur?**

– Biz dövlət teatrı deyilik ki, bizi maliyyələşdirsinlər. Fəaliyyətimizi bilet satışından gələn gəlirlər hesabına qurmuşuq. Teatr texniki resurslarla - işıq sistemi, səs effektlərini gücləndirmək üçün komputerlər və başqa avadanlıqlarla təchiz olunub. Yerləşdiyimiz məkanı təmir etmişik.

Çalışırıq ki, bilet satışından əldə etdiyimiz o qədər də çox olmayan gəlirləri səmərəli və faydalı işlərə sərf edə bilək. Bundan əlavə, teatrda şair, yazıçı və digər yaradıcı insanlarla görüşlər keçirilir. Bir qrup gənc aktyor da var ki, onlar tamaşa hazırlayır, lakin nümayiş etdirmək üçün yerləri yoxdur. Biz onlara tamaşalarını kütlə qarşısında göstərə bilmələri üçün müəyyən şərait yaradırıq. Buna görə də hesab edirəm ki, “M Teatr” sadəcə teatr deyil, həm də mədəniyyət mərkəzidir.

***Fidan HÜQUQQIZI***
***Elşən AĞALAR (foto)***
***XQ***



# ABŞ və NATO Ukraynaya yeni hücum silahları hazırlayır

*Yayda Kiyevə çox sayda hərbi təyyarə çatdırılacaq*



**Rusiya cəbhədə üstünlüyə malik olsa da və Ukraynadakı strateji hədəflərə əhəmiyyətli hücumlar həyata keçirsə də, Ukrayna da silahlı qüvvələrini dəstəkləmək üçün resurslar axtarır. ABŞ-da Nümayəndələr Palatası aprelin 20-də Kiyevə uzaq mənzilli ATACMS raketlərinin tədarükünü nəzərdə tutan təxminən 61 milyard dollar dəyərində yardım layihəsinə baxacaq. Latviyanın baş naziri Evika Silina artıq bəyan edib ki, 2025-ci ilin fevralına qədər 14 NATO ölkəsindən ibarət qrup Ukraynaya bir milyon pilotsuz uçan aparat tədarük etmək niyyətindədir. Aİ-nin Brüsseldə keçirilən sammitində Hollandiyanın baş naziri Mark Ruttenin Ukrayna ordusu üçün əlavə “Patriot” hava hücumundan müdafiə sistemləri almaq imkanlarının tapılması təklifinin dəstəklənməsinə qərar verilib.**

Ukraynaya yardımın ayrılmasını nəzərdə tutan sənəd artıq ABŞ prezidenti Cozef Bayden tərəfindən dəstəklənib və o, “Konqresin hər iki palatasında təsdiqləndikdən sonra onu imzalamağa hazır olduğunu” bildirib. Ümumi məbləğin 23,2 milyard dolları ABŞ-ın müdafiə ehtiyatlarının artırılmasına, 27 milyard dollardan çoxu isə Ukrayna silahlı qüvvələrinə silah yardımına yönəldilməlidir. Ukrayna hökuməti tərəfindən büdcə xərclərinə, o cümlədən sosial sahəyə təxminən 8 milyard dollar ayrılması planlaşdırılır. İqtisadiyyatın prioritet sahələrinə (kredit hesabına), o cümlədən hazırda NATO ölkələrinin (ilk növbədə Almaniya, Türkiyə və Böyük Britaniya) dəstəyi ilə inkişaf edən müdafiə-sənaye kompleksinə 1,6 milyard dolların ayrılması nəzərdə tutulur. Qanun layihəsinə görə, ABŞ prezidenti Ukrayna ilə yalnız iqtisadi dəstək maddələrinin Kiyev tərəfindən ödənilməsi ilə bağlı razılığa gəlməlidir. Bayden Ukraynaya göstərilən yardıma görə borcunun 50 faizinə qədərini silmək hüququna malik ola bilər, lakin 2024-cü il noyabrın 15-dən gec olmayaraq.

Bu planları şərh edən Pentaqonun rəhbəri Lloyd Ostin bildirib ki, ABŞ Ukraynada hərbi əməliyyatlara qarışmaq niyyətində deyil, ona yardım edəcək. “Biz özünü müdafiə edən Ukraynanın yanında olacağıq. Və biz NATO-nun kollektiv müdafiəsini və çəkindirmə gücünü gücləndirməyə davam edəcəyik”, – deyə o bildirib.

Ukraynaya verilə biləcək silahların tam siyahısı hələ təsdiqlənməyib. Nümayəndələr Palatasının saytında dərc olunan qanun layihəsindən də göründüyü kimi, onun qəbulundan sonra 45 gün ərzində Dövlət Departamenti və Pentaqondan Ukraynaya dəstək strategiyasını Konqresə təqdim etmələri tələb olunur. O, Ukraynaya hücum silahları ilə yardım etməyi nəzərdə tutur. Qanun layihəsi ABŞ prezidentinə Ukrayna hökumətini müdafiə və qələbə üçün ATACMS uzaqmənzilli taktiki raket sistemləri ilə təmin etməyi tapşırır. Onların modifikasiyalarının 165-dən 300 km-ə qədər və ondan kənarda olan hədəfləri vura bildiyi məlumdur. Hansı raketlərin Ukraynaya veriləcəyi məlum deyil.

Qanun layihəsinin beşinci hissəsində deyilir ki, Amerika prezidenti bunun ABŞ-ın milli təhlükəsizliyinə zərər verə biləcəyini hesab edərsə, ATACMS raketlərinin Ukraynaya verilməsi gecikə bilər. KİV prezidenti əvvəllər ATACMS raketlərinin Ukraynaya ötürülməsinə icazə vermək səlahiyyətinə malik olduğuna diqqət çəkir. 2023-cü ilin payızında isə Pentaqon artıq Ukraynaya 165 km-ə qədər məsafədə hədəfləri vura bilən ATACMS Blok I (MGM 140A) versiyasında belə silahlar tədarük edib. Bundan sonra Amerika qəzetləri Ukraynanın kaset sursatları ilə təchiz edilmiş bu uzaqmənzilli raketləri gizli şəkildə aldığını yazmışdı. Bu qərarın nə vaxt təsdiqləndiyi məlum deyil. Lakin rusiyalı senator Dmitri Roqozinin sözlərinə görə, Ukraynanın bu yüksək dəqiqlikli silahları 2023-cü ilin oktyabrında Zaporojye vilayətində istifadə edilib. Bəzi ekspertlərin fikrincə, ATACMS raketləri 2024-cü il aprelin 17-nə keçən gecə Krımda Cankoyda obyektlərə zərər vurmağa cəhd edərkən də istifadə oluna bilərdi. Rusiya rəsmiləri bunu nə təsdiq, nə də təkzib edirlər.

Kiyevin planlarını NATO ölkələri də dəstəkləyir. NATO-nun baş katibi Yens Stoltenberq Hollandiyanın baş naziri Mark Ruttenin Ukrayna Silahlı Qüvvələrinə əlavə “Patriot” hava hücumundan müdafiə sistemlərinin verilməsi prosesinə sponsorluq etmək təşəbbüsünü dəstəkləyərək, müttəfiqləri bu istiqamətdə səylərini gücləndirməyə çağırıb. Danimarkanın müdafiə naziri Troels Lund Poulsen bildirib ki, onun ölkəsi Kiyevə hərbi sənaye kompleksinin inkişafı, o cümlədən pilotsuz uçuş aparatları (PUA), dəniz pilotsuz təyyarələri və raketlərin istehsalı üçün 295 milyon avro ayırır. Bununla bağlı Latviya hərbi idarəsinin rəhbəri Andris Spruds da bildirib ki, bu ölkənin hökuməti 14 NATO ölkələri koalisiyasının qeyd etdiyi tədbirlər çərçivəsində Ukraynaya pilotsuz təyyarələrin ilk paketini verməyə hazırdır.

Xatırladaq ki, 2025-ci ilin fevralına qədər Kiyevə ümumilikdə 1 milyona yaxın hücum PUA-sının göndərilməsi planlaşdırılır. Media bildirir ki, Hollandiya daha üç F-16 qırıcısını ukraynalı pilotların hazırlanması üçün Rumıniya mərkəzinə göndərir. "Reuters" yazır ki, 2023-cü ilin noyabrından Hollandiya artıq Rumıniyaya səkkiz qırıcı tədarük edib və ümumilikdə onlar Ukrayna pilotlarının təlimi üçün 18 belə təyyarə verəcəklərini vəd ediblər. Haaqa, həmçinin Ukraynaya 24 F-16 qırıcısı təhvil verəcəyini vəd edib. "Reuters" agentliyinin məlumatına görə, onlar 2024-cü ilin ikinci yarısında Kiyevə göndərilməlidir. Norveç 22 ədəd F-16 bölməsinin Ukraynaya təhvil veriləcəyini bildirib. Qərb ölkələrinin vəd etdiyi ilk F-16 təyyarəsinin yayda Ukraynaya çatacağı gözlənilir. Hazırda Qərb Rusiya ordusunun mümkün strateji hücumunu gözləyir.

***S.ELAY***
***XQ***




## Gimnastımız gümüş qazanıb

**Azərbaycanın idman gimnastı Nikita Simonov beynəlxalq arenada növbəti uğurunu qazanıb.**

Komandamızın üzvü Qətərin paytaxtı Dohada keçirilən Dünya kubokunda uğurla çıxış edərək mükafatçılar sırasında yer alıb. Belə ki, N.Simonov kişilər arasında halqalarda çıxışına görə gümüş medal qazanıb.

## Şahmat yarımfinalçıları

**Kişi şahmatçılar arasında Azərbaycan çempionatında yarımfinalçılar müəyyənləşib.**

Reqlamentə əsasən 9 turdan sonra ilk dörd yeri tutan şahmatçılar mübarizəni davam etdirəcək. Aprelin 21-də başlayacaq yarımfinalda 9 turdan sonra lider olan Məhəmməd Muradlı dördüncü yerdə qərarlaşan Vüqar Rəsulova, 2-3-cü yerləri tutan Aydın Süleymanlı isə Xəzər Babazadəyə rəqib olub. Yarımfinal iki oyundan ibarət olacaq.



İlk oyunda Xəzər Babazadə və Vüqar Rəsulov ağ fiqurlarla yarışacaq.

Qeyd edək ki, Azərbaycan çempionatının mükafat fondu artırılaraq 30 min manata çatdırılıb. Yarışın qalibi medal, diplomla təltif olunacaq və 12 min manat əldə edəcək.

***L.SABİRQIZI***
***XQ***

İDMAN

# Zərif güclərin dünya mübarizəsi

Milli Gimnastika Arenası növbəti yarışa uğurla evsahibliyi edir




**Müasir dünyada ən cazibədar idman növü kimi tanınan bədii gimnastika hər yerdə könülləri fəth edir. İdman və incəsənəti özündə birləşdirən bu olimpiya idman növündə qadın atletlər texniki bacarıqlarını mürəkkəb bədən hərəkətləri ilə valehedici tərzdə ifadə edirlər. Bu günlər bədii gimnastika üzrə dünya “ulduzları” yenidən Bakı Gimnastika Arenasında Dünya kuboku yarışında bir araya gəliblər.**

Artıq 3-cü gündür ki, gənc, cazibədar, zərif qızlar mükafatçılar sırasında yer almaq üçün həm də böyük çeviklik, güc və dözümlülük nümayiş etdirirlər. Bu nüfuzlu yarışın ənənəvi olaraq ölkəmizdə keçirilməsi isə Azərbaycanın adının dünyanın ən güclü gimnastika dövlətləri arasında öncüllər sırasında çəkilməsi və bu gözəl idman növünə böyük marağın olmasıdır.

Yarışın açılış mərasimində Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov çıxışında paytaxtımızın gimnastika növləri üzrə daha bir nüfuzlu yarışı qəbul etməsini ölkəmizdə idmana göstərilən diqqət



və qayğının nümunəsi kimi dəyərləndirib. Nazir Bakının dünya gimnastikasının əsas mərkəzlərindən biri olduğunu qeyd edərək Azərbaycanın idman uğurlarının artdığını və gimnastikanın ildən-ilə daha da inkişaf etdiyini diqqətə çatdırıb.

41 ölkədən 129 idmançı budəfəki yarışlarda fərdi və qrup hərəkətləri üzrə ayrı-ayrı alətlər və çoxnövçülük proqramında mübarizə aparırlar. Onların arasında Azərbaycanı təmsil edən atletlərimizin çıxışlarını xüsusi vurğulamalıyıq. Yarışda ölkəmizi fərdi proqramda Zöhrə Ağamirova, qrup hərəkətləri proqramında isə Zeynəb Hümmətova, Güllü Ağalarzadə, Darya Sorokina, Yelizaveta Luzan, Ləman Əlimuradova və Kamilla Əliyevadan ibarət komanda təmsil edir.

Turnirin ilk günü böyüklərdən ibarət fərdi proqramda millimizin üzvləri Zöhrə Ağamirova və Kamilla Seyidzadə çıxış ediblər. Zöhrə Ağamirovanın halqa ilə çıxışı hakimlər briqadası tərəfindən 33.650 xal ilə qiymətləndirilib. Topladığı xal ona 4-cü pillədə qərarlaşmağa və final mərhələsinə yüksəlməyə imkan verib. Qeyd edək ki, Z.Ağamirova İspaniyanın Valensiya şəhərində keçirilmiş dünya çempionatında Paris Yay Olimpiya Oyunlarına lisenziya qazanıb. O, Avropa çempionatının bürünc mükafatçısı, Yay Universiadasının dördqat gümüş və bürünc medalçısıdır.

Böyüklərdən ibarət qrup hərəkətlərində millimizin üzvləri Güllü Ağalarzadə, Kamilla Əliyeva, Yelizaveta Luzan, Darya Sorokina, Ləman Əlimuradova və Zeynəb Hümmətova uğurla çıxış edərək həm hakimlər briqadasını, həm də Milli Gimnastika Arenasında toplaşmış azarkeşləri valeh etməyi bacarıblar. Onlar 5 halqa ilə çıxışlarına görə 36.550 xal qazanaraq 3-cü yerə layiq görülməklə, finalda çıxış etmək hüququ qazanıblar.

Dünya kubokunun ikinci günü fərdi yarışlarla başlayıb. Gimnastlar gürz və lentlərlə bacarıqlarını nümayiş etdirib, həm bu iki növdə, həm də çoxnovçülükdə finala vəsiqələrin sahiblərini müəyyənləşdiriblər. Azərbaycan gimnastları Zöhrə Ağamirova və Kamilə Seyidzadə də öz kompozisiyalarını nümayiş etdiriblər.

Zöhrə Ağamirova Dünya kubokunda növbəti dəfə finala vəsiqə qazanıb. O, lentlə çıxışda 33,650 bal toplayaraq, bu hüququ əldə edib. Gimnastımız yarışın ikinci günündə ümumilikdə 125.850 xal toplayaraq, adını ilk "səkkizliy"ə yazdırıb. Digər gimnastımız Kamilla Seyidzadə isə ümumi təsnifatda (118.450 xal) 23-cü pillədə qərarlaşıb.

Ənənəvi olaraq artıq 11-ci dəfə keçirilən bədii gimnastika üzrə Dünya kubokunun iştirakçıları yarışla, eləcə də doğma şəhərimiz Bakı və möhtəşəm Milli Gimnastika Arenası ilə bağlı təəssüratlarını da bölüşməyi unutmurlar. Fransalı idmançı Maelle Millet jurnalistlərə açıqlamasında Milli Gimnastika Arenasının çox böyük və müasir tələblərə cavab verdiyini, burada yarış iştirakçıları üçün hər cürşərait yaradıldığını qeyd edib. O, 3 il əvvəl də Bakıda olduğunu və paytaxtımızın ötən illər ərzində çox inkişaf etdiyini deyib.

Yarış bu gün başa çatacaq. Ənənəyə uyğun olaraq kubokda ən çox icra xalını toplamış gimnast və qrup komandasına ənənəvi “AGF Trophy” Kuboku təqdim olunacaq.

***Leyla QURBANOVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 80 (30484) 21 aprel 2024-cü il, bazar

Yaddaşlarda yaşayanlar

# Vilayət Rüstəmzadə: Sən 1941-ci ildə yaşamış olsaydın...

**... Yetmişinci illərdə – Bakıya gəldiyim ilk dövrdə əvvəlcə böyük kitabxanalarla tanış olmuşdum, sonra isə ədəbi birlik və ədəbiyyat dərnəkləri ilə. O vaxt belə birlik və dərnəklər çox idi. Çünki, 1976-cı il mayın 26-27-də Azərbaycan Yazıçılar İttifaqının VI qurultayı keçirilmiş və orada Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev geniş nitq söyləyərək yazıçıların qarşısında böyük vəzifələrin dayandığını demişdi:**



"...Bizim tanınmış söz ustalarımız onları əvəz edəcək gənclərin yaradıcılıq inkişafının daim qayğısına qalmalıdırlar… Belə bir işi Yazıçılar İttifaqı təşkil etməlidir, gənc ədəbiyyatçılar böyük yaradıcılığa qədəm qoyan gündən, hələ ilk addımlarından Yazıçılar İttifaqının qayğı və köməyini görməlidirlər. Azərbaycan Yazıçılar İttifaqı gənclərin bir sənətkar kimi inkişafına diqqəti artırmaqla bərabər, onların yaradıcılıq təşkilatının ictimai fəaliyyətinə də, respublikanın ictimai həyatına da geniş cəlb etməlidir".

Həmin çağırışın cavabı olaraq çoxsaylı addımlar atılmışdı. Mən daha çox Bayılda, Neftçilərin Mədəniyyət sarayında fəaliyyət göstərən "Müşfiq bulağı" ədəbi birliyinin (həmin kollektivi çox illər əvvəl Mikayıl Müşfiqin yaratdığını deyirdilər) tədbirlərində iştirak etsəm də, hərdən proletarların ali rəhbərinin adını daşıyan kitabxanadakı ədəbi birliyə də gedirdim. Bayıldakı kollektivin rəhbəri fəlsəfə elmləri namizədi Telman Haqverdiyev, Lenin adına kitabxanadakı birliyin rəhbəri isə şair-tərcüməçi Vilayət Rüstəmzadə idi.

Mərhum Vilayət müəllim heç kəsin şeirinə, hekayəsinə "əla" və ya "pis" deməsə də, maraqlı münasibətləri, cavabları, yerində olan atmacaları ilə hamının könlünü ala bilirdi. Məsələn, sonralar özünü həqiqi şair kimi təsdiq etmiş Əlislam Bilal bir tədbirə gecikmiş və qapının yanında ayaq üstdə qalmışdı. Vilayət müəllim ona dedi ki, qonşu otaqdan stul götür, əyləş. Bir az özündən razı olan Əlislam dedi: – Bu qədər söz sahibinə bir söz sərkərdəsi lazım deyil? Qoy ayaq üstdə dayanım.

Vilayət müəllim gülümsündü: – Amma sən indi sərkərdə yerində yox, qapıçı yerində dayanmısan.

Bir dəfə də gənc şairlərin hansınınsa oxuduğu şeirdə "Tut ağacının qotur kölgəsi" ifadəsi var idi. Mən həmin ifadəyə etiraz etmək üçün söz demək istədim. Vilayət Rüstəmzadə "sonra" – deyərək gənc şairdən xahiş etdi ki, o qotur sözünü tut ağacının kölgəsindən çıxart. Sevərək yediyim əsas meyvə tutdur, onu da qoturluğa caladın. Yeri gəlmişkən, mən bilən onun özünün də bir "Tut ağacı" adlı şeiri var idi.

Tədbirlərin birində mən dedim ki, 1941-ci il iyun ayının 21-də – taxıl biçilib-döyüldüyü gün kəndimizə qalın qar yağıbmış. Danışdım və həmin təbiət hadisəsinə həsr etdiyim "Xırmana qar yağırdı" adlı şeirimi oxudum:

**– Qar yağır! Qar yağır" – çığırdı kimsə.**
**Qulaqda səslərə şübhə yarandı.**
**– İyun səmasında qar olmaz oğul!**
**Gözlərdə gözlərə şübhə yarandı.**
**– Qar yağır! Ay uşaq, açın vələri,**
**– Təbiət sınağa çəkir insanı,**
**Xırman şanasıyla qar kürünərmi?**
**Belində ağappaq tər köpüklənən**
**kəlin buynuzunda qar görünərmi?**
**... Xırmana quşbaşı heyrət yağdıran**
**O qarla başladı neçə qəm, kədər...**
**Həmin gün əriyib rədd olan qarın**
**Soyuğu getmədi 45-ə qədər.**

Zala ani də olsa sükut çökdü. Bəlkə də iki dəqiqə heç kəs heç nə demədi. Sonra Vilayət müəllim dilləndi: – Əgər sən 1941-ci ildə yaşamış olsaydın... təbiət hadisəsini cəmiyyət hadisələri ilə bağladığın bu şeir şedevr kimi qəbul edilərdi. Kiminsə dilindən eşitdiyin əhvalatı qələmə aldığına görə isə öz dilin də qısadır, bu şeiri bəyənmək istəyənlərin dili də.

... Çox sonralar görkəmli tərcüməçi-şair Siyavuş Məmmədzadə bu şeiri rus dilinə tərcümə elədi və "Literaturnı Azerbaydjan" qəzetində verdi. Siyavuş müəllimlə münasibətlərimiz ayrıca bir yazının mövzusu olacaq. Allah ona da rəhmət eləsin, Vilayət Rüstəmzadəyə də.

*İttifaq MİRZƏBƏYLİ*

# NASA-nın Saturn missiyası

**NASA Saturnun ən böyük peyki olan Titana uçuşu nəzərdə tutan "Dragonfly" missiyasının 2028-ci ilin iyulunda başlayacağını təsdiqləyib.**

Kosmik missiya 3,35 milyard dollara başa gələcək. Titan Günəş sistemində Yerdən başqa səthində hava və maye olan yeganə səma cismidir. Onun atmosferi, yağışı, gölləri, okeanları, sahilləri, dərələri, dağ silsilələri və bəlkə də həyatın özü var.



2034-cü ildə Titana çatması planlaşdırılan "Dragonfly" missiyası iki il davam edəcək. Missiya zamanı kosmik gəmi peykdən bir sıra nümunələr götürəcək.

NASA-nın elmi missiya direktorluğunun köməkçi administratoru Nikki Foks bunun geniş ictimaiyyətin marağına səbəb olan möhtəşəm bir layihə olduğunu söyləyib. Bildirilib ki, Titandakı cazibə Yerin cəzbetmə qüvvəsinin cəmi 14 faizini təşkil edir. O, Yerin aldığı günəş işığının yalnız bir faizini görür. Peykin dənizləri və gölləri isə su deyil, maye metandan ibarətdir.

Məlumata görə, "Dragonfly" missiyası pandemiya səbəbindən ləngiyib. 2019-cu ildə seçildiyi zaman onun bir milyard dollara başa gəlməsi gözlənilirdi. Missiya 2026-cı ildə işə salınmalı və səkkiz illik kruiz mərhələdən sonra peyka çatmalı idi. Bununla belə, NASA missiyanın kruiz mərhələsini qısaltmaq üçün ağır yük daşıyan aparatı maliyyələşdirməklə gecikmiş buraxılışı kompensasiya etmək qərarına gəlib.

*XQ*

**Təbiətdə çoxlu sayda ağaclar və adlı-adsız çiçəklər var. Boyu boylardan fərqlənməyən alça ağacının ağappaq, qar dənəsi kimi çiçəkləri özəlliyi ilə seçilir. Gendən baxanda "əl dəymə, töküldüm, ha töküldüm" deyir. Elə bilirsən ki, qəfil bir küləyin, ılıq bir yaz mehinin əsməyi ilə üstündə çiçək deyilən heç nə qalmayacaq...**

Alça çiçəyi özü boyda ağappaq işıqdır. Bu ağappaq işıq bir qız gülüşüdür, yaxşı ana öyüdü görmüş, yaxşı sevgiyə ürcah gəlmiş həyalı bir qız gülüşü. Hansı qızı, hansı gəlini alça çiçəyinə bənzətsən, inanma ki, onun könlünü qırmış olarsan. Nahaq demirik ki, alça çiçəyi qızlar, alça çiçəyi balam.. Əksinə, bəlkə də ən yaxşı qızlar, ən gözəl gəlinlər elə alça çiçəyidir.

Düyünçəsinə əl dəyəndə adamın yadına diş hədiyyəni çıxarmış körpə düşür. Tək-tək diş çıxaran körpə, onun üz-gözündə ləçəkləyən təbəssüm elə alça çiçəyinin özüdür. Yazın sorağını verən zoğal və badam ağaclarının ardınca həmişə alça çiçəkləyir. Yetişəndə o ağ çiçəyin turş meyvə-

# "Alça gül açdı..."



si olur. Amma hər ilin yaz vədəsi duz batırıb yediyimiz o meyvənin həsrətini çəkirik. Analarımız ən ləziz, ən dadlı xörəklərinə alça turşusu, alça qurusu tökərlər. O gəlindən gəlin olmaz ki, həmin o turş alçadan bu üzündən baxanda o biri üzü görünən yuxa kimi lavaş salmağı bacarmasın.

Çiçək vədəsi, çiçək çağı alçaya su verməzlər. Alça çiçəkləyəndə ona su verdin, inanma ki, üstündə çiçəyi qala, bar vədəsi gözəllərin həyadan qızarmış yanağına bənzəyən qırmızı-qırmızı meyvəsi ola. Alça su içdisə, bir az ötəli baxarsan ki, elə bil ağacın dibinə ağappaq dəsmal sərmisən. Elə bil hansısa ali qurumuşsa gedib ağacın gövdəsindən tutub gücü gəldikcə silkələyib. Alça çiçəkləyəndə ona dəhrə, balta vurmazlar. Əgər qurumuş budaqları kəsmək gərəkdirsə, bunu ya çiçəkdən əvvəl, ağacın budağına su verilməmiş edərlər, ya da barı, mer-meyvəsi urvalanıb qurtarandan sonra. Təbiət özü göstərir ki, bunları çiçək vədəsi etməzlər. Yoxsa dəhrə dəyən yerdən alça köz-köz, çiçək-çiçək ağlayar.

Ana təbiətdə əzəmətli, boy-buxunlu ağaclar var ki, ona oxşamaq, onun kimi ömür sürmək istəyirik. Palıd kimi möhkəm, çinar kimi uca, dəmirağacı kimi dözümlü olmağı arzulayırıq. Alçanın əzəmətli boy-buxunu, yeyəndə dadı damaqlardan getməyən tamlı meyvəsi olmasa da, bizim oxşamaq istədiyimiz ağaclardan heç birindən kəm deyil. Heç bir ağac, heç bir kol çiçək vaxtı alça ağacının, təpədən dırnağa gözəllik olan alça çiçəyinin yerini verməz. Başqa ağacları əl-əl gəzdiyimiz, əkib-becərib qulluğunda durduğumuz halda alça ağacı özü öz törəməsini, naslını artırır.

Ağappaq alça çiçəyi adamı təmizliyə, paklığa, duruluğa, xeyirxahlığa çağırır. Harada təmizlik, paklıq varsa, orada müqəddəslik var, orada gözəllik var. Gözəl olan hər şey sevilməyə, əzizlənməyə və qorunmağa layiqdir...

*Süleyman QARADAĞLI*

Unutsaq, unudularıq

# Məcid Behbudov – gerçək "Arşın malçı"

**Bu il aprelin 18-də görkəmli muğam ustası, Xalq artisti, dünya şöhrətli Rəşid Behbudovun atası Məcid Behbudalı oğlu Behbudovun 151 yaşı tamam olur. Öz dövrünün məşhur xanəndəsi olmuş Məcid Behbudov 18 aprel 1873-cü ildə Şuşada anadan olub, 6 sentyabr 1945-ci ildə Qazaxda vəfat edib.**

Bununla bağlı Rəşid Behbudovun qızı Rəşidə xanım "Fasebook" sosial şəbəkəsində xatırlatma edib. Rəşidə Behbudova babasını bu sözlərlə yada salıb: "Klassik muğamlarımızın, xalq mahnılarımızın mahir bilicisi və təkrarsız ifaçısı Məcid Behbudovun musiqi mədəniyyətimizin qorunub saxlanmasında və günümüzə qədər gəlib çıxmasında xidmətləri ölçüyəgəlməzdir.

İngiltərənin məşhur THE GRAMOPHONE CO. LTD. şirkəti 1906-1920 illər ərzində böyük sənətkarın səsi ilə 40-dan artıq val buraxaraq dünyaya yaymışdı. Bu gün Böyük Britaniyanın Kral kitabxanasında Məcid Behbudovun səsi yazılmış 40 val qorunur.

Fransanın "Pate" şirkəti də Məcid Behbudovun səsi yazılmış onlarla val buraxmış və bunlar dünyada geniş yayılmışdır. Şirkətin buraxdığı valların nüsxələri isə Fransa Milli kitabxanasında qorunur".

Nəhayət, musiqi tarixçilərinin qənaətinə görə, böyük Üzeyir Hacıbəylinin dünyaşöhrətli "Arşın malçı"sının prototipi də Məcid Behbudov olub.

*XQ*



# Aranda yağmursuz, dağlarda yağıntılı...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən aprelin 21-də Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək.**



Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub küləyi əsəcək. Gecə 13-18°, gündüz 23-28° isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütunundan 754 mm civə sütununa enəcək, nisbi rütubət gecə 65-75, gündüz 45-55 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq və dağətəyi ərazilərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısa müddətə intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 12-17°, gündüz 25-30°, dağlarda gecə 7-12°, gündüz 13-18° isti olacaq.

*Q.QASIMOV*
*XQ*




Elşən AĞALAR (foto)

**ALLAH RƏHMƏT ELƏSİN**

Azərbaycan Turizm və Menecment Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Təşkilatı Bünyamin və Lalə Qənbərliyə əzizləri

ŞİRALININ

vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3881
SİFARİŞ 826
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00